# 15 İyun Milli Qurtuluş Günüdür!


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 126 (30242) 15 iyun 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


## Günün sözü

**Prezident İlham Əliyev:**

**Heydər Əliyevin Azərbaycanın siyasi hakimiyyətinə qayıdışı da zamanın və xalqın tələbi idi. O vaxt Azərbaycanda vətəndaş müharibəsi başlanmışdı, ölkədə xaos, anarxiya, böhran hökm sürürdü. Xalqın tələbi ilə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra bütün xoşagəlməz halların qarşısı alındı.**

# Əzəli qardaşlıq, əbədi dostluq

## Prezident İlham Əliyev Binəli Yıldırımı qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Binəli Yıldırımı qəbul edib.**

Dövlətimizin başçısı Türkiyədə keçirilən seçkilərdə Rəcəb Tayyib Ərdoğanın, həmçinin Cümhur İttifaqının qələbəsi münasibətilə bir daha təbriklərini çatdırdı.

Görüşdə Rəcəb Tayyib Ərdoğanın Türkiyə Prezidenti seçildikdən sonra ilk səfərini Azərbaycana etməsinin və bunun dövlət səfəri statusunda həyata keçirilməsinin önəmi vurğulandı, həmişə olduğu kimi, bu səfərin də çox səmərəli keçdiyi bildirildi. Qeyd edildi ki, səfər zamanı dövlət başçıları tərəfindən Azərbaycan–Türkiyə müttəfiqliyinin müxtəlif sahələr və istiqamətlər üzrə inkişafına dair aidiyyəti nazirliklərə işlərin ardıcıl surətdə aparılması ilə bağlı tapşırıqlar verilib. Vurğulandı ki, Türkiyənin dövlət başçısının bu səfəri ölkələrimiz arasında bütün sahələrdə qardaşlıq və dostluq əlaqələrinin möhkəmlənməsi işinə böyük töhfə verəcək.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın daha da genişlənməsinin əhəmiyyətinə toxunuldu, Binəli Yıldırımın Ağsaqqallar Şurasının sədri kimi təşkilat çərçivəsində fəaliyyəti vurğulandı.

Görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Türkiyə şirkətlərinin fəaliyyəti qeyd edildi.

Təbriklərə görə minnətdarlığını bildirən Binəli Yıldırım Prezident Rəcəb Tayyib Ərdoğanın ölkəmizə dövlət səfərinin uğurlu olduğunu qeyd etdi. Binəli Yıldırım Azərbaycanda olduğu müddətdə nümayəndə heyəti ilə birlikdə Şuşaya gedəcəyini və orada aparılan genişmiqyaslı tikinti-quruculuq işləri ilə yerində tanış olacağını bildirdi. O, Ağsaqqallar Şurasının sədri kimi Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın daha da genişlənməsinə öz töhfəsini verəcəyini vurğuladı.

Söhbət zamanı Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyi məmnunluqla qeyd edildi.

**AZƏRTAC**

# 1993-cü ilin 15 İyun havasına fərqli hərarət gətirən seçim

## *Qurtuluş günümüz parlamentin 26 il əvvəlki qərarı ilə əbədiləşdirilmişdir*

**Həmin tarixi gün soydaşlarımızın yaddaşına elə yazılıb ki, hər birimiz o qərarın sanki dünən, srağagün qəbul edildiyini güman edirik. Bu da səbəbsiz deyil. Çünki müstəqilliyin əbədiləşdirilməsi, dövlətimizin beynəlxalq aləmə inteqrasiyası, torpaqlarımızın düşmən tapdağından təmizlənməsi, işğaldan azad edilmiş ərazilərimizin bərpası elə sürətlə gedib ki, hətta bəzən vaxtın necə ötdüyünün də fərqinə vara bilməmişik.**

Hamının gözünün qabağındadır. Ölkəmizdə bir-birini əvəz edən ictimai-siyasi proseslər, icra olunan layihələr, həyata keçirilən yerli və beynəlxalq tədbirlər o qədər çoxdur ki, bəzən yaddaşımızdakı əlamətdar günləri xatırlayıb qabartmağa da macal tapmırıq. Ancaq parlamentin 1993-cü il iyunun 15-də qəbul etdiyi qərarı – ümummilli lider Heydər Əliyevin Ali Sovetin Sədri seçilməsini hər gün, hər saat, hər an xatırladığımızı da etiraf etməliyik. Elə Milli Məclisin həmin günün əbədiləşdirilməsi məqsədiylə 1997-ci il iyunun 27-də qəbul etdiyi qərar da bilavasitə böyük qurtuluşun adına layiq tarixi fakt idi.

*(ardı 11-ci səhifədə)*

# Prezident İlham Əliyev 15 İyun Milli Qurtuluş Günü münasibətilə paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 15 İyun – Milli Qurtuluş Günü münasibətilə tviter hesabında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir.






Səhifə ⇨ 3

# Azərbaycan–Türkiyə: qardaşlıq fəlsəfəsində müştərək güc və yeni hədəflər

## Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycana rəsmi səfərə gəlib



Səhifə ⇨ 14

## Kasprşikin nostalji hissləri...



Səhifə ⇨ 7

## Türkiyə – Azərbaycan dostluq və qardaşlığı sərhəd tanımaz

Səhifə ⇨ 7

## Məktəbdə “son zəng” – “böyük yol”da başlanğıc



Səhifə ⇨ 15

## Ermənistan atəşkəsi pozur



Səhifə ⇨ 14

## Laçına daha 22 ailə qayıtdı



Səhifə ⇨ 14

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu.

Ölkənizin Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimizi çatdırırıq. Sizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Respublikasının hökumətinə və xalqına davamlı inkişaf və rifah arzu edirik.

Zati-alinizə hörmət və ehtiramla,

**Qardaşınız,**

**Salman bin Əbdüləziz Al SƏUD,**
**İki Müqəddəs Ocağın Xadimi,**
**Səudiyyə Ərəbistanının Kralı**

***

**Zati-aliləri.**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Gününün 105-ci ildönümü münasibətilə Laos xalqı adından və şəxsən öz adımdan Zati-alinizə və Sizin simanızda dost Azərbaycan xalqına ən səmimi təbriklərimi, xoş arzularımı çatdırıram.

Əminəm ki, Laos Xalq Demokratik Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq münasibətləri və əməkdaşlıq gələcək illərdə xalqlarımızın rifahı naminə daha da möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət, ali dövləti fəaliyyətinizdə uğurlar, Azərbaycan xalqına isə davamlı sülh və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Thonqlun SİSULİT,**
**Laos Xalq Demokratik Respublikasının Prezidenti**

***

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu.

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm. Zati-alinizə möhkəm cansağlığı və səadət, qardaş Azərbaycan Respublikasının hökumətinə və xalqına daha böyük inkişaf və firavanlıq diləyirəm.

**Zati-alinizə hörmət və ehtiramla,**

**Məhəmməd bin Salman bin Əbdüləziz Al SƏUD,**
**Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi,**
**Baş nazir**

## "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 890-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli, "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 890-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 394.0.8-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 394.0.8-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 890-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101, № 12, maddələr 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111, № 4, maddələr 313, 323, № 5, maddə 473, № 8, maddələr 837, 861, 897, № 12, maddə 1462; 2023, № 1, maddələr 52, 66, 97, № 2, maddələr 220, 226, 231, № 3, maddələr 350, 360, 375; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 aprel tarixli 2120 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.1-ci bəndə "395.1" rəqəmlərindən əvvəl "394.0.8," rəqəmləri əlavə edilsin;

3.2. 4.54-1-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 4.54-2-ci bənd əlavə edilsin:

"4.54-2. həmin Məcəllənin 394.0.8-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi nəzərdə tutulur;";

3.3. 5.40-cı bənddə hər iki halda "Tikinti" sözü "Şəhərsalma" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, № 7, maddə 728, № 10, maddə 1146, № 11, maddələr 1251, 1267, 1269; 2023, № 1, maddələr 66, 97, № 3, maddələr 346, 375; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 aprel tarixli 2087 nömrəli, 11 aprel tarixli 2098 nömrəli və 25 aprel tarixli 2120 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 31-1-ci hissədə "394-1-ci maddəsində" sözləri "394.0.8-ci və 394-1-ci maddələrində" sözləri ilə əvəz edilsin;

4.2. aşağıdakı məzmunda 31-12-ci hissə əlavə edilsin:

"31-12. Məcəllənin 395.1-2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

31-12.1. Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamına verilmiş torpaq sahəsində bu qurumun sərəncamında olduğu müddətdə törədilməsi hallarına münasibətdə Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi adından – bu Siyahının 31-3-cü hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

31-12.2. digər hallarda yerli icra hakimiyyəti orqanı adından – bu Siyahının 12-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2023-cü il**

## "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 905-VIQD nömrəli Qanununun tətbiqi və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 183 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 905-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki, "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun 6.2.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 905-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 183 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 17; 2006, № 7, maddə 593; 2014, № 3, maddə 248; 2015, № 7, maddə 828; 2015, № 9, maddə 1010; 2017, № 6, maddə 1093) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddən "6.2.3-cü, 6.4-cü (birinci halda)," sözləri çıxarılsın;

3.2. 2.2-ci bənddə "6.2.1-ci, 6.2.10-cu, 6.3-cü, 6.4.cü (ikinci halda), 13.3-cü, 14.1-ci" sözləri "6.2.6-cı, 13.3-cü" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2023-cü il**

## İ.Ə.Nəzərlinin Azərbaycan Respublikasının Fələstin Dövlətində Təmsilçilik Ofisinin rəhbəri təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İlham Ənvər oğlu Nəzərli Azərbaycan Respublikasının Fələstin Dövlətində Təmsilçilik Ofisinin rəhbəri təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 14 iyun 2023-cü il**

## Z.İ.Əliyevin Quba Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Ziyəddin İsmayıl oğlu Əliyev Quba Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 14 iyun 2023-cü il**

## "Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 886-VIQD nömrəli Qanununun tətbiqi və "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 696 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 886-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamənin 10-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 10-cu maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 886-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 696 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 263; 2006, № 8, maddə 666; 2007, № 11, maddə 1110; 2014, № 3, maddə 241; 2016, № 2, maddə 251; 2019, № 5, maddə 843; 2022, № 12, maddə 1444) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci – beşinci abzaslar müvafiq olaraq 2.3 – 2.6-cı bəndlər hesab olunsun və həmin hissəyə aşağıdakı məzmunda 2.1-ci və 2.2-ci bəndlər əlavə edilsin:

"2.1. "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamənin 10-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Əsasnamənin 10-cu maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;";

3.2. 2.3-cü bənddə "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" sözləri "həmin" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2023-cü il**

## "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 888-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 mart tarixli 597 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 888-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

**1.** Müəyyən edilsin ki:

1.1. "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsində, 10-2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 10-1-ci maddəsində, 10-2-ci maddəsinin birinci (ikinci halda) və ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 10-2-ci maddəsinin birinci cümləsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi nəzərdə tutulurlar;

1.4. həmin Qanunun 10-2-ci maddəsinə uyğun olaraq qeyri-yaşayış binalarının istismarına icazə verilməsi ilə bağlı həmin binaların yükdaşıyan konstruksiyalarının dayanıqlılıq, möhkəmlik baxımından istismara yararlılığı, yanğın təhlükəsizliyi tələblərinə cavab verməsi, qaldırıcı qurğuların və digər təhlükə potensiallı qurğu və konstruksiyaların istismara hazırlığı baxımından müayinə olunmasına görə Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 91-ci maddəsində təsbit edilmiş tikinti layihələrinin ekspertizadan keçirilməsi ilə bağlı xərclər həcmində xidmət haqqı ödənilir.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 888-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** "Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 mart tarixli 597 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 437, № 10, maddə 1581; 2021, № 12, maddə 1405; 2022, № 4, maddə 306, № 8, maddə 883) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 8.1-ci bəndə "tikinti obyektlərinə" sözlərindən sonra "("Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikası Qanununun 10-2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla)" sözləri əlavə edilsin;

3.2. həmin Fərmanla təsdiq edilmiş "Ərazi Tikinti-Planlaşdırma Mərkəzinin göstərdiyi ödənişli xidmətlərin Siyahısı"na aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

"Qeyd: "Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikası Qanununun 10-2-ci maddəsinə uyğun olaraq tikinti obyektlərinin (çoxmənzilli binalar istisna olmaqla) istismarına icazə verilməsi ilə bağlı sənədlərin kameral şəraitdə təhlili və bununla əlaqədar məlumatların uçotunun təşkili üçün bu Siyahının 5-ci hissəsi ilə müəyyən edilən xidmətlərə görə haqqın məbləği həcmində xidmət haqqı tətbiq edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2023-cü il**

## “Hüquqi yardım haqqında ərizələrin təqdim olunması barədə” Avropa Sazişi üzrə əlaqələndirici orqanın, “Zorakı cinayətlərin qurbanlarına vurulmuş ziyanın ödənilməsi haqqında” Avropa Konvensiyası üzrə səlahiyyətli orqanın və “Fərdi şəxslərin odlu silah əldə etməsi və saxlaması üzərində nəzarət haqqında” Avropa Konvensiyası üzrə mərkəzi orqanın müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 4 iyul tarixli 754 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Hüquqi yardım haqqında ərizələrin təqdim olunması barədə” Avropa Sazişi üzrə əlaqələndirici orqanın, “Zorakı cinayətlərin qurbanlarına vurulmuş ziyanın ödənilməsi haqqında” Avropa Konvensiyası üzrə səlahiyyətli orqanın və “Fərdi şəxslərin odlu silah əldə etməsi və saxlaması üzərində nəzarət haqqında” Avropa Konvensiyası üzrə mərkəzi orqanın müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 4 iyul tarixli 754 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 488) 3-cü hissəsində “Ədliyyə Nazirliyi” sözləri “Baş Prokurorluğu” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan dəyişiklik barədə Avropa Şurasının Baş katibinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2023-cü il**

# Azərbaycan–Türkiyə: qardaşlıq fəlsəfəsində müştərək güc və yeni hədəflər

## *Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri ilə bağlı qeydlər*

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Prezident seçkilərindəki qalibiyyətindən sonra ilk dövlət səfərini Azərbaycana reallaşdırması dostluq və qardaşlıq əlaqələrimizin yüksək inkişafının göstəricisi olmaqla yanaşı, həm də Ankaranın strateji hədəflərindəki Azərbaycan amilinin bütün dünyaya yüksək səslə bəyan edilməsidir. Digər tərəfdən, cənab Ərdoğanın və Azərbaycan Prezidenti İlham Əliyevin səsləndirdikləri fikirlər yaşadığımız coğrafiyanın gələcək düzəni ilə bağlı yetkin təsəvvür formalaşdırmaq baxımından son dərəcə vacibdir.**



Əlbəttə, Türkiyə və Azərbaycan dünya miqyaslı enerji layihələrində müştərək hərəkət xətti və milli maraqların uzlaşdırılmasına yönələn qarşılıqlı fəaliyyət həyata keçirməkdədirlər. Dövlətlərimiz bu nöqteyi-nəzərdən dünyaya nümunədir. Nümunəvilik qardaşlığımızın və dostluğumuzun qarşısında yeni üfüqlər və imkanlar açır. Bu birgə hərəkət trayektoriyasını müəyyənləşdirən isə ortaq gücümüzdür.

Gücümüz niyyətlərimizin gerçəkləşdirilməsi əzminə söykənmiş son dərəcə böyük, qarşısında duruş gətirilməsi mümkün olmayan, eyni zamanda, hazırkı beynəlxalq münasibətlər düzənini şərtləndirən reallıqdır. Bu reallığı birlikdə, necə deyərlər, alın tərimiz və zəhmətimizlə, gərgin əməyimizlə, usanmaz enerjimizlə yaratmışıq. Azərbaycan və Türkiyə Prezidentlərinin istər təkbətək, istər geniş tərkibdə keçirdikləri görüşlər, istərsə də mətbuata birgə bəyanatlarında açıqladıqları məqamlar da bunu söyləməyə əsas verir. Qətiyyətlə deyə bilərik ki, Ərdoğanın Bakı səfəri gücümüzün təntənə anları kimi tarixə düşdü. Bu möhtəşəmliyə şahidliyimizdən sevinir, qürur və fəxarət hissi keçiririk.

Azərbaycan Prezidenti cənab Ərdoğana 44 günlük müharibə zamanı Türkiyənin göstərdiyi mənəvi və siyasi dəstəyə görə bir daha təşəkkürünü bildirdi. Əslində dövlətimizin başçısı türkiyəli həmkarı ilə hər görüşündə özünün təşəkkür ritorikasına sadiqliyi ilə seçilməkdədir. Bu, sıradan məsələ deyil. Onsuz da ölkələrimiz arasındakı mövcud bağ bir-birinə qarşılıqsız dəstəyi rəhbər tutacaq mənəvi olimp statusundadır. Nəzərə alaq ki, qarşılıqsız dəstək təkcə yaşadığımız dövrün xarakterik mənzərəsini vurğulayan amil deyil. Tarixən də Azərbaycan və Anadolu türkləri özlərini bir-birlərinə bir köynək yaxın hiss ediblər. Hər zaman yardımlaşıblar, pis və yaxşı günlərdə həmdəm olublar.

Hazırda Prezident İlham Əliyevin müharibə mövzulu təşəkkür məntiqi isə əslində daha çox gücün təntənəsinin vurğulanmasıdır. Bu vurğulanma dünyaya mesajdır. Ümumən, Ərdoğanın Bakı səfəri həmin mesajın ən müxtəlif istiqamətlərdə bir daha çatdırılması, Türkiyə və Azərbaycanın milli maraq və mənafelərinin dönməzliyinin ayrı-ayrı təzahürlərinin əminliklə bəyan edilməsi baxımından müstəsna hadisədir.

***

Bəli, Türkiyə və Azərbaycan qardaşlığı müştərək gücün, qətiyyətin və iradənin qarşısında dirəniş və duruş gətirilməsinin mümkünsüzlüyünün geniş və məzmunlu ifadəsini tapdığı, dünyanın axarına təsir göstərə bilən müasir regional faktordur. Gücün, haqqın və ədalətin təntənəsinin bariz nümunəsi olan İkinci Qarabağ müharibəsindən sonra gözlərimiz önündə dayanan ilk hadisə isə Şuşa Bəyannaməsinin imzalanmasıdır. Buna görə də Prezident İlham Əliyev həmin sənədin ərsəyə gəlməsindən iki il ötdüyünü xüsusu vurğuladı. Onun xatırlatması birliyimizi, böyüklüyümüzü və həmrəyliyimizi gözü götürməyənlərə, regionda çeşidli fitnə-fəsadlar törədib Azərbaycanın gücü hesabına formalaşmış yeni siyasi düzənə, reallıqlara qarşı təhdid yaratmaq niyyətinə düşənlərə tutarlı cavabdır.

Türkiyə Vətən müharibəsi ta başlayandan bitənədək Azərbaycanın yanında oldu. Lakin müharibədən sonrakı siyasi dramatizmə, xüsusən də ölkəmizin Ermənistanla münasibətlərinin, eləcə də sülh danışıqları müstəvisindəki olayların ayrı-ayrı məqamlarına diqqət yetirəndə görürük ki, Ankara yaşanmış proseslərdə bilavasitə iştirakçı kimi təmsil olunmadı. O, hazırda Bakı–İrəvan tənzimlənməsinin Qərb, Rusiya formatlarının müxtəlif məzmun çalarlarından uzaq təsir bağışlamaqdadır. Amma ilk baxışdan nəzərə çarpan budur.

Birincisi, artıq dünyada hər kəs, o cümlədən, Ermənistan və havadarları, Cənubi Qafqaza maraq göstərən böyük güclər yaxşı anlayırlar ki, Azərbaycan elə Türkiyə deməkdir, Türkiyə isə Azərbaycan. Deməli, Ankaranın qeyd etdiyimiz müstəvidəki bilavasitə iştirakçılığına bir o qədər ehtiyac yoxdur. Həm də ona görə ki, Türkiyənin qardaşlığı ölkəmizin maraq və mənafelərinin fundamentallıq təbiətinin təminat paktıdır. Yəqin elə buna görədir ki, Ankara Azərbaycan–Ermənistan münasibətlərinin hazırkı tənzimləmə vektorunda birbaşa görünməsə də, ölkəmizə qarşı çıxan qüvvələrin ictimai rəyi Bakı ilə gərginliklər fonunda istər-istəməz Türkiyəni yada salır, şüuraltı şəkildə ölkənin bu və ya digər məqama reaksiyasını hesablayırlar. Daha doğrusu, hesablamaq, hesablaşmaq məcburiyyətindədirlər. Qətiyyətlə söyləyə bilərik ki, 44 günlük müharibə dönəmində olduğu kimi, ondan sonra da pozucu, destruktiv qüvvələrin Azərbaycana münasibətdə böyük ölçüdə “qırmızı xətləri” keçməyə cəsarət göstərməməsinin səbəbi məhz Türkiyədir.

***

Prezident İlham Əliyev cənab Ərdoğanla mətbuata birgə bəyanatında Şuşa Bəyannaməsinə toxunaraq bildirdi ki, bu sənədlə Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular. Bütün dünya onu da yaxşı bilir ki, hər iki ölkə uzun illərdir müttəfiqlər kimi fəaliyyət göstərirlər. “...ancaq Şuşa Bəyannaməsi bunu rəsmi sənədə çevirdi. Bu sənədin Şuşada imzalanması təbii ki, rəmzi xarakter daşıyır. Çünki Şuşa Qarabağın tacıdır və Şuşanın işğaldan azad olunması İkinci Qarabağ müharibəsinə son nöqtəni qoymuşdur”.

Bəli, Şuşa Qarabağın tacı olmaqla yanaşı, eyni zamanda Azərbaycanın haqq davasının rəmzidir. Dünyanın böyük gücü kimi Türkiyənin hazırda diplomatik müstəvidə gedən bu davadakı ağırlıq payının mənəvi nöqtəsi də bu müqəddəs şəhərimizdir. Belə nəticəyə gəlirik ki, Ankaranın Azərbaycan–Ermənistan münasibətləri kontekstindəki ayrı-ayrı maraqlı tərəflərin ortaya qoyduqları manevr xəttini izləyərək, həmçinin öz ağırlığını və sanbalını qoruyaraq nümayiş etdirdiyi sükutu, məhz Şuşa müstəvisində pozması və açıq mesaj səsləndirməsi adi məsələ sayılmamalıdır.

Gəlin, cənab Ərdoğanın Prezident İlham Əliyevlə geniş tərkibdəki görüşdə bu mövzuda nələri bildirdiyinə nəzər salaq: “Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksəltdiyimiz əlaqələrimizi bütün sahələrdə inkişaf etdirməkdə qərarlıyıq. Şuşadakı baş konsulluğumuzu istədiyiniz vaxt açmağa hazırıq. Hakan bəy (Türkiyənin Xarici İşlər naziri Hakan Fidan nəzərdə tutulur - red), bu məsələdə də heç gecikdirmədən, inşallah, Şuşadakı baş konsulluğumuz hər an açıla bilərsə, bu təbii ki, yenə başda Ermənistan olmaqla bütün dünyaya ayrı bir mesaj olacaqdır”.

Ankaranın ali təmsilçisi Ermənistana və havadarlarına xəbərdarlıq edir–Azərbaycana yanaşmada hər hansı yolverilməz davranış onu hərəkətə gətirəcəkdir. Bu mənada, Prezident İlham Əliyevin Türkiyənin və Azərbaycanın bundan sonra da xarici siyasət sahəsində vahid mövqedən çıxış edəcəyini vurğulaması, əslində cənab Ərdoğanın mənəvi anlam daşıyan fikrini bir növ tamamlamaqdadır. Nəzərə alaq ki, İran Ermənistanın Azərbaycana yaxın bölgəsində – Qafanda açdığı konsulluqla, İrəvana hər an hərbi məzmun qazana biləcək siyasi dəstəyini ortaya qoymuşdu. Deməli, Şuşada Türkiyə Konsulluğu hərbi müttəfiqliyimizin təsdiqi olan Şuşa Bəyannaməsinin həm mənəvi, həm də siyasi qalası kimi meydanda olacaqdır.

***

Azərbaycan Prezidentinin bildirdiyi kimi, “Bizim xarici siyasətlə əlaqədar apardığımız birgə fəaliyyət bölgə üçün də çox böyük önəm daşıyır. O cümlədən, bölgənin inkişafı, sabitliyi və təhlükəsizliyi nöqteyi-nəzərindən Türkiyə–Azərbaycan birliyi amili çox önəmlidir”. Elə isə Ərdoğanın bu fikirlərinə də diqqət yetirək. “Bir millət, iki dövlət” düşüncəsi ilə bu günə qədər addımladıq. İndiyə qədər addımladığımız bu yolda bundan sonra da qərarlı şəkildə yolumuza davam edəcəyik. Şuşa Bəyannaməsinin müddəalarını da, inşallah, bundan sonra da uğurla həyata keçirməyi davam etdirməkdə qərarlıyıq və bu məsələdə güzəştə getməyəcəyik”.

Bəli, qərarlılıq və güzəştsizlik. 44 günlük müharibə zamanı Türkiyə Prezidenti bu vacib xüsusiyyətləri sərt formada ifadə etmişdi. Onun savaşa digər güclərin qoşula bilməsi ehtimalını önləmək üçün “atamızın oğlu olsa belə, yol verməzik” şəklində səsləndirdiyi bəyanatını xatırlayaraq və yuxarıda diqqətə çatdırdığımız iqtibasını nəzərə alaraq deyə bilərik ki, Ankara güzəştsizlik xəttini davam etdirir. Bu isə o deməkdir ki, onun müharibədən sonrakı zaman kəsiyində Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsi fonunda yaşadığımız Cənubi Qafqaz regionunda baş verən proseslərə münasibətdə zahirən susqunluq təsiri bağışlayan yanaşmasına hakim kəsilən yalnız səbr və təmkindir. Bir daha vurğulayaq ki, bu keyfiyyətlər müasir Türkiyənin böyüklüyünü və əzəmətini təsdiqləməkdədir.

Onu da nəzərə alaq ki, ötən müddətdə kiçik qardaş kimi Azərbaycan da regional siyasət meydanında həm də Ankaranın maraq və mənafelərinin ifadəçisi kimi olub, bu siyasətə qloballıq qazandırmağı bacarıb. Diqqət yetirək, dövlətimizin başçısı mətbuata bəyanatında regional inkişaf və təhlükəsizlik baxımından Türkiyə amilinin rolunu qabardır. Deməli, Azərbaycanın regional hədəfləri, eyni zamanda Türkiyənin hədəfləridir və ya əksinə.

***

Bir daha güc amilinə qayıdaq. Hədəfləri reallaşdırmaq gücdən asılıdır. Cənab İlham Əliyev gücün həllediciliyi üzərində dayanır. Buna görə prezidentlər Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Qərargahının açılışını edirlər. Bu yerdə dövlətimizin başçısının vurğuladığı bir məqamın üzərində dayanmaq şərtdir: “Bugünkü dünyada güc amili ön plana çıxır. Əfsuslar olsun ki, beynəlxalq hüquq çalışmır. Biz bunu 30 illik işğal dönəmində görmüşdük və aparılan müzakirələr, danışıqlar heç bir nəticəyə gətirib çıxarmadı, nəticəyə gətirib çıxaran bizim gücümüz oldu. Ona görə bundan sonra da birgə fəaliyyət istiqamətində aparılacaq işlər bizim gücümüzü həm bölgədə, həm dünyada daha da artıracaq”.

Azərbaycan və Türkiyə regionda gücün hədəfinin inkişaf və tərəqqi olduğunu bəyan edir və onlar bu birgə siyasət dəst-xəttinə sadiqliklərini göstərirlər. Bir halda ki, beynəlxalq hüquq işləmir, haqqın və ədalətin bərpası aləti rolunda çıxış edən də məhz gücdür. Deməli, Prezident İlham Əliyev yuxarıda diqqətə çatdırdığımız fikri ilə həm də onu vurğulayır ki, 30 illik işğala son qoyan əzm və iradə bundan sonra da müştərək Türkiyə və Azərbaycan gücü kimi özünün diktə mahiyyəti ilə davamlı olacaq, habelə getdikcə daha çox rasionallıq qazanacaqdır.

Diktəmiz bütövlükdə region xalqlarının maraq və mənafelərinin təminatı naminədir. Prezidentlərin gələcək rifah üçün Zəngəzur dəhlizinə önəm verməleri isə müstəsna əhəmiyyət daşımaqdadır. Cənab İlham Əliyevin bildirdiyi kimi: “Biz, eyni zamanda, Zəngəzur dəhlizinin tezliklə açılması haqqında fikir mübadiləsi apardıq, bu məsələni müzakirə etdik. Zəngəzur dəhlizinin açılması qaçılmazdır, nə qədər tez olsa, o qədər yaxşıdır. Hər halda biz bu istiqamətdə səylərimizi artıracağıq. Bu dəhlizin açılması bütün ölkələr üçün yeni imkanlar açacaq və bölgədə işbirliyi məsələlərinə də müsbət təsir göstərəcək”.

Bəli, Zəngəzur dəhlizi qlobal nəqliyyat habı kimi mütləq açılacaq. Nəinki Azərbaycan və Türkiyə vətəndaşlarının, bütövlükdə region xalqlarının daha da inkişafına və tərəqqisinə yönələn nəhənglik qazanacaqdır. Bu nəhəngliyin qarantı iki qardaş ölkədir. Azərbaycan üçün bu dəhliz 30 il ərzində uğradığı haqsızlığın təzminatıdırsa, Türkiyəyə gəldikdə, o, özünün qlobal miqyasda oynadığı rolun mükafatını almalıdır. Əlbəttə, başlıca məsələ ortaq Turan xətti və Zəngəzur dəhlizi ilə ümumən Türk dünyasının bir-birinə qovuşması məfkurəsinin reallığa çevrilməsidir.

Əsas məqam xəyalların gerçəkləşməsidir. O xəyallar ki, Türk dünyasının böyük mütəfəkkirlərinin, ideya adamlarının baxışlarından süzülüb bu günümüzədək gəlib çıxmaqda, mənəvi-siyasi məzmun qazanaraq müasirləşməkdədir. Əminik ki, hazırda ulu öndərlər – Mustafa Kamal Atatürkün və Heydər Əliyevin ruhları şaddır. Böyük fikir dühaları, Turan sevdalıları – Əli bəy Hüseynzadənin, Ziya Göyalpın, Yusif Akçuranın, Ömər Faiq Nemanzadənin, Yusif Nihal Atsızın və başqalarının ruhları da həmçinin.

***

Nəzərə alaq ki, Türk dünyasının çiçəklənməsi böyük coğrafiyada yaşayan insanların dinc və əmin-amanlıq mühitində ömür sürmələri ümumən bəşəriyyətə ədalət töhfəsidir. Bu gün Azərbaycan və Türkiyə qlobal beynəlxalq arenada nümayiş etdirdikləri böyük əzmlə bu töhfəni özlərinin yaşam və varlıq düsturuna çevirməkdə, ümumbəşəri zənginlik epopeyasına imza atmaqdadırlar. Ona görə də cənab Ərdoğan Bakıdakı çıxışında yaşamın, varlığın və dinamik inkişafın yeni yolu sayılan Zəngəzur dəhlizindən söz açaraq vurğulayır: “Üzərində ən çox çalışdığımız və həssaslıq göstərdiyimiz Zəngəzur dəhlizi məsələsini, inşallah, sürətlə həll etməyimiz bizə iki mühüm imkanı qazandıracaq. İstər avtomobil yolu, istərsə dəmir yolu ilə bağlı atılacaq addımlar sayəsində buradan İğdıra, Naxçıvana yolun açılması ilə Türkiyənin Naxçıvanla əlaqəsi daha güclü olacaq. Bu əlaqələrin yaradılması Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin daha da güclənməsinə imkan verəcək”.

Türkiyə Prezidenti özünün dolğun mesajlı, kifayət qədər konkret məzmun daşıyan Bakı manifestində yolun mədəniyyət hadisəsi olduğuna dair fikirləri ilə, öz yolunu özü açmanın Azərbaycan nümunəsinə müstəsna dəyər verdi. Hesab edirik ki, qardaş ölkə liderinin təəssüb və rəğbət dolu bu dəyəri ortaq tariximizdə özünə mütləq vətəndaşlıq hüququ qazanacaq müstəsna qədirbilənlik nümunəsidir. İyirmi il əvvəlki Bakını və bugünkü Qarabağı düşündüyünü deyən cənab Ərdoğanın irəli sürdüyü baxışlar ölkəmizin keçdiyi yolun məşəqqətlərini və məhrumiyyətlərini anladır, o yolu hamarlaşdırmaq üçün göstərdiyimiz dirənişi və müqaviməti gözlərimiz önündə canlandırır: “Bax, öz göbəyinizi özünüz kəssəniz, addım atarsınız. Sağ olsun, İlham qardaşım bunu bacardı. Millət olaraq bunu bacardınız və indi də bu səviyyəyə gəldiniz”.

Türkiyə liderinin Azərbaycanın öz hədəflərinə qətiyyətlə, uğura dərin inam hissi bəsləməklə çatdığını Zəngəzur dəhlizi müstəvisində vurğulaması, ölkəmizin belə bir böyük nəqliyyat dəhlizinə haqqının çatdığının dünyaya uca səslə bəyan edilməsi idi. Qardaş Türkiyə hər zamankı kimi haqqın tərəfindədir. Onu da xüsusi vurğulayaq ki, Ərdoğanlı müasir Türkiyə, eyni zamanda, Azərbaycan və azərbaycanlıların timsalında, türk-müsəlman toplumunun haqqının müdafiəsi kimi müqəddəs missiyası ilə bütövlükdə tarixi türk dövlətçiliyi mirasının – Osmanlı ruhunun və rəşadətinin şərəfli daşıyıcısı qismində çıxış etməkdədir.

***

Nə mutlu türküm deyənə. Türkiyə dövlətinin əsas prinsiplərindən biri, təhsil sahəsində istiqamətverici ideoloji ifadə sayılan bu deyimi xatırlatmağımız heç də təsadüf sayılmamalıdır. Çünki Rəcəb Tayyib Ərdoğan Bakı səfəri zamanı bildirdi: “Əziz qardaşım İlham Əliyevə və azərbaycanlı qardaşlarımıza göstərdikləri bu qonaqpərvərliyə görə də şəxsən öz adımdan və heyətim adından çox təşəkkür edirəm. Hazırda atdığımız və atacağımız addımlardan biri də Türkiyə–Azərbaycan Universiteti məsələsidir. Bu məsələ ilə əlaqədar Ali Təhsil İdarəsinin sədri öz həmkarı ilə bu məsələni bu gün nəzərdən keçiriblər. Qanuni prosedurun vacibliyini isə İlham qardaşım ifadə etdi. Bu məsələni də tez bir zamanda həyata keçirərək, İnşallah, Türkiyə ilə Azərbaycan arasında belə bir universitetin qurulmasına nail olacağıq”.

Dahi Nizami deyirdi ki, qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz. Deməli, Türkiyə–Azərbaycan Universiteti ideyasının reallaşması ilə Azərbaycan və Türkiyənin ortaq gücü, qüvvəsi və qüdrəti özünün elmi fundamentallıq məqamına da yetişəcəkdir. Buna görə də əminliklə deyə bilərik ki, ölkələrimiz böyüyərək, həm gələcəklə bağlı paradiqmaları dəyişdirəcək, həm də yeni şanlı yollar müəyyənləşdirəcəkdir. Türkiyə–Azərbaycan qardaşlığı “Bir millət, iki dövlət” anlayışı ilə gələcəyə doğru şərəflə addımlayacaqdır.

***Əvəz CAHANGİROĞLU,***
***“Xalq qəzeti”***

# 15 İyun: Milli Qurtuluşa aparan yol və liderin xilaskarlıq məramı



**XX əsrdə Azərbaycanın taleyində həlledici rol oynamış və inkişaf yolunu müəyyənləşdirmiş, millətimiz və dövlətimiz var olduqca müraciət ediləcək, öyrəniləcək, ibrət alınacaq bir neçə tarixi gün mövcuddur.**

Birincisi, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasıdır. Bu hadisə ilə millətimiz uzun illərdən sonra ilk dəfə olaraq dövlət müstəqilliyini respublika formasında bərpa etdi, müsəlman Şərqi xalqlarına cümhuriyyət ideyasını, idarə üsulunu gətirdi, onlara müstəmləkəçilikdən xilas olmağın yolunu göstərdi.

İkincisi, 1918-ci il sentyabrın 15-də Bakı şəhərinin yadelli qüvvələrdən azad edilməsi, Azərbaycan xalqının və dövlətinin öz paytaxtına qovuşmasıdır. Cümhuriyyətin qurulması qədər əhəmiyyətli olan bu hadisə bütün sonrakı hadisə və proseslərə təsir etdi. O zaman Bakı şəhəri yadellilərdən azad edilməsəydi şəhərin taleyi qaranlıq qalacaqdı. Hətta 1920-ci ilin aprelində bolşevik işğalından sonra Bakının Azərbaycandan qopardılmasına dair müəyyən layihələr, hətta 50-ci illərdə də bəzi niyyətlər var idi.

Üçüncüsü, 1920-ci il yanvarın 11-də Parisdə Azərbaycanın dövlət müstəqilliyinin de-fakto tanınması xalqın iradəsinin, seçdiyi yolun qəbul edilməsi oldu.

Dördüncüsü, hələ SSRİ-nin, kommunist ideologiyasının və sovet sisteminin mövcud olmasına baxmayaraq, 1990-cı il noyabrın 17-də Naxçıvan şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin birinci sessiyasının iclasında muxtar respublikanın adından "Sovet Sosialist" ifadələrinin çıxarılması,Azərbaycan Xalq Cümhuriyyətin üçrəngli bayrağının dövlət rəmzi kimi qəbul edilməsidir.

Beşincisi, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında konstitusiya aktının qəbul edilməsidir.

Altıncısı, bərpa edilmiş, lakin itirilmək təhlükəsi qarşısında qalan Azərbaycanın dövlət müstəqilliyinin xilas edildiyi, güclü dövlətin qurulmasının, bütün vətəndaşların tək millət, tək dövlət, tək bayraq, tək torpaq altında birləşməsinin, işğal altında qalan torpaqların azad edilməsi üçün təməllərin qoyulduğu 1993-cü ilin 15 iyunudur.

Bu gün 1993-cü ilin 15 iyun tarixindən 30 il keçir. Məlum olduğu kimi, maraqların toqquşduğu siyasətin göstəricisi olan tarixi hadisə və proseslər bir cür baş versə də onlara verilən qiymət, adətən, fərqli olur. Qiymətləndirməyə müxtəlif siyasi təşkilatların, qrupların, şəxslərin maraqları və iddiaları təsir edir. Belə fərqli yanaşmalar təbiidir. Çünki həyat yaranandan bəri daim əksliklərin vəhdəti və mübarizəsi gedib və indi də davam edir. Əksliklərin aradan qaldırmaq mümkün deyildir.

Cəmiyyətin inkişafının təməlində elə fikir müxtəlifliyi, əksliklərin vəhdəti və mübarizəsi dayanır. Lakin dünya tarix elmində qəbul edilmiş ümumi metodoloji prinsiplərə görə, hər hansı bir tarixi hadisə və prosesə verilən qiymətdə başlıca meyar onların özündən sonrakı inkişafa necə təsir etməsi, dövlət və millət üçün nəticələrin müsbət və mənfi olması, hökumətin fəaliyyətinə düzgün qiymət verilməsi isə qarşıya qoyduğu məqsəd və vəzifələri necə yerinə yetirməsi, faydaları və ziyanları ilə ölçülür.

1997-ci ilin iyun ayından etibarən Vətən təqvimində Milli Qurtuluş Günü elan edilən 15 iyunun mahiyyətini, onun nəticələrini dərk etmək və müvafiq nəticələr çıxararaq ibrət dərsləri almaq müstəqil dövlətimizin və millətimizin keçdiyi yolu, mövcud vəziyyətini, gələcək inkişaf perspektivlərini müəyyənləşdirmək baxımından vacibdir. Ona görə də, ilk növbədə, 15 iyunadək Azərbaycanın sosial-iqtisadi, siyasi, hərbi, mənəvi-psixoloji şəraitə və xarici siyasət fəaliyyətinə nəzər yetirmək zəruridir.

## Ümumi böhran məngənəsində

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan xalqının qarşısında bir sıra vacib vəzifələrin yerinə yetirilməsi dayanırdı: müstəqilliyi qorumaq və möhkəmləndirmək; planlı sosialist təsərrüfatından azad bazar iqtisadiyyatına keçmək; təkpartiyalı sistemdən çoxpartiyal, cəmiyyətə, demokratiyaya keçmək; dövlət quruculuğu üçün əlverişli beynəlxalq şərait yaratmaq; Ermənistanın əsassız ərazi iddiaları ilə Azərbaycana qarşı başlatdığı hərbi təcavüzü dayandırmaq, onun nəticələrini aradan qaldırmaq və s.

Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa edən zaman xain qonşunun əsassız ərazi iddiaları səbəbindən bir neçə il əvvəl başladığı daxili işlərə kobud müdaxilə davam edir, tarixi torpaqlarımız olan və Ermənistan adlandırılan bu respublikada dədə-baba yurdlarında yaşayan azərbaycanlılar vəhşicəsinə qovularaq qaçqına çevrilir, yaşayış məntəqələri, tarix və mədəniyyət abidələri, qəbiristanlıqlar dağıdılır, ərazinin etnomədəni mənsubiyyəti itirilirdi. Bunlarla yanaşı Azərbaycanın işğal edilmiş yaşayış məntəqələrinin əhalisi məcburi köçkünə çevrilirdi. Problemləri həll etmək əvəzinə, hakimiyyət uğrunda müxtəlif qruplaşmalar arasında bütün mümkün vasitələrlə mübarizə gedirdi.

1992-ci ilin may ayında silahlı çevriliş yolu ilə hakimiyyəti ələ keçirən Azərbaycan Xalq Cəbhəsi ölkə qarşısında dayanan problemləri həll edə bilmədi, vəziyyət daha da pisləşdi. Dövlət idarəçiliyində səriştəsizlik, problemlərin yanlış qoyulması, onların həllinə səhv, primitiv, məhdud yanaşma, qanunverici, icraedici və məhkəmə hakimiyyəti arasında ixtilaflar, xalq ilə hakimiyyət arasında ziddiyyətlər, dükanlarda satılan keyfiyyətsiz çörək üçün növbələrin çoxalması şəraitində əhalinin artan narazılığı, iqtisadi tənəzzül, vətəndaşlara qarşı kobud davranışlar, ölkənin şimalında və cənubunda xaricdən qızışdırılan separatçılıq hərəkətləri, millətin və ölkəni dağıdan, dövlətin varlığını təhdid edən qondarma qurumların elan edilməsi, Azərbaycan xalqının parçalanma astanasında olması, vəziyyətdən çıxmaqdan ötrü sabaha ümidlərin olmaması, yürütdüyü siyasət nəticəsində hakimiyyətin xalqdan aralı düşməsi və ona bəslənən ümidləri doğrulda bilməməsi acınacaqlı şərait yaratmışdı.

Belə bir vəziyyətdə ölkəni xarici hərbi təhlükədən qorumaq mümkün deyildi. Cəbhədəki uğursuzluqlar bir-birini əvəz edirdi. Hərbi və mülki hakimiyyət arasında ixtilaflar hökm sürürdü. Hakimiyyətə tabe olmayan bir qrup hərbçi əyalətdə "Hərbi birlik" yaratmışdı. 1993-cü il iyunun 4-də Gəncədə Surət Hüseynovun rəhbərliyi altında 709 saylı hərbi hissədə qiyam baş verdi. Qiyamı yatırmaq üçün 130 saylı hərbi hissədən həmin hərbi hissəyə hücum edildi. Şəhərə gedən dövlət və hökumət nümayəndələri girov götürüldülər. Qiyamçı dəstələr Bakıya doğru hərəkət etdilər. Azərbaycan öz tarixində o zamanadək görünməmiş bir faciənin – qardaşın bir-birinin qanını tökməsi, vətəndaş müharibəsi astanasında dayanmışdı. Millət heç bir zaman bu qədər qütbləşməmiş və bir-birinə qənim kəsilməmişdi.

Ölkə daxilində dövlət quruculuğu üçün əlverişli beynəlxalq şərait təmin etməli olan xarici siyasət fəaliyyəti də bərbad halda idi. Hissiyatlara əsaslanan xarici siyasətin yürüdülməsi nəticəsində beynəlxalq aləmdə Azərbaycanın səsi eşidilmirdi. Təşkilati, dövlət idarəçilik bacarığına və qabiliyyətinə malik olmayan, xalqın dəstəyini itirmiş hakimiyyət ölkəni təcridçiliyə gətirmişdi. Diplomatiya bədxahları bitərəfləri dosta çevirmək əvəzinə, ölkəyə daha çox düşmən qazandırırdı. Qonşularla münasibətlər gərgin idi. Ölkənin maraqları etibarlı qoruna bilmirdi.

Müstəqilliyin bərpasından sonra bəzi addımlar atılsa da, dövlət quruculuğu, sanki, kağız üzərində qalaraq bəyanat xarakteri daşıyırdı. Həm daxildə, həm də beynəlxalq aləmdə hər hansı bir məsələni həll etmək gücündə olmayan hakimiyyət ölkəni ümumi böhrana gətirmişdi. Azərbaycan xalqı tarixinin çətin günlərini yaşayırdı.

Xalqın və dövlətin taleyi üçün məsuliyyəti öz üzərinə götürmüş hakimiyyət nümayəndələri belə ağır şəraitdə bir-birinin ardınca istefa verərək canlarını qurtarmaq yolunu tutdular. Onlardan bəziləri vəzifələrini "dondurdular", bəziləri isə qaçıb gizləndilər. Bu, milli dövlətçilik tarixinin utancverici məqamı idi.

## Niyə məhz Heydər Əliyev?

Azərbaycan xalqı düşmüş olduğu vəziyyətdən çıxmaqdan ötrü nicat yolu arayırdı. Adamlar sual edirdilər: Azərbaycan xalqının və dövlətinin taleyi necə olacaq? Ölkəni ağır şəraitdən kim və necə çıxara bilər? Bu yükü, məsuliyyəti öz üzərinə götürə bilən tarixi şəxsiyyət, lider varmı? Çoxlu çətin suallar qarşısında dayanan Azərbaycan xalqının nəzərləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə yönəldi. Heydər Əliyevə olan inamın bir sıra əsaslı səbəbləri var idi.

Birincisi, Heydər Əliyev sovet sisteminin, kommunist ideologiyasının mövcud olduğu bir şəraitdə, 70-ci illərdə respublikanın rəhbəri kimi güclü təşkilatçılıq və idarəçilik bacarığı ilə xalqının başını uca etmiş, onu qabaqcıllar cərgəsinə çıxarmışdı. Xarici ölkə tarixçilərinin yazdığı kimi, Azərbaycanın şimal torpaqları çar Rusiyası tərəfindən işğal edilib ilhaq olunduqdan sonra daim özlərini sındırılmış hesab edən azərbaycanlılar XX əsrdə Bakı küçələrində yalnız iki dəfə başlarını dik tutaraq, güvənərək gəzməyə başlamışdılar. Azərbaycan və Osmanlı hərbçilərindən ibarət yaradılmış Qafqaz İslam Ordusu tərəfindən Bakı şəhəri 1918-ci il sentyabrın 15-də yadellilərdən azad edildikdən sonra və 70-ci illərdə Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə.

İkincisi, Heydər Əliyev dünyanın quru ərazisinin altıda bir hissəsini tutan SSRİ-nin rəhbərlərindən biri olduqdan – 1982-ci ildə Sov. İKP MK Siyasi Bürosunun üzvü seçildikdən, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildikdən sonra xarici ölkələrin tarixçilərinin yazdığı kimi, "triumvirat" sayılan sovet dövlət və siyasi xadim olaraq xalqının başını daim uca etmişdi.

Üçüncüsü, Heydər Əliyev Moskvadakı sovet və partiya vəzifələrindən çıxdıqdan sonra həyatı təhlükədə olmasına baxmayaraq, 1990-cı il yanvarın 21-də Azərbaycanın daimi nümayəndəliyinə gələrək 20 yanvar qırğınını törədənləri ittiham etmiş, xalqının yanında olmuşdu. Ulu öndər Naxçıvanda yaşayarkən ağsaqqal deputat kimi sədrlik etdiyi iclasda Muxtar Sovet Sosialist Respublikasının adından Sovet Sosialist ifadələri çıxarılmış, Ali Sovet Ali Məclis adlandırılmış, sovet dövlətinin və kommunist ideologiyasının düşmən saydığı və inkar etdiyi Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq qəbul olunmuşdu.

Böyük siyasətçi və nəhəng dövlət xadimi olan Heydər Əliyev hələ SSRİ-nin, Kommunist Partiyasının, sovet sisteminin mövcud olduğu bir şəraitdə bütün təzyiqləri və təhdidləri rədd edərək SSRİ-nin saxlanılmasına dair referendumun Naxçıvan Muxtar Respublikasında keçirilməsinə imkan verməmişdi. Kommunist Partiyası sıralarından istefa verməklə bu ideologiyanın çökməsinə güclü təsir etmişdi. Naxçıvan müstəqil Azərbaycan dövlətinin təməllərinin rəsmi şəkildə atıldığı yer olmuşdu.

Dördüncüsü, Heydər Əliyev 1990-cı ildən etibarən Milli Məclisdə etdiyi çıxışlarında Azərbaycan xalqının gələcəyinin yalnız müstəqillikdə olduğunu qəti şəkildə bildirmişdi. Dövlət müstəqilliyi haqqında konstitusiya aktına imza atmışdı.

Bütün bunları unutmayan xalqın dərin inamına görə, yalnız Heydər Əliyev Azərbaycan dövlətini məhv olmaqdan, ölkəni xaricdən dəstəklənən separatçılıqla parçalanmaqdan, xalqı vətəndaş müharibəsi təhlükəsindən xilas edə, mənəvi-psixoloji böhrandan çıxara, Ermənistanın davam edən hərbi təcavüzünü dayandıra, ölkəni fəlakətə salmış uğursuz xarici siyasət fəaliyyətini yeni əsaslar üzərində qura bilərdi. Təkidli tələblər qarşısında çarəsiz qalaraq geri çəkilən Azərbaycan rəhbərliyi Heydər Əliyevi Bakıya dəvət etməyə məcbur oldu.

## Qurtuluş naminə dönüş

Bakıya gələrək parlamentdə çıxış edən Heydər Əliyev əvvəlcə qiyamın baş verdiyi Gəncəyə getdi. Şəhər əhalisi ilə görüşərək şəraitlə tanış oldu. Bakıya qayıtdıqdan sonra iyunun 15-də Azərbaycan parlamentinin sədri seçildi.

Dünya xalqlarının dövlətçilik tarixinin təcrübəsi göstərir ki, görkəmli dövlət xadimləri nadir hallarda ikinci dəfə hakimiyyətə qayıdıblar. Məsələn, partiya mənsubiyyətini dəyişmiş görkəmli siyasi və dövlət xadimi Uinston Çerçill Böyük Britaniya və Şimali İrlandiya Krallığında, Şarl de Qoll Fransada, Süleyman Dəmirəl Türkiyədə seçkilər yolu ilə yenidən hakimiyyətə gəliblər. Lakin Heydər Əliyevin Bakıya gəlişi onlara bənzəmirdi. Bu qayıdış, sadəcə, parlamentin sədri vəzifəsini tutmaq deyil, Azərbaycan xalqı və dövlətinin xilası, gələcək inkişafını müəyyənləşdirmək üçün əzablarla dolu olan ağır böhran şəraitində xilaskarlıq, qurtuluş naminə dönüş idi.

Heydər Əliyevin qarşısında daxili siyasət sahəsində çoxlu mürəkkəb vəzifələri yerinə yetirmək dayanırdı: dövləti dağılmaqdan, ölkəni xaricdən dəstəklənən separatçılıqdan xilas etmək; milli birliyi bərpa etmək; hakimiyyətin qanadları arasında yekdillik yaratmaq, xalq ilə hakimiyyət arasında uçurumu, inamsızlığı aradan qaldırmaq; iflic olmuş dövlət hakimiyyət orqanlarını işlək hala gətirmək; dövlətin əlində olası silahları ələ keçirmiş, ölkədə cinayətkarlıq şəraiti yaradan ayrı-ayrı dəstələri tərksilah etmək, insanlara sakit və təhlükəsiz yaşayış yaratmaq, ağır sosial-iqtisadi şəraitdə yaşayan xalqı böhrandan çıxararaq inkişafa aparmaq, mənəvi-psixoloji ruhunu yüksəltmək, dövlətin gücünü yaratmaq üçün etibarlı açarı tapmaq, köhnə sosializm sisteminin qalıqlarından imtina edərək bütün sahələrdə uğurlu islahatlar aparmaq və s.

Xarici siyasət sahəsində Heydər Əliyevin qarşısında dayanan başlıca vəzifələr dövlət quruculuğu üçün əlverişli beynəlxalq şərait təmin etmək, Ermənistanın davam edən hərbi təcavüzünü dayandırmaq, ölkəni fəlakətə salmış, Azərbaycan xalqı və dövlətinə düşmənlər qazandıran xarici siyasət xəttindən imtina etmək və s. idi. Əlverişli coğrafi-siyasi mövqeyinə, zəngin təbii sərvətlərinə yiyələnmək uğrunda yüzilliklər boyu imperiya siyasəti yürütmüş dövlətlərin sınaq meydanına, "qurdlar süfrəsi"nə çevrilmiş Azərbaycanda bütün bunları bir dövlət xadiminin həll etməsi mürəkkəb və çətin bir iş idi.

Hakimiyyətin qanadları arasında sıx birliyin tələb olunduğu bir zamanda Prezident Əbülfəz Elçibəyin Bakıdan doğulduğu Naxçıvan Muxtar Respublikasının Kələki kəndinə getməsi onsuz da çətin olan şəraiti daha da ağırlaşdırdı. Bu, Azərbaycan dövlətçilik tarixində çox pis an idi.

Yaranmış şərait təcili, düzgün qərarların qəbul edilməsini və qətiyyətlə həyata keçirilməsini tələb edirdi. Parlamentin prezident səlahiyyətini verməsilə dövlətin və millətin taleyi ilə bağlı bütün məsuliyyəti Heydər Əliyev öz üzərinə götürdü. Ölkəni, dövləti və xalqı bəlalardan qurtaran Heydər Əliyevin bu fəaliyyəti xilaskarlıq, qurtuluş missiyası daşıdı.

## Azərbaycan xalqı nədən qurtuldu?

Heydər Əliyevin parlament sədri, oktyabr ayında isə prezident seçilməsi ilə Azərbaycan aşağıdakı dönüşə nail oldu:

İlk növbədə, xalq dövlət müstəqilliyini itirmək təhlükəsindən xilas oldu. Çünki hakimiyyətin bacarıqsız fəaliyyəti ölkəni bütün sahələrdə – iqtisadi, sosial, siyasi, milli təhlükəsizlik, mənəvi, psixoloji və b. fəlakətə salmışdı. Ölkədə yaranmış ağır vəziyyətdən istifadə edən xarici düşmənlər daxildə olan bəzi qrupların köməyi ilə öz çirkin məqsədlərini həyata keçirməyə başlamışdılar.

İkincisi, Azərbaycan xalqı böyük bir tarixi ləkə ola biləcək və kandarında dayandığı qardaş qırğınından, vətəndaş müharibəsi təhlükəsindən qurtuldu.

Üçüncüsü, Azərbaycan Respublikası xaricdən dəstəklənən separatçılıqdan və parçalanmaqdan xilas oldu, xalq dövlətinin bütövlüyünü qorudu.

Dördüncüsü, Azərbaycan xalqı müstəqil dövlətçiliyə, firavan gələcəyə olan inamsızlıqdan, bədbinlikdən və mənəvi-psixoloji böhrandan xilas oldu.

Beşincisi, Azərbaycan bütün sahələrdə millətin ümumi səviyyəsindən aşağı olan, onun həm iqtisadi, siyasi, təhlükəsizlik, dövlətçilik, həm də mənəvi tələbatına cavab verməyən və nəhayət, müstəqil Azərbaycan dövlətinin qarşısında dayanan vəzifələri yerinə yetirməyə qadir olmayan bacarıqsız hakimiyyətdən xilas oldu.

Altıncısı, Azərbaycan xalqı hakimiyyətə konstitusiyaya zidd yollarla gəlmək, silah və təzyiqlərlə hakimiyyət dəyişikliyinə nail olmaq, eksperimentlər ölkəsinə çevrilmək meyillərindən xilas oldu. Qəti şəkildə belli oldu ki, hakimiyyətə gəlməyin yeganə yolu seçkidir.

**(Ardı var)**

***Musa QASIMLI,***
***Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü, professor***



# Heydər Əliyev qüdrətli Azərbaycanın banisidir

**“Heydər Əliyev xatirələr işığında” layihəsinin qonağı Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevdir. Müsahibəmizi davam etdiririk.**

**(əvvəli qəzetin 14 iyun 2023-cü il tarixli sayında)**

**– Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıdandan sonra xarici televiziyalardan birinə verdiyi müsahibədə qeyd edir ki, SSRİ rəhbərliyi, xüsusilə Qorbaçov onun Azərbaycanda rəhbər olduğu 1969–1982-ci illər dövrünün araşdırılması və fəaliyyətində cinayət tərkibi tapmaqda çox maraqlı olub. Bizim prokurorluğun arxivlərində Qorbaçovun əlaltılarının ədalətsiz və qondarma işləri ilə bağlı hər hansı məlumat varmı?**

– Çox maraqlı məqamlara toxundunuz. Bu məsələləri konkret bir müsahibədə açıqlamağa xeyli vaxt lazımdır. Söhbətimizin əvvəlində də qeyd etdim ki, SSRİ məkanında Heydər Əliyevin nüfuzu, siyasi çəkisi çox böyük idi. Ulu öndər Moskvada çalışdığı qısa müddət ərzində bütün Sovet İttifaqında öz prinsipiallığı, işgüzarlığı, qayğıkeşliyi ilə insanların böyük rəğbət və sevgisini qazanmışdı. Həmin dövrün bir çox görkəmli dövlət xadimlərinin, dünyanın məşhur siyasətçilərinin, onunla ünsiyyətdə olmuş ziyalıların xatirələrində dahi rəhbərin zəngin erudisiyası, qeyri-adi yaddaşı, siyasətin, iqtisadiyyatın, sənayenin ən müxtəlif sahələrinə nüfuz etmək bacarığı, xarizması heyranlıqla qələmə alınmışdır. Heydər Əliyev qeyri-adi zəkası, kreativliyi, başladığı işin nəticəsini öncədən görə bilməsi, yüksək idarəçilik məharəti, təşkilatçılıq qabiliyyəti və bir çox üstün şəxsi keyfiyyətləri ilə Siyasi Büronun bütün üzvlərindən seçilirdi. Təbii ki, bütün bunlar Kremlin bəzi “sakinlərində” ona qarşı paxıllıq, həsəd oyadırdı.

Həmin illərdə mən Rusiyada tələbə idim və yaxşı bilirsiniz ki, tələbələr bütün dövrlərdə cəmiyyətin ən aktiv təbəqəsi hesab ediliblər. Biz aydın görürdük ki, xalq, ittifaqın ziyalı ictimaiyyəti Andropovdan sonra SSRİ rəhbərliyində Heydər Əliyevi görmək istəyirdi. Əlbəttə Kremldə özünü Baş katib postu kürsüsündə görən Siyasi Büronun bir çox üzvləri də bunu yaxşı bilirdilər və bu da onlarda qıcıq yaradırdı. Xüsusilə Çernenkonun ölümündən sonra özünü Kremlin sahibi kimi görən Mixail Qorbaçov Heydər Əliyevə olan paxıllığını, həsədini gizlədə bilmirdi.

Qorbaçov hakimiyyətə gələndən sonra belə, Baş katib olmasına baxmayaraq, yenə Heydər Əliyevin kölgəsindən çıxa bilmirdi. Heydər Əliyevin xarizması, nüfuzu və ona olan xalq sevgisi Qorbaçovu rahat buraxmırdı. İkinci tərəfdən, Heydər Əliyev bir çox məsələlərdə Siyasi Büronun toplantılarında Qorbaçovun verdiyi qərarların düzgün olmadığını açıq bəyan edir və onlarla razı olmadığını söyləyirdi. Bu da Qorbaçovun sərbəst hərəkət etməsinə mane olurdu. Ona görə də onun diktəsilə Heydər Əliyevə təzyiqlər başladı. Açıq deyək ki, müsəlman-türk dünyasının lideri kimi beynəlxalq aləmdə nüfuzu getdikcə artan Heydər Əliyevə qarşı bütün bu ədalətsizliklər, nəhayət, onun 1987-ci il oktyabr plenumunda öz ərizəsilə istefaya getməsinə səbəb oldu.

Hakimiyyətdən gedəndən sonra ona qarşı başlayan çirkin kampaniyaların başlaması da təsadüfi deyildi. Bilirsiniz ki, Mixail Qorbaçov karyerasının ən böyük strateji səhvinə yol verdi və Bakıya ordu hissələri yeridib yüzlərlə vətəndaşımızın qanını tökdü. Siyasi Büroda heç kim Qorbaçovun bu qanlı aksiyasına etiraz edib kəskin fikir söyləməyə cəsarət etmirdi. Belə bir məqamda Qorbaçov hakimiyyətinin təqibi altında olan Heydər Əliyev yenidən meydana çıxdı. Xalqın faciəsinə biganə qala bilməyən ulu öndər ailə üzvləri – oğlu, Prezidentimiz cənab İlham Əliyev və qızı Sevil xanımla birgə Moskvadakı Azərbaycan nümayəndiliyinə gələrək Qorbaçovun göstərişi ilə Bakıda törədilmiş kütləvi qırğına tarixi qiymət verdi, faciənin əsl səbəbkarlarını və təşkilatçılarını sərt ittiham etdi. Ulu öndərin məhz bu cəsarətli addımı Qorbaçov və onun əlaltılarının Heydər Əliyevə qarşı yenidən çirkin böhtan kampaniyasına başlamalarına səbəb oldu. Ulu öndər özü bunu sonralar çıxışlarının birində belə açıqlamışdı: “1990-cı ildə Azərbaycana qarşı bir təcavüz edildi. Mən o vaxt Moskvada bununla əlaqədar keçirilən mitinqə getdim. Orada Qorbaçovun, Kommunist Partiyasının, Sovetlər Birliyinin əleyhinə sözlər dedim. Onları məhkum etdim ki, siz Azərbaycana qarşı ədalətsizlik, təcavüz etmisiniz, insanlar şəhid olub, qan tökmüsünüz, siz cinayətkarsınız. Bundan sonra məni həbs etməyə çalışdılar, qəzetlərdə mənim əleyhimə yazılar yazdılar...”

Bu hadisədən iki həftə sonra qırmızı imperiyanın ruporu olan “Pravda” qəzetinin 1990-cı il 4 fevral tarixli sayında “Əliyevçilik, yaxud xoş əyyamların xiffəti” çirkin məqaləsilə Heydər Əliyevə qarşı siyasi təqiblər başlandı. Çox ürəkağrıdan faktlardan biri də o idi ki, Qorbaçov komandasının bu çirkin kampaniyasına Azərbaycanın o vaxtkı rəhbərliyi də qoşuldu və yerli mətbuatda ulu öndərə qarşı qərəzli məqalələr dərc edildi.

Siz düz deyirsiniz ki, Heydər Əliyevi ləkələmək üçün çox ciddi cəhdlər oldu. Amma eldə bir məsəl var, deyir, “Günəş ləkə götürməz”. Mərkəzdən gələn sifarişli tapşırığın tezliklə icrası məqsədilə Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrün sənədlərini az qala mikroskop altında təhqiq etməyə başlayıblar. Hətta xüsusi tapşırıqla Bakıya gələn SSRİ-nin o vaxtkı hüquq-mühafizə orqanlarının bir qrupu nə qədər dəridən-qabıqdan çıxsalar da Heydər Əliyevin Azərbaycandakı fəaliyyətindən bircə mənfi fakt belə aşkar edə bilməyiblər. Heç bir fitnə-fəsad, qara piar və uydurma ittihamlar ulu öndərin haqq yolunu bağlaya bilməmiş, həyatını xalqının firavan gələcəyinə həsr etmiş dahi şəxsiyyətin xidmətləri qarşısında bütün cəhdlər iflasa uğramışdır.

**– Heydər Əliyev respublika prokurorluğunun 80 illik yubileyində qeyd edib ki, bu qurum hüquq-mühafizə orqanları içərisində xüsusi yer tutur. Ümummilli lider prokurorluq orqanlarının fəaliyyətinə nəyə görə belə mühüm əhəmiyyət verirdi?**

– Azərbaycan Milli Prokurorluğu fəaliyyətə başladığı ötən bir əsrdən artıq müddətdə çətin və mürəkkəb, eyni zamanda, şərəfli inkişaf yolu keçmiş, millətə və dövlətçilik ideyalarına sədaqət nümayiş etdirmiş, qanunçuluğun möhkəmləndirilməsi, habelə cinayətkarlığa qarşı mübarizədə müstəsna xidmətlər göstərmişdir.

Dövlət müstəqilliyinin yenidən bərpasından sonra da dövrün səriştəsiz hakimiyyətinin ölkəni anarxiya və xaosa sürüklədiyi çətin məqamlarda Vətənə, dövlətə sədaqətlə xidmət edən bir çox prokurorluq işçisi milli mənafeyin qorunması, böyük vüsət alan cinayətkarlığın, insanların hüquq və azadlıqlarının kütləvi pozulması hallarının qarşısının alınması naminə şərəflə üzərlərinə düşən vəzifələri yerinə yetirmişlər.

Hüquq-mühafizə, o cümlədən, prokurorluq orqanlarının fəaliyyətinə dərindən bələd olan ulu öndər daim prokurorluq orqanlarının ölkədəki ictimai-siyasi sabitliyin qorunması, ibtidai istintaq və prosessual rəhbərlik sahəsində fəaliyyətini yüksək qiymətləndirərək deyirdi: “Respublika prokurorluğu və Baş prokuroru Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir”. Bu prokurorluq orqanlarına, Baş prokurora etimad, həm də üzərimizə qoyulmuş böyük məsuliyyətdir.

1994–1995-ci illərdə ölkəmizin Şimal-Qərb regionunda Azərbaycanın 1992–1993-cü illərin yaratdığı hakimiyyət strukturlarındakı boşluqdan istifadə edən cinayətkar ünsürlər aktivləşmişdi. Həmin cinayətkar ünsürlərin qanunsuz əməlləri ilə bağlı rəhbərlik etdiyim istintaq qrupu təhqiqat aparırdı. İstintaq qrupumuzun müstəntiqi araşdırdığımız cinayət işində adları keçən cinayətkar silahlı dəstələr tərəfindən qəflətən girov götürülmüşdü. Həmin müstəntiqin azad edilməsi üçün şəxsən ulu öndərin atdığı qətiyyətli addımlar gənc müstəntiq kimi mənim və həmkarlarımın yaddaşında silinməz izlər buraxdı. O vaxt bir daha müdrik rəhbərin qurumun fəaliyyətinə verdiyi önəmin, hər bir əməkdaşa olan qayğısının canlı şahidi olduq.

Ulu öndər prokurorluğun hüquq-mühafizə sistemindəki xüsusi yerinə, istintaq, əməliyyat-axtarış və məhkəmə orqanları ilə qarşılıqlı əlaqəsinin özünəməxsusluğuna ən gözəl qiyməti məhz elə qeyd etdiyiniz yubiley tədbirində vermişdi: “Prokurorluq hüquq-mühafizə orqanları sistemində demək olar ki, məhkəmə ilə polis orqanları, daxili işlər orqanları, milli təhlükəsizlik orqanları arasında duran bir orqandır. Ona görə də prokurorluğun işindən çox şey asılıdır. Yəni onun keyfiyyətindən, işin ədalətliliyindən, peşəkarlığından çox şey asılıdır”.

**– Ulu öndərin müstəqillik dönəmində Azərbaycan prokurorluğunun dövlətçilikdəki yerinin möhkəmləndirilməsi və nüfuzunun artırılması üçün həyata keçirdiyi işlər haqqında nə deyə bilərsiniz? Etiraf etmək lazımdır ki, müstəqilliyin ilk illərində yaranmış xaosda prokurorluq orqanları da, müəyyən mənada, öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirə bilmirdilər. Dahi lider bunu bir neçə çıxışında xüsusi vurğulayıb…**

– Əlbəttə, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra dövlətimizin üzləşdiyi siyasi və iqtisadi tənəzzül, vətəndaş müharibəsi təhlükəsi prokurorluq orqanlarının da fəaliyyətinə təsirsiz ötüşməmişdi. Etiraf etmək lazımdır ki, bu dövrdə cinayətkarlığın, insan hüquq və azadlıqlarının kütləvi şəkildə pozulması halları geniş vüsət almışdı. Amma bunlarla bərabər, bir neçə prokurorluq əməkdaşının daxili böhranın yaratdığı vətəndaş itaətsizliyi, qeyri-stabil şəraitdə yer alan cinayətkarlıqla mübarizə zamanı xidməti vəzifələrini icra edərkən şəhid olması da dövrün gerçəklərindəndir.

Heydər Əliyevin 1993-cü ilin çox mürəkkəb və gərgin bir dönəmində hakimiyyətə qayıdışı, dövlətçiliyin əsas sütunları olan strukturlarda qısa vaxtda apardığı islahatlar və çevik idarəetmə metodları tədricən ölkədə qanunçuluğun və ədalətin bərpasına yol açdı. Əlbəttə prokurorluq orqanlarında yer alan neqativ hallara qarşı da çox sərt tədbirlər görüldü. Azərbaycan Prokurorluğunun dövlətçilikdəki yerinin möhkəmləndirilməsi və nüfuzunun artırılması üçün həyata keçirilən işlərdən danışarkən, ilk növbədə, müstəqilliyin əsas atributlarından olan, bilavasitə ulu öndərin təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası və bu mühüm sənəddə prokurorluğa dair xüsusi müddəalar təsbit edilərək ona konstitusion statusun verilməsi xüsusi qeyd edilməlidir.

Bundan başqa, görkəmli dövlət xadiminin təşəbbüsü əsasında beynəlxalq hüquq normalarına və mütərəqqi prinsiplərə uyğun hazırlanmış 7 dekabr 1999-cu il tarixli “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanunu və 1 sentyabr 2000-ci ildən qüvvəyə minmiş Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə prokurorluğun artıq çağdaş dövrün tələblərinə uyğun qanunun aliliyinin real təminatçısına çevrilməsini müşahidə etmiş oluruq.

2002-ci il sentyabrın 19-dan qüvvəyə minmiş “Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” referendum aktına əsasən isə prokurorluğa qanunvericilik təşəbbüsü hüququnun verilməsi qurumun nəinki hüquq sistemində, o cümlədən, Azərbaycan dövlətçiliyindəki yerini və rolunu daha da gücləndirmişdir.

**– Kamran müəllim, Heydər Əliyevin prokurorluq orqanlarının rəhbər heyəti ilə 26 aprel 2000-ci ildə keçirdiyi müşavirəni nə səbəbə Azərbaycan Prokurorluğunun tarixində dönüş nöqtəsi adlandırırlar?**

– Sovetlər dönəmində prokurorluq orqanları son dərəcə fövqəladə sayılacaq “ümumi nəzarət” adlandırılan səlahiyyətə malik idi. Prokurorluq bütün vətəndaşların, müəssisə, idarə və təşkilatların, habelə ictimai və dövlət orqanlarının və onların vəzifəli şəxslərinin fəaliyyətində qanunların icra olunmasına nəzarəti həyata keçirirdi.

Müdrik rəhbərin hüquq sistemində başladığı islahatların mahiyyətinə nəzər yetirsək, sosialist ictimai-iqtisadi formasiyasından yeni formasiyaya keçid dövründə belə müstəsna səlahiyyətlərə malik ali nəzarətedici orqanın fəaliyyət dairəsinin sərhədlərinin yenidən müəyyən edilməsi, prokurorluğun funksiya və statusuna baxılması zərurətinin yarandığını görmüş olarıq. 1993-cü ildə hakimiyyətə gəldikdən sonra Heydər Əliyev artıq sosialist mülkiyyət münasibətlərinin bazar iqtisadi münasibətləri ilə ziddiyyət təşkil etdiyini, bu ziddiyyətlərin sosial-iqtisadi inkişafı ləngitdiyini çox aydın görürdü. Ona görə də müstəqil Azərbaycanda iqtisadi, siyasi böhrandan xilas olub, inkişaf və tərəqqi yoluna qədəm qoyulması üçün yeni ictimai münasibətlərin tənzimlənməsini, hüquqi islahatların aparılmasını çox vacib hesab etdi.

Bu məramla da ümummilli lider Heydər Əliyevin prokurorluq orqanlarının rəhbər işçiləri ilə qeyd etdiyiniz müstəsna əhəmiyyətə malik görüşü, həmin tədbirdəki proqram xarakterli çıxışı prokurorluqda reallaşdırılan müasir məzmunlu islahatların əsasını təşkil etdiyindən və qanunla nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işlərin səmərəli təşkilinə təminat yaratdığından qurumun tarixində dönüş nöqtəsi hesab edilməkdədir.

Prokurorluğun həyatında yeni mərhələnin başlandığı həmin müşavirədə müdrik liderin söylədiyi – “Azərbaycan Prokurorluğunda sağlam mənəvi mühit yaratmaq lazımdır. Sağlam mənəviyyat ... yoxdursa, o insan nə qədər yaxşı işləyirsə-işləsin, bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələblərimiz isə qanundur, qanunun aliliyidir. Mənəviyyatın da hamısı qanunun içərisindədir” sözləri bu gün də prokurorluğun fəaliyyətində əsas meyardır.

**– Müstəqil Azərbaycanda Prokurorluğunun yaranmasında və inkişafında Heydər Əliyevin xidmətləri nədən ibarətdir?**

– Əminliklə deyə bilərik ki, Azərbaycan Prokurorluğunun dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydasının qorunmasına xidmət etməsi, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunvericilik və maddi-sosial bazanın yaradılması zəmanəmizin ən böyük azərbaycanlısı Heydər Əliyevin dövlətçilik siyasəti, yüksək qayğısı və dəstəyi nəticəsində mümkün olmuşdur.

Böyük və qurucu dövlət xadiminin prokurorluğa olan diqqət və qayğısı onun 17 iyul 1998-ci il tarixli sərəncamla özünü parlaq şəkildə göstərir. Bu sərəncama əsasən hər il oktyabrın 1-nin respublikamızda prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd olunması, ulu öndərin prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyində şəxsən iştirakı və “Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram” fikrini səsləndirməsi bu gün də Azərbaycan



prokurorluq orqanlarının kollektivi tərəfindən dərin minnətdarlıq hissi ilə yad edilir.

Prokurorluq orqanlarında yüksək bilikli və peşəkar kadrların çalışmasının əhəmiyyətini gözəl bilən uzaqgörən liderin ilk dəfə məhz prokurorluqda müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsinə dair fərmanı xüsusi qeyd edilməlidir. Bu gün də davam etdirilən bu müsabiqələr qurumun kadr tərkibinin şəffaf prosedurlar əsasında, yüksək biliyə və mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsinə şərait yaratmışdır.

Məhz ulu öndərin göstərdiyi siyasi xəttə sədaqətin nümunəsidir ki, 2002-ci ilədək prokurorluq orqanlarında qulluq keçən 30 yaşınadək işçilərin sayı prokurorluq əməkdaşlarının ümumi sayının 3 faizinə bərabər olduğu halda, həmin ildən sonrakı dövrdə müsabiqə yolu ilə işə qəbul edilmiş gənc prokurorluq işçilərinin sayı əhəmiyyətli dərəcədə artaraq hazırda kadr korpusunun 80 faizindən çoxunu təşkil edir. Onların da əksəriyyəti hazırda rəhbər vəzifələrdə çalışırlar.

**– Cənab baş prokuror, Heydər Əliyevin prokurorluq qarşısında qoyduğu əsas vəzifələrdən biri də ötən əsrin 90-cı illərində Azərbaycan dövlətinə, ərazi bütövlüyünə, xalqa qarşı cinayətlərin araşdırılıb hüquqi qiymət verilməsi, cinayətkarların cəzalandırılmasıdır. Bu sahədə ulu öndərin qarşıya qoyduğu vəzifələr necə yerinə yetirilir? Fikrimcə, böyük Zəfərdən sonra bu işləri həyata keçirmək daha real görünür...**

– Müasir müstəqil Azərbaycanın banisinin ölkəmizin ərazi bütövlüyünə, həmvətənlərimizin təhlükəsizliyi əleyhinə yönəlmiş cinayət əməllərini törədənlərin ədalət mühakiməsi qarşısına çıxarılması ilə bağlı hüquq-mühafizə, o cümlədən, prokurorluq orqanları qarşısında qoyduğu vəzifələri 3 istiqamət üzrə ayıra bilərik.

Birinci istiqamət, xarici xüsusi xidmət orqanlarının dəstəyi ilə daxildən ölkəni parçalamaq məqsədilə təşkil edilmiş, süni milli-etnik münaqişə fonunda separatçılığa meyl edən hərbiləşmiş dəstələrin cinayətkar əməllərinin ifşa edilməsi; ikinci istiqamət, bildirdiyiniz kateqoriyadan olan sülh və insanlıq əleyhinə müharibə cinayətləri törətmiş Ermənistan silahlı qüvvələrinin mənsublarının məsuliyyətə cəlb edilməsi, üçüncü istiqamət isə erməni və digər xarici xüsusi xidmət orqanları tərəfindən ölkə daxilində dinc əhaliyə qarşı törədilmiş terror aktlarının qarşısının alınması ilə bağlı olmuşdur.

Hər üç istiqamət hüquq-mühafizə orqanları tərəfindən prioritet qəbul edilməklə kompleks tədbirlər həyata keçirilmiş, ilk öncə daxildə separatçı dəstələr tam zərərsizləşdirilmiş, xarici dairələrin ölkədə gedən ictimai-siyasi proseslərə təsiri minimuma endirilməklə sabitlik bərqərar edilmişdir.

Möhtərəm Prezidentimiz, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük haqq savaşında əzəli torpaqlarımızın işğaldan azad edilməsi həm tarixi ədalətin bərpasına, həm də ulu öndər tərəfindən qarşımızda qoyulan vəzifələrin icrasına son dərəcə böyük imkanlar açmışdır.

44 günlük İkinci Qarabağ müharibəsində aparılan hərbi əməliyyatlar zamanı cəmiyyətimizlə bərabər səfərbər olan prokurorluq orqanları da aidiyyəti dövlət qurumları ilə əlaqəli şəkildə fəaliyyət göstərərək, müharibənin gedişində törədilmiş hər bir cinayət faktı üzrə döyüş əməliyyatlarının aparıldığı şəraitdə mümkün istintaq hərəkətləri həyata keçirmişlər. Bu müddətdə hərbi qulluqçularımızın istintaqa təhvil verdikləri Birinci Qarabağ müharibəsi zamanı törətmiş olduğu cinayət əməllərinə görə təqsirləndirilən “Yerkrapa” silahlı birləşməsinin üzvləri Lüdvik Mkrtiçyan və Alyoşa Xosrovyan məhkəmə məsuliyyətinə cəlb edilmişdir. Bundan başqa Xocalı, Qaradağlı, Bağanıs-Ayrım, Meşəli, Kərkicahan soyqırımı ilə yanaşı, digər sülh və insanlıq əleyhinə, habelə müharibə cinayətlərini törətməkdə təqsirləndirilən 297 şəxsin beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilərək cəzalandırılmalarını təmin etmək məqsədilə istintaq və əməliyyat-axtarış tədbirlərinin icrası davam etdirilir.

Bunlarla bərabər, Ermənistan üçün təslimçilik aktı olan üçtərəfli Bəyanatın imzalanmasından dərhal sonra prokurorluq orqanları tərəfindən təxirə salınmadan işğaldan azad edilmiş ərazilərdə erməni vandalizmi nəticəsində talan edilmiş, dağıdılmış yaşayış məntəqələrinə, tarixi, dini-mədəni abidələrə və digər əmlaklara dəymiş ziyanın müəyyən edilməklə beynəlxalq məhkəmələrə müraciət olunması istiqamətində digər qurumlarla əlaqəli şəkildə müvafiq işlər həyata keçirilir.

**– Kamran müəllim, bu gün tam əminliklə demək olarmı, Azərbaycan Prokurorluğu ümummilli liderin arzuladığı keyfiyyətdə, milli mənafeyə uyğun, yüksək peşəkarlıqla fəaliyyət göstərən və cəmiyyətin ən layiqli adamlarındandır”?**

– Əvvəldə qeyd etdiyim kimi, Azərbaycan Prokurorluğunun öz xalqının və müstəqil dövlətçiliyin maraqlarına xidmət edən, konstitusion statuslu, yüksək dünya standartlarına uyğun təsisat kimi formalaşmasında ulu öndərin müstəsna xidmətləri var. Heydər Əliyevin həyata keçirdiyi islahatlar bu gün onun layiqli varisi, yeni dövrün yeni lideri cənab İlham Əliyev tərəfindən müasir çağırışlar nəzərə alınmaqla uğurla davam etdirilməkdə və ulu öndərin hüquqi dövlət quruculuğu konsepsiyası əzmlə gerçəkləşdirilməkdədir. Dövlət başçısının dəstəyi ilə prokurorluqda şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, işin səmərəliliyini artırmağa, mövcud çatışmazlıqları təxirə salınmadan aradan qaldırmağa təminat verən icra-nəzarət mexanizminin yaradılması daim önə çəkilmişdir.

Ulu öndərin prokurorluq orqanları qarşısında qoyduğu tələblər, eləcə də dövlət başçısı cənab İlham Əliyevin rəhbər göstərişləri və müdrik tövsiyələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsi, prokurorluq fəaliyyətində səmərəliliyin artırılması və müasir iş metodlarını tətbiq etməyə qadir kadr korpusunun formalaşdırılması prosesi bu gün də intensiv şəkildə davam etməkdədir.

Ölkəmizdə mövcud dayanıqlı ictimai-siyasi sabitlik, dövlətimizin qüdrətinin artması hüquq-mühafizə, xüsusən də prokurorluq orqanları əməkdaşlarının gündəlik fəaliyyətlərini daha səmərəli təşkil etməyə, böyük əzm və vicdanla işləməyə, qanunun aliliyinin təmin edilməsində peşəkar, hərtərəfli və qətiyyətli olmağa sövq edir. Müasir dövrün yüksək texnoloji tendensiyalarına, rəqəmsal xidmətlərin artmasına baxmayaraq, prokurorluq işçisi üçün ən vacib amillərdən biri onun müsbət şəxsi keyfiyyətlərə malik olmasıdır.

Bu, ulu öndərin yüksək dəyər verdiyi ən mühüm keyfiyyətlərdir: “Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır”. Heydər Əliyevin bu sözləri fəaliyyətimizin əsas meyarına çevrilmişdir. Ona görə də prokurorluq işçiləri üzərlərinə düşən məsuliyyəti dərk edərək ulu öndərin göstərdiyi etibarı və Prezident cənab İlham Əliyevin yüksək etimadı dövlətçilik ideyalarına sədaqətlə, xidməti vəzifələrinin icrasına daim vicdanlı münasibət bəsləməklə doğrultmağa çalışırlar.

**– Baş prokuror yox, sadəcə Azərbaycan vətəndaşı olan Kamran Əliyev üçün Heydər Əliyev kimdir – dahi, müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər, yoxsa, epoxanın lideri?**

– Bütün dahilərin qiymətini zaman verir. Heydər Əliyev yaşadığı ömürdən ötən illər də göstərir ki, bu dahi şəxsiyyət dünya siyasət olimpində öz adını əməlləri və xidmətləri ilə əbədiləşdirib. Təkcə hakimiyyətə qayıdışından sonrakı dövrdə onun xidmətlərinin miqyasının çərçivəsini tam əhatə etmək mümkün olmur. Zaman göstərdi ki, hakimiyyətinin 10 ilində ulu öndərin apardığı siyasət son dərəcə mükəmməl və düzgün siyasət olub. Mən bunu bircə 2020-ci ildə, 44 günlük müharibədə işğalçı Ermənistan üzərində qazandığımız qələbə ilə əlaqələndirmək istəyirəm. Bu qələbə ümummilli liderin başladığı quruculuq siyasətinin və bu siyasi xəttin Prezidentimiz cənab İlham Əliyev tərəfindən ən mükəmməl şəkildə davam etdirilməsinin parlaq nəticəsi oldu. Bu zəfərin təməl daşları – milli müstəqil dövlətçiliyin yaradılması, Milli Ordunun formalaşdırılması, hüquq-mühafizə orqanlarının ədalət prinsipləri əsasında saflaşdırılması, vətəndaş cəmiyyətinin formalaşması, xalqın azərbaycançılıq və milli həmrəylik ideyası ətrafında birləşmək kimi mühüm təməllər Heydər Əliyev tərəfindən qoyuldu. Prezident İlham Əliyev müasir qlobal çağırışları nəzərə almaqla bunları ən yüksək formada və müdrikliklə davam etdirərək Zəfərə nail oldu. Politoloqların, tədqiqatçıların yanaşmaları göstərir ki, bu qələbə təkcə hərbi qələbə deyildi. Bu Azərbaycanın düşmən üzərində diplomatik, iqtisadi, mədəni, mənəvi və humanitar qələbəsi idi. Onların hər birində Heydər Əliyevin özünəməxsus dəstixətti, izi var.

Ona görə də Heydər Əliyev mənim üçün zamanın fövqündə dayanan fenomenal insan, böyük düha sahibi, xalqa xidməti ilə zirvələri fəth edən, bütün zamanların ən qüdrətli Azərbaycanın banisidir. Heydər Əliyev ölkə, qitə miqyasını aşan, dünya şöhrətli siyasətçi, əbədiyaşar lider, polad iradəli görkəmli dövlət xadimi, bir sözlə... bəşəriyyətin tarixə bəxş etdiyi dahi azərbaycanlıdır.

***Söhbəti qələmə aldı: İlqar RÜSTƏMOV, “Xalq qəzeti”***

# Milli Məclisin yubiley iclası

## *Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Bəyanat*

**Dünən Milli Məclisin Sədri Sahibə Qafarova, sədrin müavinləri, deputatlar aparatın məsul əməkdaşları Milli Qurtuluş Günü münasibətlə Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, abidəsi önünə əklil qoyublar.**

**Görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.**

**Sonra Milli Məclisdə Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclas keçirilib. Parlamentin Sədri Sahibə Qafarova ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən iclasın taleyüklü hadisənin ildönümü ərəfəsində keçirildiyini bildirib. Xalqımız ulu öndərin qəhrəmanlığını və fədakarlığını təcəssüm etdirən Milli Qurtuluş Gününün 30-cu ildönümünü dərin ehtiramla qeyd edir. Sonra Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, sədr müavini Fəzail İbrahimli, komitə sədrləri və deputatlar ümummilli liderin yubiley tədbirlərinin Milli Məclisdə çox yüksək səviyyədə, müxtəlif formatlarda, ardıcıl olaraq keçirilməsini ulu öndərə məhəbbətin və minnətdarlığın ifadəsi kimi dəyərləndiriblər. Sonra ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Bəyanat qəbul edilib. Sənədin mətnini təqdim edirik:**



Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyi bu il dövlət səviyyəsində tədbirlər ilə qeyd edilir. Böyük siyasi və dövlət xadiminin Vətən və millət qarşısında misilsiz xidmətləri dərin minnətdarlıq duyğuları ilə xatırlanır.

Bütün həyatını Azərbaycanın inkişafına, qorunmasına və istiqlalına həsr edən, onu zamanın burulğanlarından xətərsiz çıxarmağa nail olan Heydər Əliyev qədim tariximizin ən böyük şəxsiyyətlərinin ön cərgəsində dayanmaq haqqı qazanmışdır. Xalqımızın yaradıcılıq enerjisini, zəkasını, əzmini və iradəsini öz fəaliyyətində təcəssüm etdirən ulu öndər təkcə dövləti idarə etməyin deyil, həm də vətəni necə sevmək lazım olduğunun parlaq nümunələrini göstərmişdir.

Ötən əsrin 60-cı illərinin sonlarında və 90-cı illərinin əvvəllərində Heydər Əliyevin hakimiyyətə hər iki gəlişi ölkəmizin və xalqımızın həyatında çox ağır sınaqlar dövrünə təsadüf etmişdir. Hər dəfə də Heydər Əliyev ona bəslənən ümidləri doğruldaraq həqiqi milli lider olduğunu sübuta yetirmişdir.

1969-cu ildə Heydər Əliyev Azərbaycanın siyasi həyatına gələcəyi görmək və yaratmaq bacarığına malik qüdrətli rəhbər kimi daxil oldu, cəmiyyət tərəfindən prinsipial, qətiyyətli, iradəli və etibarlı bir insan kimi qəbul edildi. Onun respublikaya ilk dəfə rəhbərlik etdiyi 13 il ərzində Azərbaycanda dövlət quruculuğunun bütün tarixi ərzində əldə olunmayan sürətli inkişaf yolu keçildi, sənaye və kənd təsərrüfatı nəhəng addımlarla irəliləməyə başladı. Elmin, mədəniyyətin, incəsənətin, ədəbiyyatın, digər yaradıcılıq sahələrinin inkişafına qayğı və diqqət artırıldı. Mühüm sosial dəyişikliklər həyata keçirildi, əhalinin həyat tərzi dəyişdi. Azərbaycan keçmiş ittifaqın qabaqcıl respublikaları sırasına çıxdı, cəmiyyətdə yeniləşmə, gələcəyə inam hissi bərqərar oldu.

Milli-mənəvi sərvətlərin qorunmasına və artırılmasına, milli mənlik şüurunun oyanmasına və güclənməsinə yönələn düşünülmüş tədbirlər görüldü. Xalqımızın qədim tarixi təbliğ edilməyə başlandı, 1978-ci ildə qəbul olunmuş Konstitusiyada Azərbaycan dilinə dövlət dili statusu verildi.

Heydər Əliyev Azərbaycan SSR-in əsasında inkişaf etmiş yetkin, müstəqil bir dövlətin cizgilərini formalaşdırırdı. Zəngin iqtisadi potensial yaradılması ilə yanaşı, yüksək ixtisaslı milli kadrların, o cümlədən hərbi mütəxəssislərin hazırlanmasına ümdə əhəmiyyət verilirdi.

1982–1987-ci illərdə Sov.İKP Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində çalışarkən Heydər Əliyev Azərbaycan xalqını layiqincə təmsil etmişdir. İttifaqın bir sıra nazirlik və komitələrinin fəaliyyətinə nəzarət edən rəhbər şəxs kimi o, dövlət əhəmiyyətli məsələlərin həllində böyük uğurlar qazanmışdır.

Bununla yanaşı, ulu öndər Azərbaycanın inkişafı ilə bağlı məsələləri diqqət mərkəzində saxlayırdı. Onun təşəbbüsü ilə SSRİ rəhbərliyi Azərbaycanın iqtisadi inkişafı üçün böyük əhəmiyyətə malik bir sıra qərarlar qəbul etmişdi. Azərbaycanda mərkəzdən maliyyələşdirilən bir çox iri layihələr həyata keçirilmişdi.

Heydər Əliyevin Sovet İttifaqının liderlərindən biri olması Azərbaycana qarşı düşmənçilik mövqeyi tutan qüvvələrin qarşısında ən böyük maneə idi. 1987-ci ilin oktyabr ayında ulu öndərin Sovetlər Birliyinin rəhbərliyində yüksək vəzifələrdən uzaqlaşdırılması ilə Azərbaycanın faciələrinin əsası qoyuldu.

Heydər Əliyevin məcburi istefasından iki həftə keçməmiş erməni millətçiləri və onların sovet iqtidarında olan himayədarları ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilməsi ilə bağlı məsələ qaldırdılar. Azərbaycana qarşı ərazi iddiaları irəli sürülməsinə və Ermənistan Respublikasında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmasına haqq qazandırmaq üçün 1988-ci ilin fevralında SSRİ və Ermənistan xüsusi xidmət orqanlarının təşkilatçılığı ilə Sumqayıt şəhərində irimiqyaslı təxribat törədildi.

1990-cı ilin yanvarında fərsiz rəhbərlərin milli xəyanəti və sovet imperiyasının dəhşətli cinayəti nəticəsində xalqımız günahsız qurbanlar verəndə Heydər Əliyev heç bir təqib və təzyiqdən çəkinməyərək, ailə üzvləri ilə birlikdə Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gəldi, bəyanat verərək haqq səsimizi dünya ictimaiyyətinə çatdırdı. Ulu Öndər xalqımıza qarşı silah tətbiq edilməsinə qəti etirazını bildirərək, 20 Yanvar cinayətinin mahiyyətini və səbəblərini, bu faciəni törədən qüvvələrin niyyətlərini açıq şəkildə göstərdi.



Bu hadisədən bir neçə ay sonra Heydər Əliyev xalqının yanında olmaq üçün ittifaq və respublika rəhbərliyinin törətdiyi müxtəlif maneələrə baxmayaraq, Bakıya qayıtdı, burada qalmağa imkan verilmədiyinə görə doğulduğu şəhərə – Naxçıvana getdi. Azərbaycan və Naxçıvan parlamentlərinin deputatı, muxtar respublikanın Ali Məclisinin sədri seçildi. Naxçıvan əhalisi ilə birlikdə ağır blokada şəraitində yaşayıb işlədi, muxtar respublikanın müdafiəsini möhkəmləndirmək üçün qətiyyətli tədbirlər görərək, Azərbaycanın bu qədim bölgəsini erməni işğalından qoruyub saxladı.

Ulu öndərin rəhbərliyi ilə Naxçıvan Azərbaycanın həqiqi dövlət müstəqilliyinə gedən yolda bayraqdar rolunu öhdəsinə götürdü və bu rolu uğurla yerinə yetirdi. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Ali Məclisinin sessiyasında Dövlət Bayrağı kimi qəbul edildi. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı.

1992-ci ilin noyabr ayında Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis edilməsi və Heydər Əliyevin partiyaya sədr seçilməsi Azərbaycanın müasir siyasi sisteminin formalaşması baxımından önəmli bir hadisə oldu. Tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası qısa müddətdə cəmiyyətin aparıcı siyasi qüvvəsinə çevrildi.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi elan edildikdən sonra ölkəmiz son dərəcə mürəkkəb problemlərlə qarşılaşıb çox çətin vəziyyətə düşmüşdü. Yeni yaranan dövlət quruluşunun siyasi, sosial və iqtisadi təməlini möhkəmləndirməyə, dəyişən şəraitə uyğun idarəçilik mexanizmləri hazırlamağa qadir siyasi rəhbərliyin olmaması zəruri dövlət quruculuğu vəzifələrini yerinə yetirməyə imkan vermirdi.

1993-cü ilin əvvəllərində hakimiyyət tam iflic vəziyyətinə düşmüşdü. Ovaxtkı iqtidarın səriştəsizliyi və acizliyi üzündən hərc-mərcliyin dövlət həyatının bütün sahələrinə sirayət etməsindən, ölkədə hökm sürən başıpozuqluqdan, hakimiyyət uğrunda didişmədən, əslində, milli ordunun olmamasından istifadə edən təcavüzkar Ermənistan Respublikası bir-birinin ardınca torpaqlarımızı işğal edirdi.

1980-ci illərin sonlarında Ermənistandakı ata-baba torpaqlarından qovulan 250 minə yaxın azərbaycanlının ardınca işğal edilmiş bölgələrdən 700 mindən çox soydaşımız da yerindən-yurdundan didərgin salınmışdı. Sürətlə gedən dağılma prosesinin məntiqi nəticəsi kimi, 1993-cü ilin ortalarında ölkəmiz real vətəndaş müharibəsi təhlükəsi, separatçılıq meyilləri ilə üz-üzə dayanmışdı. Azərbaycan parçalanmaq, bir dövlət kimi məhv olmaq fəlakətinin lap yaxınlığında idi.

Azərbaycan dövlətçiliyinin müqəddəratının həll edildiyi ağır məqamda xalqın təkidli tələbi ilə Heydər Əliyevin ali hakimiyyətə qayıtması Azərbaycan üçün hazırlanmış planları alt-üst etdi. Ulu öndərin dövlət rəhbərliyinə qayıdışı sayəsində Azərbaycan uçurumun bir addımlığından geri döndü, xalqımızın mənliyi və ləyaqəti müdafiə olundu.

Azərbaycan Respublikasının həqiqi dövlət müstəqilliyinin tarixi məhz Qurtuluş Günündən başlanır. Çünki ulu öndərin dediyi kimi, "Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir". Bu gün tam inamla söyləmək olar ki, əgər o vaxt ölkədə baş verən hadisələrə Heydər Əliyevin şəxsi müdaxiləsi olmasaydı, Azərbaycan dövlətinin varlığına çoxdan son qoyulmuşdu.

Heydər Əliyevin böyük siyasətə qayıdışı yolunda ilk addım 1993-cü il iyunun 15-də onun Azərbaycan Respublikası Ali Sovetinin sədri vəzifəsinə seçilməsi olmuşdur. Ümummilli liderimiz Prezident seçilənədək dörd aya yaxın parlamentə rəhbərlik etmişdir.

Heydər Əliyevin Azərbaycan parlamentinin sədri vəzifəsində fəaliyyəti ölkəmizdə qanunvericilik orqanının nüfuzunu yüksək səviyyəyə qaldırdı və onun peşəkar nümayəndəli orqan kimi formalaşması istiqamətlərini müəyyən etməyə imkan verdi. Milli Məclis mürəkkəb ictimai-siyasi problemləri müzakirə və həll etməyə qadir olan hakimiyyət orqanına çevrildi.

Heydər Əliyev siyasi iradəsi və qətiyyəti, çevik və dərin ağlı, müdrikliyi və yaradıcı düşüncəsi, zəngin təcrübəsi, ona inam bəsləyən xalqından aldığı dəstək sayəsində Azərbaycan dövlətinin qarşısında dayanan taleyüklü problemlərin həllinə nail oldu. Azərbaycan Respublikası XX əsrin əvvəllərində cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin aqibətini yaşamaq və məhv olmaq təhlükəsindən qurtuldu. Sonralar ölkənin qanunvericilik orqanının xalqın arzu və istəklərini nəzərə alaraq, Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun gününü Milli Qurtuluş Günü kimi dəyərləndirməsi bu həqiqətin daha bir təsdiqi idi.

Ulu öndərin xilaskarlıq missiyasında ən mühüm addımı ölkəni dağılmaq və parçalanmaq həddinə gətirib çıxarmış dövlət və hakimiyyət böhranını aradan qaldırması, vətəndaş müharibəsi təhlükəsinin, dövlət çevrilişi və terror cəhdlərinin qarşısını alması oldu.

Müstəqilliyimizin ilk illərində səriştəsiz siyasi və hərbi rəhbərlik xarici hərbi təcavüzü dəf edə bilən silahlı qüvvələrin yaranmasına imkan verməmişdi. Ulu öndər torpaqlarımızı müdafiə etməyə qadir olan milli ordunun formalaşdırılmasını ən vacib vəzifələrdən biri kimi irəli sürdü. Bu istiqamətdə qəti tədbirlərin həyata keçirilməsi döyüş əməliyyatları zonasında dönüş yaratdı və 1994-cü ilin may ayında cəbhə xəttində atəşkəs elan olundu.

Ölkə daxilində möhkəm ictimai-siyasi sabitlik yaradıldı. Azərbaycan dövlətinin yeni neft strategiyası müəyyən edildi. Xarici neft şirkətləri ilə çoxsaylı sazişlər imzalandı. Azərbaycanın karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərlərinin çəkilişinə başlandı. Xarici tərəfdaşların yatırdığı milyardlarla dollar məbləğində investisiya Azərbaycan iqtisadiyyatının inkişafına əlavə təkan verdi. Təbii sərvətlərdən götürülən gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini və gələcək nəsillər üçün saxlanmasını təmin etmək məqsədi ilə beynəlxalq səviyyəli maliyyə qurumu olan Dövlət Neft Fondu yaradıldı.

Neft sənayesinin dirçəlməsi iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına da şərait yaratdı. Bazar iqtisadiyyatı prinsipləri tətbiq olundu, iqtisadi islahatlar, o cümlədən torpaq islahatı, özəlləşdirmə aparıldı. Həyatın bütün sahələrində tənəzzülə son qoyuldu, ölkəmiz dinamik inkişaf yoluna çıxdı.

Dövlətimizin elmi təhlilə əsaslanan, müasir dünyanın reallıqları üzərində qurulan hərtərəfli və dolğun xarici siyasət konsepsiyası formalaşdırıldı və ardıcıl həyata keçirilməyə başlandı. Ölkəmizin dünyaya inteqrasiyası reallığa çevrildi. Azərbaycan Respublikası nüfuzlu beynəlxalq təşkilatların bərabərhüquqlu üzvü oldu. Dünyanın əksər dövlətləri ilə dostluq münasibətləri yaradıldı.

Yeni Konstitusiyanın hazırlanıb ümumxalq səsverməsi yolu ilə qəbul olunması ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna, hakimiyyət bölgüsünə və demokratik təsisatların yaranmasına yol açdı, qanunun aliliyi təmin olundu, demokratik seçki mexanizmi bərqərar edildi, yeni siyasi partiyalar fəaliyyətə başladı.

Ölkədə əsaslı siyasi, hüquqi və sosial islahatlar həyata keçirildi. Şərq və müsəlman aləmində ilk dəfə olaraq ölüm cəzasının ləğv edilməsi və bir sıra digər tədbirlər dövlətimizin beynəlxalq nüfuzunu daha da artırdı.

Milli-mənəvi dəyərlərimizin qorunması, mədəniyyətin, ədəbiyyatın və incəsənətin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərinə çevrildi. Milli dövlətçilik ideologiyası və idarəçilik fəlsəfəsi formalaşdırıldı. Azərbaycançılıq, müstəqillik və dövlətçilik amalları naminə milli həmrəyliyin yaradılması istiqamətində əməli addımlar atıldı.

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızla əlaqələrin inkişaf etdirilməsi, diaspor təşkilatlarının yaranmasına kömək göstərilməsi dövlət siyasətinin tərkib hissəsinə çevrildi. Dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi ənənə halını aldı.

Bu möhtəşəm işlərin gerçəkləşdirilməsində Milli Məclis həmişə ümummilli liderimizin yanında olmuş, onun uzaqgörən daxili və xarici siyasətini fəal surətdə dəstəkləmişdir.

Ulu öndər parlamentə daim böyük diqqət və qayğı göstərmişdir. 1995-ci il noyabrın 24-də Heydər Əliyev birinci çağırış Milli Məclisin ilk iclasında iştirak etmiş, qanunvericilik orqanının üzvlərinə öz xeyir-duasını vermişdir. Sonrakı dövrdə də ulu öndər parlamentin bir sıra iclaslarında iştirak və çıxış etmişdir.

Heydər Əliyevin qanunvericilik təşəbbüsü ilə Milli Məclis tərəfindən qəbul edilən çoxsaylı qanunvericilik aktları dövlətimizin müasir beynəlxalq standartlara uyğun möhkəm hüquqi bazasının formalaşmasını təmin etmişdir.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi otuz beş ilə yaxın dövr ərzində böyük bir siyasi məktəb yaratmış, xalqa xidmət etməyin yollarını silahdaşlarına və siyasi davamçılarına aşılamışdır. Bu baxımdan Heydər Əliyevin amalları təkcə dünənə və bu günə deyil, həm də gələcəyə ünvanlanmışdır.

Ümummilli liderimizin müəyyənləşdirdiyi inkişaf strategiyasını zamanın çağırışlarına və tələbatına uyğun şəkildə davam etdirmək naminə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət Azərbaycanı geniş bir bölgədə söz sahibi olan güclü dövlətə çevirmişdir. Getdikcə daha da artan imkanlarımız qarşıya qoyulan hər bir mürəkkəb vəzifəni uğurla yerinə yetirməyə imkan yaradır. Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən nəhəng layihələr qlobal iqtisadiyyatda mühüm rol oynayır.

Azərbaycanda bərqərar olmuş etibarlı siyasi rəhbərlik amili cəmiyyət və dövlət həyatının bütün sahələrində böyük nailiyyətlərin təməlini təşkil edir. Ulu öndərin ən böyük arzusu həyata keçirilmiş, 44 günlük Vətən müharibəsində qələbə sayəsində əzəli və tarixi torpaqlarımız erməni işğalından qurtarılmış, dövlətimizin ərazi bütövlüyü və tarixi ədalət bərpa olunmuşdur. Azərbaycan Bayrağını azad Qarabağda və Şərqi Zəngəzurda dalğalandıran xalqımız işğalçılar tərəfindən viran qoyulmuş yaşayış məntəqələrimizi bərpa edib gülüstana çevirərək, qurucu xalq olduğunu da dünyaya nümayiş etdirir.

Heydər Əliyevin ölməz ideyaları Azərbaycanın qüdrətinin təməlində dayanan əsas amillərdən biridir. Ümummilli liderimizin müəyyən etdiyi yol Azərbaycanı xoşbəxt gələcəyə, xalqımızı firavanlığa və səadətə aparır. Nə qədər ki Azərbaycan var, Heydər Əliyev yaşayacaq, ulu öndərin ideyaları dövlətimizə və xalqımıza yeni-yeni qələbələr qazandıracaqdır.

# Türkiyə–Azərbaycan dostluq və qardaşlığı sərhəd tanımaz

*İki dövlətin birliyinə, bir millətin qardaşlığına heyran qalan dünya XXI əsrdə bu vəhdətin neçə-neçə uğuruna şahidlik edəcək*



• İki qardaş xalqın dostluğu tarixin ağır sınaqlarından keçərək indiki ən yüksək səviyyəsinə çatıb. Türk zabit və əsgərləri 1918-ci ilin martında daşnak-bolşevik qırğınlarında Bakı şəhərinin, digər bölgələrin erməni vandallarından azad edilməsində qəhrəmanlıq göstərib şəhid oldular. Çanaqqala savaşında yüzlərlə azərbaycanlı döyüş meydanında doğma sandığı torpaq uğrunda canını fəda etdi. Bu silinməz səhifələr Azərbaycan və Türkiyə arasında tarixi qardaşlıq əlaqələrinin təməlində durur.

Bəşər övladının iştirakçısı və şahidi olduğu tarixi hadisələrin əhəmiyyətini və miqyasını dəyərləndirməkdə, onun əsl qiymətini verməkdə çətinlik çəkməsi təbiidir. Çünki yaxınlığında cərəyan edən hadisələrin canlı şahidi üçün baş verənlərin böyüklüyünü həmin an görmək və qiymətləndirmək mümkün deyil. Bu gün iki qardaş dövlətin və bir millətin nümayəndələri kimi bizlər də eyni hissləri yaşayırıq. Həqiqətən də Azərbaycanla Türkiyə tarixləri ərzində indiki qədər bir-birinə yaxın olmayıb. Tarixin öz dialektikası var və bu gün iki doğma xalqın bütün müstəvilərdə yanaşı addımlaması qanunauyğunluğun nəticəsidir. Şəxsiyyətin tarixdəki rolunu inkar edən sovet ideologiyası dediyimiz dialektikanın əksinə gedirdi. Dövlətlərarası münasibətlərdə liderlərin şəxsi münasibətlərinin oynadığı əhəmiyyətli rolu isə danmaq mümkün deyil. Əslində, iki qardaş ölkə arasında strateji müttəfiqliyin əsas atributlarından biri məhz rəhbərlər arasında inam və etibara söykənən səmimi dostluq münasibətidir.

## Sözdə, fikirdə, əməldə birik

Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərində dünya bir daha Türkiyənin və onun liderinin Azərbaycana, Prezident İlham Əliyevə xüsusi önəm verdiyinin şahidi oldu. Əldə edilmiş bütün ortaq uğurların təməlində iki qardaş millətin tarixin sınağından çıxmış sarsılmaz vəhdəti dayanır. Bütün dünya bu qardaşlıq və dostluğun növbəti nümunəsini Türkiyədə baş vermiş "əsrin fəlakəti" sayılan dəhşətli zəlzələ zamanı sözdə deyil, əməldə gördü. Azərbaycan dövləti və xalqı qardaş xalqın dərdini öz dərdi bildi, hadisə bölgəsinə dərhal xilasedicilər göndərdi. Dara düşən qardaşa dəstək maddi, humanitar sahələrlə məhdudlaşmadı, siyasi müstəvidə də özünü göstərdi. Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi təşəbbüsü ilə Ankarada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının fövqəladə Zirvə görüşü keçirildi. Əslində həmin tədbirin Şuşada keçirilməsi planlaşdırılmışdı. İntəhası, dövlətimizin başçısı dəhşətli zəlzələ ilə əlaqədar qardaş ölkəyə dəstək məqsədilə Zirvə görüşünün Ankarada keçirilməsi təklifi ilə çıxış etdi. Zirvə görüşündən az sonra İstanbulda "TEXNOFEST" Aerokosmik və Texnologiya Festivalı çərçivəsində təbii fəlakətin episentri sayılan Kahramanmaraş vilayətində Azərbaycanın inşa edəcəyi min ev, məktəb, məscid və digər infrastruktur obyektlərindən ibarət yaşayış kompleksinin onlayn rejimdə təməli qoyuldu. Bunlar bütövlükdə Türk dünyasının birliyinə töhfə verən real addımlar idi.

## Ulu yolun davamçıları

Bəli, tarixi ona adlarını yazdırmış şəxsiyyətlər yaradır. Xalqlarımızın qardaş və dost kimi bir-birinə möhkəm tellərlə bağlanmasında danılmaz xidmətləri olan böyük liderlər – Mustafa Kamal Atatürk və Heydər Əliyevin adlarını daim ehtiramla anmağımızın əsas səbəbi budur. İyirminci əsrin əvvəllərində Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", yüzilliyin sonlarında Heydər Əliyevin "Azərbaycan və Türkiyə – bir millət iki dövlətdir" kəlamları xalqlarımızın bir-birinə hansı tellərlə bağlı olduğunun göstəricisi və sübutudur. Dost və qardaş münasibətlərinə malik Türkiyə və Azərbaycan Prezidentləri xalqlarımızın qürur mənbəyinə çevrildiyi bu iki böyük şəxsiyyətin saldığı vəhdət yolunun davamçılarıdır. Rəcəb Tayyib Ərdoğanın prezident seçkilərindən sonra Şimali Kipr Türk Respublikasının ardınca Azərbaycana dövlət səfəri bu qardaşlığın ən parlaq nümunəsidir. Bu, əsl qardaşlıq münasibətlərinin dünyaya nümayişi idi. Azərbaycan və Türkiyə prezidentləri həm təkbətək, həm də geniş tərkibdə görüşlərdə çağdaş dövrün əsas çağırışları ətrafında geniş fikir mübadiləsi apardılar, qarşıdakı hədəfləri göstərdilər. "Türkiyə–Azərbaycan birliyi, qardaşlığı beynəlxalq amildir, sabitlik, inkişaf və təhlükəsizlik amilidir. Prezident seçkilərində türk xalqının Sizə göstərdiyi inam bir daha Sizin uzun illər ərzində Türkiyə xalqına göstərdiyiniz xidmətlərə verilən yüksək qiymətdir", – söyləyən Prezident İlham Əliyev sözlərinə onu da əlavə etdi ki, Türkiyə və Azərbaycan xarici siyasət sahəsində bundan sonra da vahid mövqedən çıxış edəcəklər. Görüşlərdə dünyanın yeni düzəninə uyğun aparılan xarici siyasətdə birgə fəaliyyətin bölgə üçün böyük önəm daşıdığı vurğulandı. Həqiqətən də Cənubi Qafqazda tərəqqi, sabitlik və təhlükəsizlik baxımından Türkiyə–Azərbaycan birliyi amili bu gün əlahiddə əhəmiyyət kəsb edir.

### Ekspert rəyi



**Rasim MUSABƏYOV, Milli Məclisin deputatı, politoloq:**

– Bu sözü vaxtilə Heydər Əliyev demişdi, Bakıya səfərində Rəcəb Tayyib Ərdoğan da təkrarladı: biz bir millət – iki dövlətik. Bu yanaşma ilə artıq xeyli irəli getmişik. Həmin Şuşa Bəyannaməsi çərçivəsində biz həm siyasi, həm iqtisadi sahələrdə, eləcə də beynəlxaslq müstəvidə əməkdaşlığımızı, xüsusilə də, çox vacib sayılan hərbi müttəffiqlik fəaliyyətimizi möhkəmləndiririk. Ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 6 milyadr dollara yaxınlaşıb. Bunu cənab Prezident İlham Əliyev söyləmişdi. Azərbaycan yaxın iki il müddətində öz ordusunun Türkiyə standartlarlına keçidini tam təmin edəcək. Yəni, belə deyə biləcəyik: Bir millət, vahid ordu, əlaqələndirilmiş xarici siyasət və iki dövlət. Qardaş və müttəfiq dövlətlər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərini çox uğurlu hesab edirəm. Bu səfər Türkiyə–Azərbaycan cütlüyünün real geosiyasi amil olduğu barədə həm region ölkələrinə, həm də dünyaya ünvanlanan bir mesaj idi. Bu o deməkdir ki, bu amillə hamı hesablaşmalı olacaq. Ermənistan da, İran da, Rusiya da, ABŞ da, həmçinin Avropa İttifaqı da. Hesab edirəm ki, bu cür sıx müttəfiqlikdən həm Türkiyə, həm də Azərbaycan udur. Nəticədə bizim vahid qüvvəmiz daha da artacaq.

## Şuşada Türkiyə konsulluğu

44 günlük Qarabağ müharibəsində qazandığımız Zəfərdə Türkiyənin Azərbaycana göstərdiyi siyasi dəstəyin rolu ölçüyəgəlməzdir. Prezident Rəcəb Tayyib Ərdoğanın bu müharibədə Azərbaycana misilsiz şəxsi siyasi dəstəyi ölkəmizə dost olmayan kənar güclərin müdaxiləsini neytrallaşdırdı, haqqın-ədalətin öz yerini almasını təmin etdi. Müharibədən sonra imzalanan Şuşa Bəyannaməsi isə iki qardaş ölkə arasında hərbi-strateji müttəfiqliyi rəsmiləşdirdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 13-də Azərbaycan Prezidenti İlham Əliyev ilə keçirilmiş geniş tərkibdə görüşdə deyib: "Şuşada Baş konsulluğumuzu istədiyiniz vaxt açmağa hazırıq. İnşallah, Şuşadakı Baş konsulluğumuz açılsa, bu, təbii ki, başda Ermənistan olmaqla bütün dünyaya ayrı bir mesaj olacaq". Türkiyə liderinin Bakı səfərində verdiyi ən önəmli mesajlardan biri kimi Şuşada Baş konsulluğun açılacağı ilə bağlı dediklərini qeyd etmək doğru olar. Türkiyə Prezidentinin "Türkiyə–Azərbaycan qardaşlığı bütün dünyada qibtə ilə izlənilir. Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksəldilən əlaqələrimizi bütün sahələrdə inkişaf etdirməkdə qərarlıyıq",– sözləri isə beynəlxalq səhnədə vahid mövqeyi daha da möhkəmləndirməyə yönəlik çağırış idi. Yeri gəlmişkən, bu gün Şuşa Bəyannaməsinin imzalanmasının ikinci ildönümüdür. Bakı və Ankara iki il əvvəl olduğu kimi, bu gün də atdıqları, eləcə də gələcəkdə atacaqları addımlardan məmnundurlar. İndi Şuşa şəhərində iki qardaş dövlətin ay-ulduzlu bayraqlarının yanaşı dalğalanması birliyimizin nümayişidir.

## Sərhəd tanımayan dostluq

Artıq heç kəsə sirr deyil ki, Azərbaycan və Türkiyə liderləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətləri kontekstində iki ölkə arasında əlaqələr hər sahədə daha da güclənib. Bu amil dövlətlərarası münasibətlərin dərinləşməsinə, özünün pik səviyyəsinə çatmasına və yeni mərhələyə qadım qoymasına imkan verib.

Bir millətin iki dövlətinin qarşılıqlı əlaqələrinin spektri, münasibətlərinin özəlliyi və möhkəmliyi artıq sərhədləri aşıb. Bu birliyin yaratdığı qüdrət bütün maneələri aradan qaldırmağa qadirdir. Dünya durduqca ayağımızı basdığımız torpaq, başımızın üzərindəki səma bu birliyə şahidlik edəcək.

***İmran BƏDİRXANLI, "Xalq qəzeti"***

### Replika

**Azərbaycan Qarabağ problemini öz gücünə həll etməklə, həm BMT-nin məlum qətnamələrinin icrasına nail oldu, həm də ATƏT-in Minsk Qrupunun "uzunömürlü" nizamlayıcı missiyasını da yerinə yetirdi. Onların otuz ildə nizamlaya bilmədiyi, daha doğrusu, buna həvəs belə göstərmədiyi məsələyə beynəlxalq hüquq və suverenlik prinsipləri ilə nöqtəli nida qoydu.**

# Kasprşikin nostalji hissləri...

*Yaxud, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin erməni konyakına hədsiz aludəliyinin səbəbləri barədə*

İndi Azərbaycan postmünaqişə dövrünün sülh sazişi, sərhədlərin delimitasiyası və kommunikasiyaların açılması kimi problemlərin həlli üçün vasitəçilərlə əməkdaşlıq edir. Sülhyaratma missiyasının Moskva, Brüssel, Vaşinqton kimi aktorları mövcud istiqamətdə ciddi səylər göstərir və Bakı hələlik ikitərəfli, üçtərəfli və beştərəfli dialoqlardan konkret nəticə gözləyir. Bu prosesə maneçilik törətməyə çalışan əsas subyekt isə Fransa və onun diktəsilə hərəkət etdiyi görünən İrəvandır.

Məlum olur ki, Parisin "erməni canfəşanlığına" dəstək verməyə hazır olanlar da var. Belələrindən biri ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşikdir. 23 il Qarabağı su yoluna döndərən, münaqişənin həllinə 23 qram köməyi dəyməyən, 16 dəfə bu vəzifəyə təyinat alan Kasprşik yaxınlarda İrəvanda peyda olub. Erməni konyakı üçün qəribsəmiş polşalı diplomat burada rəsmilərlə görüşlər keçirib, Ermənistan



və Azərbaycan arasında kommunikasiya xətlərinin açılması məsələsini "müzakirə edib". Görəsən, heç bir sağlam siyasi məntiqə sığmayan bu səfər və görüşlərlə ATƏT nəyə nail olmaq istəyir? Ümumiyyətlə, Avropanın bu təsisatının indiki məqamda Azərbaycan və Ermənistan arasındakı sülh danışıqlarına nə aidiyyəti var? Əgər sülh danışıqları Avropa İttifaqının eqidası altında davam etdirilirsə, cənab Kaprşikin təmsil etdiyi qurum bu platformadan kənardadır. Bakı üçün isə artıq iki il yeddi aydır ATƏT-in "ölü doğulan" Minsk Qrupu adlı bir institut yoxdur. Özünü heç bir parametrinə görə doğrultmayan bu qurum Bakı üçün "de-fakto" və "de-yure" fəaliyyətini başa vurub. Moskva da rəsmi şəkildə bu qurumun fəaliyyətini dayandırdığını etiraf edib. Rəsmi Bakı isə həmsədrlik institutunun tarixin arxivinə göndərildiyini açıq bəyan edib. Bəs belədirsə, onda Kasprşikin İrəvanda nə işi var?

Bir vaxtlar ATƏT-in fəaliyyətdə olan keçmiş sədrinin keçmiş şəxsi nümayəndəsi Anjey Kasprşikin işi cəbhə bölgəsində Azərbaycan-Ermənistan sərhədində monitorinq aparmaq olub. 23 il bu postda "fəaliyyət" göstərən, elə bu vəzifədə də qocalan Kasprşiklə bağlı bir məlumatı nəzərinizə çatdıraq. İrəvanda, Xankəndidə super şəraitli ofis və qərargaha malik bu adamın işi yerli konyakın təsiri altında ermənipərəst bəyanatlar yaymaq olub. O, tez-tez Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycanın Qarabağ bölgəsinə səfərlər edir, separatçı rejimin başçıları ilə görüşürdü. Yəni, Kasprşikin əsas "diplomatik missiyası" əslində casusluq olub. Diqqəti çəkən başqa bir fakt isə Qarabağ məsələsini həll etməyən avropalı "çete"nin 23 il ərzində Kasprşikdən savayı heç kimi bu muissiyaya yaxın buraxmamasıdır. Ortaya təbii sual çıxır: ATƏT sədrinin şəxsi nümayəndəsi Qarabağ münaqişəsinin dinc yolla həlli istiqamətində hansı uğura imza atmışdı ki, onu əvəzləmək istəməyiblər? Elə o vaxt bu sərfəli "diplomatın" məqsəd və məramı bizim üçün aydın idi. O, bölgədə erməni-rus maraqlarını təmin etdiyinə görə "əvəzolunmaz" sayılırdı. Əgər 44 günlük müharibə olmasaydı, Kasprşik yəqin bu vəzifəsindən pensiyaya çıxacaqdı.

Şübhə yaradan missiyasına diqqət yetirən Azərbaycan Nazirlər Kabineti Kaşprşikin fəaliyyətini analiz edib. Məlum olub ki, polşalı diplomatın iyirmi ilə yaxın müddətdə hazırladığı 24 hesabatın hamısı Azərbaycanın əleyhinə, İrəvanın və Qarabağdakı separatçı rejimin xeyrinədir. Fakt da ortalıqdadır, "fəaliyyət" də.

Fikirləşəndə adamı sadəcə heyrət bürüyür ki, Bakının "persona non-qrata" elan etdiyi Anjey Kasprşik nə məqsədlə və hanslı üzlə bölgəyə gəlir? Onu bura dartıb gətirən səbəb yalnız erməni konyakıdırmı? Ola bilər. Bu yaşdakı adamın köhnə vərdişlərindən əl çəkməsi müşkül məsələdir...

***İ.HƏSƏNQALA, "Xalq qəzeti"***

# Azərbaycan XİN-dən Fransa XİN-ə cavab

**"Görünür, Fransanın xarici işlər nazirinin "blokada" ilə bağlı bəyanatında Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin hər iki istiqamətdə sərbəst gediş-gəlişinə məqsədyönlü şəkildə göz yumulur. Bu, tərəfsizliyə dair iddia ilə aşkar ziddiyyət təşkil edir", – deyə Ayxan Hacızadə Fransa xarici işlər naziri Katrin Kollonanın bəyanatına münasibət bildirib.**

Xatırladaq ki, Fransa xarici işlər naziri verdiyi bəyanatda Azərbaycanın Qarabağ regionundakı ermənilərin hər iki istiqamətdə sərbəst hərəkətinə məqsədyönlü şəkildə göz yumub.

# Ukraynadakı Zərifə Əliyeva adına liseyin direktoru Naxçıvanda

**Ukraynanın İrpend şəhərindəki akademik Zərifə Əliyeva adına Humanitar Xarici Dillər Liseyi nin direktoru Valentina Antonenko dünya şöhrətli oftalmoloqun anadan olmasının 100 illiyi münasibətilə Naxçıvanda səfərdə olub.**



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində keçirilən görüşdə Ali Məclis sədrinin müavini Anar İbrahimov qonağı salamlayıb, – Azərbaycan dostluq münasibətlərindən bəhs edib. O bildirib ki, İrpendə fəaliyyət göstərən Akademik Zərifə Əliyeva adına İrpen Humanitar Xarici Dillər Liseyi ölkələrimiz və xalqlarımız arasındakı dostluğun bariz nümunəsidir. Naxçıvanın Şahtaxtı kəndində dünyaya göz açan Zərifə xanımın xatirəsi xalqımız, eləcə də ukrynalılar üçün əzizdir.

Təhsil naziri Rəhman Məmmədov Zərifə xanım Əliyevanın adını daşıyan İrpen Humanitar Xarici Dillər Liseyi ilə Şahtaxtı kənd tam orta məktəbinin əlaqələrindən danışıb, bu əlaqələrin gələcəkdə də davam etdiriləcəyini söyləyib. Valentina Antonenko isə Azərbaycanın Ukraynaya humanitar yardımlarını xatırladaraq buna görə Azərbaycan rəhbərliyinə, xalqına minnətdarlığını bildirib. Sonra Valentina Antonenko Kəngərli rayonunun Şahtaxtı kəndində yerləşən akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbində olub. Alimin həyat və fəaliyyətini əks etdirən muzeylə tanışlıqdan sonra qonaq qeyd edib ki, 15 ildir ki, rəhbərlik etdiyi lisey akademik Zərifə Əliyevanın adını daşıyır.Burada alimin büstü qoyulub, həyat və fəaliyyətindən bəhs edən muzey yaradılıb. Hazırda liseyin yerləşdiyi küçə də akademik Zərifə xanımın adını daşıyır. Akademik Zərifə Əliyeva adına İrpen Humanitar Xarici Dillər Liseyində yeni tədris ilindən Azərbaycan dilində də dərs keçiləcək.

***"Xalq qəzeti"***

# Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikasında tikinti sahəsində biznes mühitinin əlverişliliyinin davamlı artırılması, şəhərsalma və tikinti inzibatçılığı prosedurlarının sadələşdirilməsi, tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi, eləcə də bu sahədə qanunvericiliyin tələblərinə riayət edilməsinə nəzarətin sərtləşdirilməsi və tikinti norma və qaydalarının pozulmasına görə məsuliyyətin gücləndirilməsi istiqamətində mühüm işlər görülmüşdür.

Tikinti sektorunda davamlı islahatların aparılması iqtisadiyyatın ayrı-ayrı sahələrində sahibkarlıq təşəbbüslərinin həyata keçirildiyi müxtəlif təyinatlı qeyri-yaşayış binalarının inşasına əlverişli şərait yaratmışdır.

Bununla belə, ölkədə ötən dövrdə tikinti fəaliyyəti subyektləri tərəfindən bəzi hallarda şəhərsalma və tikinti qanunvericiliyinin ayrı-ayrı tələblərinə tam riayət olunmadan qeyri-yaşayış təyinatlı binaların inşa edilməsi həmin tikililərin dayanıqlıq və möhkəmlik baxımından etibarlılığının qiymətləndirilməsini, üzərində mülkiyyət hüquqlarının tanınmasını və iqtisadi dövriyyəyə cəlbini çətinləşdirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin təhlükəsiz istismarının təmin edilməsi, tikinti sektorunun likvidliyinin artırılması, habelə vətəndaşların və sahibkarlıq subyektlərinin əmlak hüquqlarının tanınmasının səmərəli şəkildə təşkili məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. 2023-cü il iyunun 1-dək tikinti obyektinin inşası, yenidən qurulması, yenidən planlaşdırılması, bərpası, təmiri və digər tikinti fəaliyyəti nəticəsində yaradılmış bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış qeyri-yaşayış təyinatlı binaların (bundan sonra – qeyri-yaşayış binası) istismarına icazə verilməsi aşağıdakı qaydada həyata keçirilir:

1.1.1. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (bundan sonra – Nazirlik) qeyri-yaşayış binasının sifarişçisinin (sahibinin) 2025-ci il yanvarın 1-dək etdiyi və bu Fərmana əsasən aparılacaq yerquruluşu işlərinin, qeyri-yaşayış binasının müayinəsi, Tikintilərin Dövlət reyestrində uçota alınması, habelə istismarına icazə verilməsi üçün əsas hesab edilən müraciətin daxil olduğu tarixdən 1 (bir) iş günü müddətində qeyri-yaşayış binasının və onun yerləşdiyi torpaq sahəsinin döngə nöqtələrinin koordinatlarını və onlar arasındakı məsafələri, habelə qeyri-yaşayış binasının magistral boru kəmərlərinin, yüksəkgərginlikli elektrik şəbəkələrinin, nəqliyyat infrastrukturu obyektlərinin, suların və digər mühafizə zonalarında, neft və qaz yataqlarının işlənməsi üçün təsərrüfat subyektlərinin istifadəsində olan torpaq sahələrində, meşə fondu və xüsusi qorunan ərazilərin torpaqlarında yerləşib-yerləşmədiyini müəyyən etmək üçün həmin müraciəti və ona əlavə olunmuş sənədləri elektron qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə (bundan sonra – Xidmət) göndərir;

1.1.2. Xidmət bu Fərmanın 1.1.1-ci yarımbəndində göstərilən müraciətin daxil olduğu tarixdən 15 (on beş) iş günü müddətində dövlət torpaq kadastrının, daşınmaz əmlakın dövlət reyestrinin məlumatları və aparılacaq yerquruluşu işlərinin nəticələri əsasında qeyri-yaşayış binasının və onun yerləşdiyi torpaq sahəsinin döngə nöqtələrinin koordinatlarının və onlar arasındakı məsafələrin göstərildiyi, habelə torpaq sahəsinin kateqoriyası barədə, qeyri-yaşayış binasının magistral boru kəmərlərinin, yüksəkgərginlikli elektrik şəbəkələrinin, nəqliyyat infrastrukturu obyektlərinin, suların və digər mühafizə zonalarında, neft və qaz yataqlarının işlənməsi üçün təsərrüfat subyektlərinin istifadəsində olan torpaq sahələrində, meşə fondu və xüsusi qorunan ərazilərin torpaqlarında, yaşayış məntəqələrinin ümumi istifadədə olan torpaqlarında yerləşib-yerləşmədiyi, torpaq sahəsinin mülkiyyət növü, xüsusi mülkiyyətdə olduqda – mülkiyyətçisi, istifadədə və ya icarədə olduqda – müvafiq olaraq, istifadəçisi və ya icarəçisi barədə, qeyri-yaşayış binasının yerləşdiyi torpaq sahəsinin bu Fərmanın 1.4-cü bəndinə uyğun olaraq mülkiyyətə alınması və icarəyə götürülməsi zəruriliyi barədə məlumatın əks olunduğu planı (bundan sonra – plan) hazırlayıb, elektron qaydada Nazirliyə və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin (bundan sonra – Komitə) tabeliyindəki Ərazi Tikinti-Planlaşdırma Mərkəzinə (bundan sonra – Mərkəz), habelə qeyri-yaşayış binasının sifarişçisinə (sahibinə) göndərilməsini təmin edir;

1.1.3. Nazirlik:

1. daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarına əsasən, başqa fiziki və ya qeyri-dövlət hüquqi şəxsin mülkiyyətində, istifadəsində və ya icarəsində olan torpaq sahəsində yerləşən və barəsində müraciətə həmin torpaq sahəsi üzərində tikinti aparılmasına səlahiyyət verən icarə və ya istifadə hüququnu təsdiq edən sənədin surəti əlavə edilməyən qeyri-yaşayış binaları istisna olmaqla, bu Fərmanın 1.1.2-ci yarımbəndində göstərilən planın göndərildiyi, yaxud bu Fərmanın 1.9-cu bəndinə uyğun olaraq sifarişçinin yenidən müayinə aparılması üçün müraciət etdiyi tarixdən 15 (on beş) iş günü müddətində qeyri-yaşayış binasının döngə nöqtələrinin koordinatları daxil olmaqla faktiki vəziyyətini əks etdirən tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi, tikinti obyektinin yerüstü mərtəbələrinin sayı 1-dən, ümumi sahəsi 150 kvadratmetrdən çox olduqda isə, həmçinin mühəndis-axtarış işlərinə dair hesabatlar və konstruksiya bölməsi (bundan sonra – layihə) əsasında qeyri-yaşayış binasının yükdaşıyan konstruksiyalarının dayanıqlılıq, möhkəmlik baxımından istismara yararlılığı, yanğın təhlükəsizliyi tələblərinə cavab verməsi, qaldırıcı qurğuların və digər təhlükə potensiallı qurğu və konstruksiyaların istismara hazırlığı, aidiyyəti qurumlar tərəfindən mühəndis-kommunikasiya təminatı şəbəkəsinin istismara hazırlığına dair aktların təqdim edilməsi baxımından müayinə edir, müayinənin nəticəsinə dair istismara hazır olub-olmaması barədə rəyi (bundan sonra– rəy) tərtib edərək, həmin layihə və rəyi Xidmətin təqdim etdiyi planla birlikdə elektron qaydada Mərkəzə və Komitəyə və ya aidiyyəti yerli icra hakimiyyəti orqanına göndərir;

2. bu Fərmanın 1.1.3-cü yarımbəndinin 1-ci abzasına əsasən aparılmış müayinənin nəticələri mənfi olduqda, müayinə nəticəsində aşkarlanmış çatışmazlıqları və onların aradan qaldırılması üçün görülməli olan tədbirləri özündə əks etdirən rəyini onun tərtib edildiyi gündən 1 (bir) iş günü müddətində qeyri-yaşayış binasının sifarişçisinə (sahibinə) göndərir;

1.1.4. Mərkəz bu Fərmanın 1.1.3-cü yarımbəndinin 1-ci abzasına əsasən göndərilmiş layihəni və rəyi aldıqdan sonra 3 (üç) iş günü müddətində həmin sənədləri kameral şəraitdə təhlil edir və qeyri-yaşayış binası barədə məlumatları Tikintilərin Dövlət reyestrində uçota alınmaq üçün Komitəyə təqdim edir;

1.1.5. Komitə və ya aidiyyəti yerli icra hakimiyyəti orqanı:

1. 5 (beş) iş günü müddətində bu Fərmanın 1.1.3-cü yarımbəndinə uyğun olaraq aparılmış müayinənin nəticələrinə əsasən istismara hazırlığı barədə müsbət rəy verilmiş və Xidmətin təqdim etdiyi plana əsasən bu Fərmanın 1.1.1-ci yarımbəndində göstərilən torpaqlarda yerləşməyən və torpaq sahəsinin bu Fərmanın 1.4-cü bəndinə müvafiq olaraq mülkiyyətə alınması və icarəyə götürülməsi zərurəti olmayan qeyri-yaşayış binasının istismarına icazəni verir və bu barədə məlumatı Tikintilərin Dövlət reyestrinə daxil edilmək üçün göndərir;

2. 5 (beş) iş günü müddətində bu Fərmanın 1.1.3-cü yarımbəndinə uyğun olaraq aparılmış müayinənin nəticələrinə əsasən istismara hazırlığı barədə müsbət rəy verilmiş və Xidmətin təqdim etdiyi plana əsasən bu Fərmanın 1.1.1-ci yarımbəndində göstərilən torpaqlarda yerləşməyən, bu Fərmanın 1.7-ci və ya 1.8-ci bəndlərində göstərilən torpaqlarda tikilmiş, lakin torpaq sahəsinin bu Fərmanın 1.4-cü bəndinə müvafiq olaraq mülkiyyətə alınması və icarəyə götürülməsi zərurəti olan qeyri-yaşayış binasının yerləşdiyi torpaq sahəsi üzərində mülkiyyət və ya icarə hüquqlarını təsdiq edən sənədin təqdim ediləcəyi təqdirdə istismarına icazə veriləcəyi barədə bildirişi sifarişçiyə (sahibə) göndərir, Xidmətə və müvafiq bələdiyyəyə (torpaq sahəsi bələdiyyə mülkiyyətində olduqda) elektron qaydada ötürür;

3. bu Fərmanın 1.1.5-ci yarımbəndinin 2-ci abzasına uyğun olaraq istismarına icazə veriləcəyi barədə bildiriş göndərilmiş qeyri-yaşayış binasının yerləşdiyi torpaq sahəsi üzərində sifarişçinin (sahibin) mülkiyyət və ya icarə hüquqlarını təsdiq edən sənədin təqdim edildiyi gündən 2 (iki) iş günü müddətində həmin binanın istismarına icazəni verir və bu barədə məlumatı Tikintilərin Dövlət reyestrinə daxil edilmək üçün göndərir;

1.2. bu Fərmanın 1.1-ci bəndinə uyğun olaraq müraciət bu müraciəti edən şəxsin mülkiyyətində, istifadəsində və ya icarəsində olan torpaq sahəsində yerləşən qeyri-yaşayış binası ilə bağlı olduğu halda şəxs müraciətinə torpaq sahəsi üzərində hüquqmüəyyənedici sənədin surətini, müraciət başqa fiziki və ya qeyri-dövlət hüquqi şəxsin xüsusi mülkiyyətində, istifadəsində və ya icarəsində olan torpaq sahəsində yerləşən qeyri-yaşayış binası ilə bağlı olduqda isə müraciət edən şəxs müraciətinə torpaq sahəsi üzərində tikinti aparılmasına səlahiyyət verən icarə və ya istifadə hüququnu təsdiq edən sənədin surətini əlavə edir;

1.3. bu Fərmanın 1.1-ci bəndinə uyğun olaraq müraciət edən şəxs müraciətinə bu Fərmanın 1.1.3-cü yarımbəndinin 1-ci abzasında göstərilən layihəni əlavə edir;

1.4. dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaq sahəsində fiziki və ya qeyri-dövlət hüquqi şəxslər tərəfindən inşa edilmiş qeyri-yaşayış binasının bu Fərmana uyğun olaraq istismarına icazə aşağıdakı şərtlər yerinə yetirildikdə verilir:

1.4.1. dövlət mülkiyyətində olan torpaq sahəsində yerləşən qeyri-yaşayış binasına münasibətdə – onun yerləşdiyi torpaq sahəsi Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 19 dekabr tarixli 659 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, habelə hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi dövlət torpaq sahələrinin satılması qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq həmin şəxslərin öz mülahizələri ilə onların mülkiyyətinə satıldıqdan və ya icarəsinə verildikdən sonra;

1.4.2. bələdiyyə mülkiyyətində olan torpaq sahəsində yerləşən qeyri-yaşayış binasına münasibətdə – onun yerləşdiyi torpaq sahəsi "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada müvafiq bələdiyyə tərəfindən həmin şəxslərin öz mülahizələri ilə onların mülkiyyətinə satıldıqdan və ya icarəsinə verildikdən sonra;

1.5. bu Fərmanın 1.4-cü bəndində nəzərdə tutulmuş torpaq sahəsinin mülkiyyətə satılması və ya icarəyə verilməsi tələbi qeyri-yaşayış binasının "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə əsasən fiziki şəxslərin qanuni istifadəsində olan və əvəzsiz olaraq onların mülkiyyətinə verilən torpaq sahəsində yerləşdiyi hallara şamil edilmir;

1.6. bu Fərmanın məqsədləri üçün qeyri-yaşayış binasının yerləşdiyi və fiziki və ya qeyri-dövlət hüquqi şəxslərin mülkiyyətinə satılan və ya icarəsinə verilən torpaq sahəsinin ölçüləri torpağın ayrılması barədə və ya torpağa dair hüquqmüəyyənedici sənədlərdə göstərilən, yaxud tikinti layihəsində əks olunan tikinti ərazisinin hüdudları ilə müəyyən olunur. Belə sənədlər olmadığı hallarda fiziki və ya qeyri-dövlət hüquqi şəxslərin mülkiyyətinə satılan və ya icarəsinə verilən torpaq sahəsinin ölçüləri qeyri-yaşayış binasının tikinti sahəsindən az olmamaq şərtilə Xidmət tərəfindən müəyyən olunur;

1.7. yaşayış məntəqələrinin ümumi istifadədə olan torpaqlarında inşa edilmiş qeyri-yaşayış binasının Komitə və ya aidiyyəti yerli icra hakimiyyəti orqanı tərəfindən bu Fərmana əsasən istismarına icazə həmin qeyri-yaşayış binasının yerləşdiyi ərazinin məqsədli istifadəsinə və ahəngdar fəaliyyətinə maneə törətmədikdə verilir;

1.8. şəhər inzibati ərazi vahidlərinin inzibati ərazisinin hüdudlarından, habelə rayon inzibati ərazi vahidlərinin inzibati bölgüsünə daxil olan şəhər, qəsəbə və kənd ərazi vahidlərinin inzibati ərazisinin hüdudlarından kənarda kənd təsərrüfatı təyinatlı torpaqlarda yerləşən qeyri-yaşayış binalarının istismarına icazə həmin binanın yerləşdiyi torpaq sahəsinin qüvvədə olan ərazi planlaşdırılması sənədlərində, habelə hazırlanmaqda olan həmin sənədlərin layihələrində torpaqların zonalaşdırılmasında nəzərdə tutulmuş dəyişikliklər nəzərə alınmaqla verilir;

1.9. qeyri-yaşayış binasının sifarişçisi (sahibi) bu Fərmanın 1.1.3-cü yarımbəndinin 2-ci abzasına əsasən göndərilən rəydə göstərilmiş çatışmazlıqları aradan qaldırdıqda, bu Fərmanın 1.1.3-cü yarımbəndində nəzərdə tutulan müayinənin yenidən aparılması üçün Nazirliyə müraciət edə bilər.

**2.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyası bu Fərmanın icrasına nəzarəti təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Fərmanın 1.1.3-cü və 1.1.4-cü yarımbəndlərinə əsasən müayinə edilən və barəsində məlumatlar uçota alınmaq üçün təqdim olunan qeyri-yaşayış binalarının Tikintilərin Dövlət reyestrinə daxil edilməsi mexanizminin müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları"nın təkmilləşdirilməsini iki ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təmin etsin;

3.2. bu Fərmana uyğun olaraq tikinti obyektinin istismarına icazənin formasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində müəyyən etsin;

3.3. mərkəzləşdirilmiş kanalizasiya şəbəkələri olmayan ərazilərdə qeyri-yaşayış binalarından onların istismar təyinatı nəzərə alınmaqla axıdılan çirkab suların yığılacağı tikili və qurğulara dair tələblərin müəyyənləşdirilməsini bir ay müddətində təmin edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. bu Fərmanın 5.2-ci bəndində nəzərdə tutulmuş tapşırığın icrasını nəzarətdə saxlasın və Xidmətin qaldırdığı vəsatətə əlavə olunan yerquruluşu planında göstərilən koordinatlar daxilində istismarına icazə verilmiş qeyri-yaşayış binalarının yerləşdiyi torpaq sahələrinin kateqoriyasının dəyişdirilməsini vəsatət qaldırıldığı tarixdən 15 (on beş) gün müddətində təmin etsin;

3.5. bu Fərmanın 1.1-ci bəndində nəzərdə tutulan dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaq sahələrində yerləşən və 2026-cı il iyunun 1-dək istismarına icazə verilməmiş qeyri-yaşayış binalarının torpaq, şəhərsalma və tikinti qanunvericiliyinin tələbləri pozulmaqla inşasından irəli gələn nəticələrin aradan qaldırılması ilə bağlı həmin qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təşkil etsin;

3.6. bu Fərmanın icrası ilə bağlı görülən işlər barədə rübdə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.7. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Komitə və ya aidiyyəti yerli icra hakimiyyəti orqanları bu Fərmanın 1.1-ci bəndinə uyğun olaraq aşağıdakıları təmin etsinlər:

4.1. istismara icazə verildiyi gündən 3 (üç) iş günü müddətində həmin icazənin və qeyri-yaşayış binasının layihəsinin elektron nüsxəsinin Xidmətə və bu Fərmanın 6-cı hissəsinin birinci abzasında nəzərdə tutulan qurumlara göndərilməsini;

4.2. istismarına icazə verilmiş qeyri-yaşayış binalarının siyahısının rəsmi internet səhifələrində yerləşdirilməsini və icazə verildiyi gündən 3 (üç) iş günü müddətində bu barədə məlumatı həmin siyahıya daxil edərək onun mütəmadi yenilənməsini;

4.3. Nazirliyin və Xidmətin sorğusu əsasında qeyri-yaşayış binalarının müayinəsi və yerləşdiyi torpaq sahəsinin müəyyən olunması ilə bağlı mövcud tikinti sənədlərinin surətlərinin, habelə digər zəruri məlumatların 3 (üç) iş günü müddətində elektron formada təqdim olunmasını.

**5.** Xidmət:

5.1. bu Fərmanın 1.1-ci bəndinə uyğun olaraq istismarına icazə verilmiş qeyri-yaşayış binasının üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınmasını hüquq sahibinin müraciəti əsasında "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş müddətdə təmin etsin;

5.2. istismarına icazə verildiyi barədə məlumat daxil olduğu gündən 10 (on) iş günü müddətində, bu Fərman qüvvəyə minənədək və ya bu Fərmana uyğun olaraq istismarına icazə verilmiş qeyri-yaşayış binaları bu məqsəd üçün nəzərdə tutulmayan torpaq sahəsində inşa olunduğu hallarda həmin icazə əsasında qeyri-yaşayış binalarının yerləşdiyi torpaq sahələrinin kateqoriyasının dəyişdirilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında vəsatət qaldırılmasını təmin etsin;

5.3. bu Fərmanın 5.2-ci bəndində nəzərdə tutulan vəsatətə torpaq sahəsinin sərhədlərini və onların döngə nöqtələrinin koordinatlarını əks etdirən yerquruluşu planını əlavə etsin.

**6.** Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyindəki "Azərsu" Açıq Səhmdar Cəmiyyəti, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi bu Fərmanın 1.1-ci bəndinə uyğun olaraq:

6.1. Nazirliyin müraciəti əsasında 5 (beş) iş günü müddətində qeyri-yaşayış binalarının mühəndis-kommunikasiya sistemlərinin istismara hazırlıq baxımından müayinə olunmasını və nəticəsi barədə Nazirliyə məlumat verilməsini təmin etsinlər;

6.2. sifarişçinin (sahibin) müraciəti əsasında və onun vəsaiti hesabına istismarına icazə verildiyi gündən iki ay müddətində qeyri-yaşayış binalarının su, kanalizasiya sistemi, işıq və qazla təchiz edilməsini təmin etsinlər.

**7.** Bu Fərmanın 1.1.1-ci yarımbəndində nəzərdə tutulmuş mühafizə zonalarında və torpaq sahələrində, meşə fondu və xüsusi qorunan ərazilərin torpaqlarında yerləşən qeyri-yaşayış binalarının (tikilmiş və tikintisi başa çatmayan) inventarlaşdırılması aşağıdakı qaydada təmin edilsin:

7.1. mərkəzi icra hakimiyyəti orqanları və dövlətə məxsus hüquqi şəxslər Xidmətin sorğusu əsasında üç ay müddətində, bu Fərmanın 1.1.1-ci yarımbəndində nəzərdə tutulmuş mühafizə zonaları və torpaq sahələri, meşə fondu və xüsusi qorunan ərazilərin torpaqları barədə cari vəziyyətə uyğun məlumatları elektron qaydada Xidmətə təqdim etsinlər;

7.2. Xidmət 2026-cı il iyunun 1-dək bu Fərmanın 7.1-ci bəndində göstərilən məlumatlar əsasında bu Fərmanın 7-ci hissəsinin birinci abzasında nəzərdə tutulmuş qeyri-yaşayış binalarını (tikilmiş və tikintisi başa çatmayan) müəyyən edərək, onların inventarlaşdırılmasını, həmçinin invertarlaşdırmanın nəticəsi olaraq qeyri-yaşayış binaları barəsində formalaşan məlumatların Torpaqların elektron kadastr uçotu informasiya sisteminə və rəqəmsal kadastr xəritələrinə daxil edilməsini təmin etsin.

**8.** Nazirlik, Komitə, Xidmət və müvafiq yerli icra hakimiyyəti orqanları tikinti obyektlərinin istismarına icazə verilməsindən irəli gələn səlahiyyətlərin səmərəli və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi üçün bu Fərmanın icrası müddətində qarşılıqlı məlumat mübadiləsini təmin etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2023-cü il**

# Azərbaycan Respublikası Prezidentinin "Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2014-cü il 17 noyabr tarixli 349 nömrəli, "Tikinti işlərinin dayandırılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2015-ci il 22 may tarixli 533 nömrəli, "Tikinti obyektlərinin sökülməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2015-ci il 22 may tarixli 534 nömrəli və "Bəzi tikinti obyektlərinə tikintiyə icazə və tikinti obyektinin istismarına icazə verilməsinin sadələşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 28 dekabr tarixli 460 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 889-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 noyabr tarixli 349 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1389; 2016, № 11, maddə 1803; 2017, № 4, maddə 546; 2019, № 5, maddə 816; 2020, № 6, maddələr 684, 693) ilə təsdiq edilmiş "Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.2. Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi məqsədləri üçün tikintiyə icazə, xüsusi nişan verildikdə, habelə barəsində məlumatlandırma icraatı tətbiq edilən tikinti obyektlərinə münasibətdə tikinti işlərinin başlanması üçün Məcəllənin 80.4-cü maddəsində müəyyən olunmuş əsas yarandıqda, bu barədə, habelə müvafiq tikinti layihəsi, tikinti layihəsinin memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planı bölmələri barədə Agentliyə şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sistemi vasitəsilə real vaxt rejimində elektron qaydada məlumat verilməsi təmin edilir.";

1.2. 2.3-cü bənd ləğv edilsin;

1.3. 2.10-cu bənd aşağıdakı redaksiyada verilsin:

"2.10. Tikintiyə icazənin tələb olunmasına baxmayaraq, tikinti obyekti belə icazə alınmadan, habelə xüsusi nişanın tikinti işlərinin başlanması üçün əsas olduğu hallarda belə nişan alınmadan, barəsində məlumatlandırma icraatı tətbiq edilən tikinti obyekti isə tikinti işlərinin başlanması üçün Məcəllənin 80.4-cü maddəsində müəyyən olunmuş əsas olmadan tikildikdə, həmin tikinti obyektlərində tikinti-quraşdırma işlərinin dayandırılması barədə Agentlik Məcəllənin 92-ci maddəsində müəyyənləşdirilmiş qaydada qərar qəbul edir.";

1.4. 2.11.1-ci yarımbənddə "icazənin surəti" sözləri "icazə" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 533 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 539; 2017, № 4, maddə 547; 2018, № 7 (I kitab), maddə 1462, № 11, maddə 2240; 2019, № 5, maddə 825; 2021, № 1, maddə 36; 2023, № 3, maddə 377) ilə təsdiq edilmiş "Tikinti işlərinin dayandırılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1.2-ci və 3.1.2-ci yarımbəndlərə "obyektinin" sözündən sonra ", habelə bitişik və ya qonşu obyektlərin" sözləri əlavə edilsin;

2.2. 3.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.1. tikintiyə icazənin tələb olunmasına baxmayaraq, tikinti obyekti belə icazə alınmadan, habelə xüsusi nişanın tikinti işlərinin başlanması üçün əsas olduğu hallarda belə nişan alınmadan, barəsində məlumatlandırma icraatı tətbiq edilən tikinti obyekti isə tikinti işlərinin başlanması üçün Məcəllənin 80.4-cü maddəsində müəyyən olunmuş əsas olmadan tikildikdə;";

2.3. 3.1.4-cü yarımbənddə "1 (bir) il" sözləri "6 (altı) ay" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 534 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 540; 2017, № 4, maddə 548; 2018, № 11, maddə 2240; 2020, № 6, maddə 692) ilə təsdiq edilmiş "Tikinti obyektlərinin sökülməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1.2-ci yarımbəndə və 4.1-ci bəndə "alınmadan" sözündən sonra ", habelə xüsusi nişanın tikinti işlərinin başlanması üçün əsas olduğu hallarda belə nişan alınmadan, barəsində məlumatlandırma icraatı tətbiq edilən tikinti obyekti isə tikinti işlərinin başlanması üçün Məcəllənin 80.4-cü maddəsində müəyyən olunmuş əsas olmadan" sözləri əlavə olunsun, həmin yarımbənddə və bənddə "1 (bir) il" sözləri "6 (altı) ay" sözləri ilə əvəz edilsin;

3.2. 2.1.3-cü yarımbəndə "obyektinin" sözündən sonra ", habelə bitişik və ya qonşu obyektlərin" sözləri əlavə olunsun və həmin yarımbənddə "2 (iki)" sözləri "1 (bir)" sözləri ilə əvəz edilsin;

3.3. 2.1.4-cü və 2.1.5-ci yarımbəndlərdə "2 (iki)" sözləri "1 (bir)" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 460 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2617; 2019, № 10, maddə 1581; 2020, № 2, maddə 87, № 12, maddə 1405; 2022, № 8, maddə 846; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 2170 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Bəzi tikinti obyektlərinə tikintiyə icazə və tikinti obyektinin istismarına icazə verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. aşağıdakı məzmunda 1.7-ci bənd əlavə edilsin:

"1.7. Bu Qaydada tikintiyə və tikinti obyektinin istismarına icazə icraatları üzrə müəyyən edilən hərəkətlər şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.";

4.2. 2-ci hissə üzrə:

4.2.1. 2.2-ci bəndə "uyğun" sözündən sonra "elektron qaydada" sözləri əlavə edilsin;

4.2.2. 2.5-ci bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Hazırlanmış tikinti layihəsi "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq rəsmiləşdirilir.";

4.3. 3-cü hissə üzrə:

4.3.1. 3.1-ci bəndin birinci cümləsindən "və ya yazılı" sözləri çıxarılsın;

4.3.2. 3.2.1-ci yarımbənddə "sənədin surəti" sözləri "sənəd" sözü ilə əvəz edilsin;

4.3.3. 3.2.2-ci yarımbənddən "kağız (yazılı qaydada müraciət etdikdə) və elektron formada (hər biri 1 nüsxədə)" sözləri çıxarılsın;

4.3.4. 3.2.3-cü yarımbənddə "çıxarışın surəti" sözləri "çıxarış" sözü ilə və "sənədin surəti" sözləri "sənəd" sözü ilə əvəz edilsin;

4.3.5. 3.3-cü bəndin birinci cümləsindən "təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə" sözləri çıxarılsın;

4.3.6. 3.5.2-ci yarımbənddə "ASAN Kommunal" və ya "ASAN xidmət" mərkəzlərinə, yaxud kiçik və orta biznes evlərinə (bundan sonra – KOB evləri)" sözləri "həmin müəssisələrə" sözləri ilə əvəz edilsin;

4.3.7. 3.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.7. Təchizat müəssisələri bu Qaydanın 3.5.2-ci yarımbəndinə uyğun olaraq, onlara müraciətin daxil olduğu gündən 10 (on) gün müddətində mühəndis-kommunikasiya təminatı ilə bağlı texniki şərtləri tikintiyə icazə verən orqana elektron qaydada təqdim olunmasını təmin etməlidir.";

4.3.8. 3.8-ci bənddə "verilməsi" sözü "verir" sözü ilə əvəz edilsin;

4.3.9. 3.9-cu bəndin birinci cümləsindən "kağız və ya" sözləri çıxarılsın, həmin cümlədə "icazənin surətini, habelə tikinti layihəsinin bir nüsxəsini" sözləri "tikintiyə icazəni və tikinti layihəsini" sözləri ilə əvəz edilsin və həmin bəndin dördüncü cümləsi çıxarılsın;

4.4. 5.5-ci bəndin ikinci cümləsinə "sifarişçiyə" sözündən əvvəl "elektron qaydada" sözləri əlavə edilsin;

4.5. 6.4-cü bəndin birinci cümləsində ikinci halda "verilməsi" sözü "verir" sözü ilə, ikinci cümləsində "verilir və icazə verən orqanın məsul şəxsi onu imzalayır və möhürlə təsdiqləyir" sözləri "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq rəsmiləşdirilir" sözləri ilə əvəz edilsin;

4.6. 7.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"7.1. Yeni tikinti obyektinin inşasını (o cümlədən mövcud tikinti obyekti sökülərək yeni binanın inşasını) nəzərdə tutan tikintiyə icazənin verildiyi gün bu icazəni vermiş orqan obyektin tikintisinə icazəni, tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsini və tikinti obyektinin sifarişçisi barədə məlumatları, tikintisinə icazə tələb olunan tikinti obyektinin istismarına icazə verildiyi gün isə tikinti obyektinin istismarına icazəni daşınmaz əmlakın dövlət reyestrini aparan orqana elektron formada göndərir.".

**5.** Bu Fərmanın 1.1-ci, 1.2-ci, 1.4-cü bəndləri və 4-cü hissəsi (bu Fərmanın 4.3.5-ci yarımbəndi istisna olmaqla) 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2023-cü il**

## “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 889-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 889-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 82-ci, 92-2.1-ci (hər iki halda), 92-2.2-ci maddələrində, 92-2.3-cü maddəsinin birinci (hər üç halda) və ikinci (hər iki halda) cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 82-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 92-2.1-ci (birinci halda) maddəsində, 92-2.3-cü maddəsinin birinci (ikinci və üçüncü hallarda) və ikinci (birinci halda) cümlələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 92-2.1-ci (ikinci halda), 92-2.2-ci maddələrində, 92-2.3-cü maddəsinin birinci (birinci halda) və ikinci (ikinci halda) cümlələrində “orqan (qurum)” dedikdə yerli icra hakimiyyəti orqanları və Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi (sərəncamına verilmiş torpaq sahəsində Agentliyin sərəncamında olduğu müddətdə həyata keçirilən tikinti niyyətlərinə münasibətdə) nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 16.2-ci maddəsində nəzərdə tutulmuş şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sistemində tikinti obyektlərinin tikintisinə və istismarına icazə, habelə məlumatlandırma icraatlarının həyata keçirilməsini təmin edən “Elektron Tikinti Portalı” (bundan sonra – Portal) altsistemi yaradılsın.

**3.** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi:

3.1. Portalın formalaşdırılmasını 2023-cü il noyabrın 1-dək təmin etsin;

3.2. aidiyyəti dövlət orqanlarının (qurumlarının) Portala çıxışını təmin etsin;

3.3. Portala daxil ediləcək məlumatların, o cümlədən dövlət sirrinin və qanunla qorunan digər məlumatların mühafizəsinin təmin olunması üçün Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə zəruri tədbirlər görsün;

3.4. bu Fərmandan irəli gələn digər zəruri tədbirlər görsün.

**4.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”na uyğun olaraq Portalın aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələbləri nəzərə alınmaqla, Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 16.2-ci maddəsinə uyğun olaraq şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin təşkili və fəaliyyəti qaydası, eləcə də sistemə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və işlənilməsi qaydalarının layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 889-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**6.** “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 847; 2014, № 10, maddə 1196; 2015, № 3, maddə 270, № 5, maddə 531, № 9, maddə 1006; 2016, № 6, maddə 1059, № 11, maddə 1824; 2017, № 1, maddə 40, № 5, maddə 825, № 11, maddə 2012; 2018, № 3, maddə 417, № 5, maddə 910, № 8, maddə 1676, № 11, maddə 2289, № 12 (I kitab), maddə 2616; 2019, № 3, maddə 434, № 5, maddə 826, № 10, maddə 1581; 2020, № 5, maddə 559, № 6, maddə 684, № 7, maddə 891, № 11, maddə 1341; 2021, № 8, maddə 915, № 12, maddə 1402; 2022, № 3, maddə 219, № 6, maddə 752; 2023, № 3, maddə 377) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.6.2-ci yarımbənd ləğv edilsin;

6.2. 4.1-ci bənd üzrə:

6.2.1. “20.4-cü” sözlərindən əvvəl “16.2-ci maddəsində,” sözləri əlavə edilsin və “92-1.2-ci (hər üç halda) maddələrində” sözləri “92-1.2-ci (hər üç halda), 92-2.1-ci (hər iki halda), 92-2.2-ci maddələrində, 92-2.3-cü maddəsinin birinci (hər üç halda) və ikinci (hər iki halda) cümlələrində” sözləri ilə əvəz edilsin;

6.2.2. “80.6-cı maddəsinin birinci cümləsində (ikinci halda),” və “84.1-ci maddəsinin ikinci cümləsində (ikinci halda),” sözləri çıxarılsın və “82.1-ci (ikinci halda), 82.2-ci (ikinci halda)” sözləri “82-ci” sözləri ilə əvəz edilsin;

6.3. 4.2-ci bənd üzrə:

6.3.1. “16.2-ci maddəsində,” sözləri çıxarılsın;

6.3.2. “83.0.5-ci, 83.0.6-cı” sözləri “83.1.5-ci, 83.1.6-cı” sözləri ilə əvəz edilsin;

6.4. 4.7-ci bənddə “80.6-cı maddəsinin birinci cümləsində (birinci halda), 82.2-ci (birinci halda), 89.2-ci (birinci halda) maddələrində” sözləri “89.2-ci (birinci halda) maddəsində” sözləri ilə əvəz edilsin;

6.5. 4.7-1-ci bənddən “maddəsində, 75.14-cü maddəsinin birinci cümləsində” və “, 82.1-ci (birinci halda)” sözləri çıxarılsın;

6.6. 4.7-3-cü bənddən “75.14-cü maddəsinin birinci cümləsində,” və “80.6-cı maddəsinin birinci cümləsində, 82.1-ci və 82.2-ci maddələrində,” sözləri çıxarılsın;

6.7. 4.10-cu bənddən “82.1-ci (üçüncü halda), 82.2-ci (üçüncü halda),” sözləri çıxarılsın;

6.8. 4.20-ci bənd aşağıdakı redaksiyada verilsin:

“4.20. həmin Məcəllənin 82-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;”;

6.9. aşağıdakı məzmunda 4.21-ci və 4.22-ci bəndlər əlavə edilsin:

“4.21. həmin Məcəllənin 92-2.1-ci (birinci halda) maddəsində, 92-2.3-cü maddəsinin birinci (ikinci və üçüncü hallarda) və ikinci (birinci halda) cümlələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi nəzərdə tutulur;

4.22. həmin Məcəllənin 92-2.1-ci (ikinci halda), 92-2.2-ci maddələrində, 92-2.3-cü maddəsinin birinci (birinci halda) və ikinci (ikinci halda) cümlələrində “orqan (qurum)” dedikdə yerli icra hakimiyyəti orqanları və Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi (sərəncamına verilmiş torpaq sahəsində bu qurumun sərəncamında olduğu müddətdə həyata keçirilən tikinti niyyətlərinə münasibətdə) nəzərdə tutulur.”.

**7.** Bu Fərmanın 1.1-ci (82-ci maddəyə münasibətdə), 1.2-ci bəndləri, 6.2.2-ci, 6.3.2-ci yarımbəndləri və 6.4 – 6.8-ci bəndləri 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2023-cü il**

## “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 887-VIQD nömrəli Qanununun tətbiqi və “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 887-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 8.0.10-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 8.0.10-1-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 887-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 621; 2005, № 2, maddə 64, № 8, maddə 718; 2006, № 7, maddə 590; 2007, № 6, maddə 606; 2010, № 4, maddə 287, № 7, maddə 610; 2011, № 11, maddə 998; 2013, № 9, maddə 1052, № 12, maddə 1509; 2014, № 2, maddə 108, № 4, maddə 361, № 6, maddə 632; 2015, № 7, maddə 827, № 9, maddə 1016; 2016, № 11, maddə 1825; 2017, № 3, maddə 348; 2018, № 2, maddələr 202, 203; 2020, № 7, maddə 891, № 12 (I kitab), maddə 1477; 2022, № 8, maddə 852; 2023, № 1, maddələr 72, 77) 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.2.3-cü yarımbəndə “7.2-ci” sözlərindən sonra “, 8.0.10-1-ci” sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 4.2.3-1-ci yarımbənd əlavə edilsin:

“4.2.3-1. həmin Qanunun 8.0.10-1-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2023-cü il**

## “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 905-VIQD nömrəli Qanununun tətbiqi və “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 183 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 905-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki, “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikası Qanununun 6.2.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 905-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 183 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 17; 2006, № 7, maddə 593; 2014, № 3, maddə 248; 2015, № 7, maddə 828; 2015, № 9, maddə 1010; 2017, № 6, maddə 1093) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddən “6.2.3-cü, 6.4-cü (birinci halda),” sözləri çıxarılsın;

3.2. 2.2-ci bənddə “6.2.1-ci, 6.2.10-cu, 6.3-cü, 6.4.cü (ikinci halda), 13.3-cü, 14.1-ci” sözləri “6.2.6-cı, 13.3-cü” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”də və 2014-cü il 24 noyabr tarixli 375 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi Qaydaları”nda dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 889-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017, № 12 (I kitab), maddələr 2538, 2596; 2019, № 3, maddə 406, № 4, maddə 655, № 5, maddələr 820, 826, 848, 852, 857, № 6, maddə 1037, № 12, maddə 1936; 2020, № 1, maddə 7, № 8, maddə 1039, № 10, maddə 1247; 2021, № 1, maddələr 16, 36, № 6 ( I kitab), maddə 567, № 11, maddə 1211, № 12, maddə 1367; 2022, № 1, maddə 29, № 4, maddələr 302, 323, № 5, maddə 475, № 6, maddə 594, № 8, maddə 874, № 10, maddə 1142, № 12, maddələr 1411, 1428, 1441; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 10 aprel tarixli 2095 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.11.5-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.11.5. yerli səviyyədə dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi ilə bağlı aşağıdakı halları aşkar etdikdə tikinti işlərinin dayandırılmasını sifarişçiyə (podratçıya) yazılı qaydada tövsiyə edir, tikinti işlərinin dayandırılması üçün Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyini məlumatlandırır və bu barədə bütün məlumatları Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə göndərir:

1. ərazi planlaşdırılması sənədlərinin tələblərinə əməl olunmamasını;

2. özbaşına tikinti işlərinin qarşısının alınmamasını;

3. tikintiyə icazənin tələb olunmasına baxmayaraq, tikinti obyektinin belə icazə alınmadan tikildiyini;

4. habelə barəsində məlumatlandırma icraatı tətbiq edilən, lakin Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 80.4-cü maddəsinə uyğun olaraq tikinti işlərinin başlanmasına əsas olmadan tikinti obyektinin tikildiyini;

5. tikinti məqsədləri üçün ayrılmamış dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaq sahəsində tikinti fəaliyyətinin həyata keçirildiyini;”;

1.2. aşağıdakı məzmunda 3.11.5-2-ci yarımbənd və 4.17-1-ci bənd əlavə edilsin:

“3.11.5-2. şəhərlərdə, şəhər rayonlarında yerli səviyyədə dövlət şəhərsalma nəzarətini həyata keçirir, o cümlədən özbaşına tikinti işlərinin qarşısının alınması məqsədilə inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə ərazi nəzarət bölgüsünü aparır, həmin nəzarət bölgüsü üzrə icra hakimiyyətinin işçilərindən məsul şəxsləri təyin edir, onların əlaqə nömrələrinin və elektron poçt ünvanlarının icra hakimiyyətinin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin edir.”;

“4.17-1 Rayon bölgüsü olan şəhərlərin icra hakimiyyəti başçılarına aid edilməyən vəzifə və səlahiyyətlər:

4.17-1.1. Bu Əsasnamənin 3.11.5-2-ci yarımbəndində nəzərdə tutulmuş vəzifə rayon bölgüsü olan şəhərlərin icra hakimiyyəti başçılarına aid edilmir.”.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 noyabr tarixli 375 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1415; 2017, № 11, maddə 2018; 2018, № 2, maddə 218; 2020, № 6, maddə 692) ilə təsdiq edilmiş “Dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.2-ci bəndə “reyestrinə” sözündən sonra “elektron qaydada” sözləri əlavə edilsin;

2.2. 4.3-cü bəndə “orqanları” sözündən sonra “ərazi planlaşdırılması sənədlərinin tələblərinə əməl olunmamasını, özbaşına tikinti işlərinin qarşısının alınmamasını,” sözləri əlavə edilsin və həmin bənddə “Nazirliyinə bir iş günü müddətində yazılı məlumat verməlidir” sözləri “Nazirliyini 1 (bir) iş günü müddətində elektron qaydada məlumatlandırır və bu barədə bütün məlumatları elektron qaydada Komitəyə və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə göndərir” sözləri ilə əvəz edilsin;

2.3. 5.1.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“5.1.3. inşa edilən tikinti obyektinin şəhərsalma sənədlərinə (qüvvədə olan müfəssəl plana, belə plan olmadıqda və ya onun müddəti bitdikdə, tikintiyə icazə verilməsinin mümkünlüyünün Məcəllənin 11-ci maddəsinə, o cümlədən ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalara və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərinə) uyğunsuzluğu ilə bağlı aşkar olunmuş pozuntular barədə akt tərtib etmək, yerli icra hakimiyyəti orqanlarının və bələdiyyələrin memarlıq bölmələrinə və Agentliyə, yerinə yetirilmə müddəti göstərilməklə, bu Qaydanın 1 nömrəli əlavəsinə uyğun olaraq icrası məcburi olan əsaslandırılmış göstəriş vermək;”.

**3.** Bu Fərmanın 2.1-ci və 2.2-ci (məlumatların elektron qaydada verilməsinə münasibətdə) bəndləri 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2023-cü il**

## “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 885-VIQD nömrəli Qanununun tətbiqi və “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 9 avqust tarixli 548 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 885-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 9.1-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 885-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 9 avqust tarixli 548 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 524; 2016, № 2, maddə 251; 2019, № 5, maddə 843; 2023, № 1, maddə 69) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci – dördüncü abzaslar müvafiq olaraq 2.3 – 2.5-ci bəndlər hesab olunsun və həmin hissəyə aşağıdakı məzmunda 2.1-ci və 2.2-ci bəndlər əlavə edilsin:

“2.1. “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 9.1-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;”;

3.2. 2.3-cü bənddə “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun” sözləri “həmin Qanunun” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2023-cü il**

# 93-ün iyunu Gəncənin yaddaşında xilaskarlıq kimi qalıb...

**Elə günlər, aylar var ki, zaman keçdikcə əlçatmaz, sanki nağıllarda olduğu kimi acılı-şirinli, xatirələrin ən kövrək, ən duyğulu, heç vaxt unudulmayan bir küncündə özünə əbədi yer eləyir. Sanki nəyisə olduğu kimi yada salmasan, nədəsə səhv etsən, hadisələrə bayağı don geyindirsən, böyük günah işlətmiş olarsan və tarix, xalq səni heç vaxt bağışlamaz.**



1993-cü ilin iyun hadisələri bu baxımdan Gəncənin və gəncəlilərin yaddaşında xilaskarlıq ayı kimi qalıb. Təkcə ona görə yox ki, Ulu öndər Gəncəni və bütöv Azərbaycanı gəlişi ilə xilas etdi, o, həm də bütün çətinliklərə, sui-qəsd cəhdlərinə, təzyiqlərə baxmayaraq, canından artıq sevdiyi ölkəsinin çiçəklənməsinə nail oldu...

**"İyunun 13-də mən Gəncəyə gəldim. Biz birbaşa qonaq evinə gəldik. Qonaq evini dörd tərəfdən mühasirəyə almış Surət Hüseynovun ordu hissələri bizi içəri buraxdılar, amma eşiyə buraxmırdılar. Biz ora da gecə səhərə qədər danışıqlar apardıq. İndi olan-olub, keçən-keçib, danışmalıyam. Arxamda Surətin avtomatı kürəyimə tutmuş iki banditi dayanmışdı. Yəni mən danışıq aparırdım, onlar da mənim arxamda dayanmışdılar, avtomatı da mənim kürəyimə dirəmişdilər. İndi görün, mən hansı bir şəraitdə danışıq aparmışam. Onlar avtomatı hər dəqiqə hərəkətə gətirə bilərdilər və mən həmin gecə məhv ola bilərdim."**

Ulu öndərin aradan bir neçə il keçdikdən sonra Gəncədə sakinlərlə görüşdə ilk dəfə dediyi sözlərdir bunlar və onun arxasında dahi bir şəxsiyyətin həyatının dayanmasını yada salanda, adamı dəhşət bürüyür.

Gəncədə iyunun 4-dən başlanan təlatüm, daha dəqiq və baş verən hadisələri düzgün təhlil etsək və obyektiv qiymət versək, vətəndaş müharibəsi, iyunun 15-dək davam edirdi.

Bəli, vətəndaş müharibəsi artıq başlanmışdı və yaranmış real vəziyyət onu başqa cür adlandırmağa, "vətəndaş müharibəsi ərəfəsində" cümləsi işlətməyə heç bir əsas vermirdi.

**Bir haşiyə.** Surət Hüseynovun adamları cılız, lakin iddialı hökumətin güc strukturlarının rəhbərlərini həbs edib zirzəmiyə salmışdılar. Yeri gəlmişkən, qeyd edim ki, bu sətirlərin müəllifi də digər jurnalistlərlə birlikdə iyunun 6-da hərbi hissədə İmam Mustafayevin rəhbərlik etdiyi komissiyanın yolunu gözləyirdi. Qonaqların bir qədər ləngiməsini görüb xahiş etdik ki, bizi aşağıda zirzəmidə saxlananların yanına buraxsınlar, beş-on dəqiqə söhbət edək, şəraitləri ilə tanış olaq. Eldar Əliyev adlı bir polkovnik vardı. Nə fikirləşdisə, "gəlin, amma heç birinə yaxınlaşmayacaqsınız və heç nə soruşmayacaqsınız" deyib qabağa düşdü və biz də onun arxasınca.

Gördüyümüz mənzərə bizi dəhşətə gətirdi. Yarıqaranlıq zirzəmidə üz-gözlərini tük basmış, vahimə içərisində olan bu güc strukturlarının nümayəndələri bizə elə yazıq-yazıq baxırdılar ki, sanki xilaskarları biz idik. Qırıq-sökük stolların üstündəki çay stəkanları saralmışdı, dəmir çaynikin rəngi nə rəngə çalırdı, bilmək olmurdu. Ölkənin Baş prokuroru İxtiyar Şirinov, Milli Təhlükəsizlik nazirinin birinci müavini Sülhəddin Əkbərov və bir çox başqaları qorxu-ürkü içində idilər. Eldar Əliyevin bir anlıq bayıra çıxması jurnalistlərin dərhal hərəkətə keçməsinə şərait yaratdı, diktafonlar işə salındı, sual-cavab başlandı. İxtiyar Şirinov deyirdi ki, buradan çıxan kimi Əbülfəz Elçibəyə cinayət işi açacağam. (o, doğrudan, ertəsi gün belə bir məktub yazmışdı-H.Q.) Sülhəddin Əkbərov izah edirdi ki, "böyük səhv etmişik, qardaş qırğınına rəvac vermişik". Bir başqası başqa bir söz deyirdi. Birdən polkovnik içəri daxil oldu. Onların danışdıqlarını və diktafonları gördü. Dedi ki, təcili kasetləri çıxarın və verin mənə. Kimsə etiraz edəndə yanındakı əli avtomatlı əsgərlərə işarə etdi. Ər-arvad iki türk jurnalisti var idi. Qadının əlindən güclə diktafonu almaq istədikdə o, qışqıraraq onların gözü qarşısında kaseti ayaqlarının altına salıb qırıq-qırıq elədi. Yalnız ondan sonra bizi zirzəmidən buraxdılar. Bayıra çıxanda qadın gülərək əlindəki kaseti göstərib "qırdığım boş kaset idi, yazdıqlarım bax burdadır" deyib sanki öz peşəkarlığını bizə nümayiş etdirdi.

...İyunun 13-ü, 14-ü və 15-i Gəncənin həyatında Böyük qayıdışın silinməz izlər buraxdığı günlərdir. Gəncə sakinlərinin sevinc göz yaşları içərisində öz xilaskarını necə qarşılamasını ötən yazılarımızda qeyd etmişdik. İyunun 15-də gəncəlilər bir qədər də sakitləşdilər, xilaskarlıq missiyasını sonadək, şərəflə, inamla apara biləcək o böyük şəxsiyyətin yalnız Heydər Əliyev olacağına inandılar.

...Heydər Əliyevi Gəncəsiz, Gəncəni Heydər Əliyevsiz təsəvvür etmək mümkün deyil. **"Gəncə sizin üçün sevimli bir şəhər olduğu kimi, mənim üçün də sevimli bir şəhərdir. Çünki Gəncə böyük mədəniyyət mərkəzidir və Azərbaycan mədəniyyətinin qədim tarixini dünyaya nümayiş etdirən bir şəhərdir."** Ulu öndərin dediyi sözlərdir. Heydər Əliyev bu qədim şəhərin mədəniyyəti, təhsili, incəsənəti, iqtisadiyyatı və digər sahələri üçün o qədər işlər görüb ki, təkcə adlarını sadalamaqla böyük bir qəzet yazısı çıxar.

**Nüsrət Hüseynov, ADAU-nun dosenti, qabaqcıl təhsil işçisi:** – Heydər Əliyev qədim təhsil və elm ocağı olan indiki ADAU-ya daim böyük diqqət göstərirdi. Təsadüfi deyil ki, bizim ali məktəbə "Şərəf nişanı" ordenini də şəxsən özü təqdim etməyə gəlmişdi. Bir qrup əməkdaşımız fəxri adlara və dövlət mükafatlarına layiq görülmüşdü.

Yadımdadır, yubiley şənliklərinə ciddi hazırlıq işləri aparırdıq. 1980-ci il dekabrın 16-da Gəncədəki keçmiş "Bakı" kinoteatrının böyük salonunda Moskvadan, Gürcüstandan, Dağıstandan və digər yerlərdən gələn yüksək səviyyəli qonaqların iştirakı ilə yubileyə həsr olunmuş təntənəli yığıncaq keçirildi. Burada Ulu Öndər ali təhsil ocağımızın yarıməsrlik fəaliyyəti barədə geniş nitq söylədi. Xüsusi olaraq vurğuladı ki, "Azərbaycan Kənd Təsərrüfatı İnstitutu nəinki yüksəkixtisaslı kadrlar hazırlamalı, həm də respublikada kənd təsərrüfatını daha da inkişaf etdirmək sahəsində elmi tədqiqatların mühüm mərkəzi olmalıdır!". Sonra isə "Şərəf nişanı" ordenini təntənəli şəkildə institutun bayrağına sancdı.

İndi bu tarixi hadisəni həmin yubileydə iştirak etmiş əməkdaşlarımız məmnunluqla xatırlayırlar. Heydər Əliyevin tövsiyəsi və tapşırığı ilə hələ 1979-cu ilin mart ayında Gəncədə yaradılmış "Xatirə parkı"nın AKTİ-yə (ADAU) ayrılmış sahəsində yubiley günü ona əkmək üçün şam ağacı gətirdilər. Ulu öndər ağacı kənara qoyaraq "Mənə çinar verin, mən Gəncədə çinar əkəcəyəm" dedi. Bu gün Ulu öndərin əkdiyi həmin çinarın "Heydər Əliyev park kompleksi"ndə xüsusi yeri var. Dünən yenidən gedib həmin çinara baxdım, o günləri xatırladım. Qollu-budaqlı nəhəng bir bir ağacdır, kölgəsində ən azı 100 nəfər eyni vaxtda dincələ bilər.

…Ulu öndər Gəncədə 14 dəfə olub. İstər Azərbaycan Kommunust Partiyası Mərkəzi Komitəsinin birinci katibi, istərsə də Azərbaycan Prezidenti kimi dəfələrlə müxtəlif xarakterli obyektlərin açılışlarında iştirak edib, özünün təşəbbüsü ilə təməlini qoyduğu sənayə, mədəniyyət, elm, təhsil, idman və digər qurğuların gəncəlilərin istifadəsinə verilməsinə nail olub, Gəncənin tarixinin yaşadılmasında, Nizami irsinin qorunub saxlanmasında və digər mühüm işlərin həyata keçirilməsində misilsiz xidmətləri olub.

Gəncədə uşaqdan böyüyə, kimi dindirsən, ulu öndərin adını şəkəcək, onun qurub yaratdığı obyektlərin adlarını da sadalalayacaq.

**Həmid Nəsirov, Gəncə Şəhər Gənclər və idman İdarəsinin rəisi:** – İndicə Gəncədə ilk dəfə təşkil olunan basketbol idman növü üzrə region liqasına yekun vurduq. Şəhər Gənclər və İdman Baş İdarəsinin, Azərbaycan Texnologiya Universtetinin və Telekom Basketbol İdman Klubunun birgə təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində regionda ilk dəfə olaraq Gəncə basketbol liqası keçirilirdi.

Biz hər dəfə bu idman qurğusunda tədbir, hansısa bir yarış keçirəndə mütləq Ulu öndəri xatırlayır, onu yad edirik. Olimpiya idman kompleksi ümummilli liderin adı ilə bağlıdır. Onun açılışında da milli liderimiz özü şəxsən iştirak edib. Biz gənclər fəxr edirik ki, 30 il qabaq özünün həyatını təhlükə altına atıb Azərbaycana qayıdan və xalqı bəlalardan xilas edən dahi şəxsiyyətin qurub yaratdığı obyektlərdən istifadə edirik, onu fəxrlə qonaqlarımıza göstəririk. Bir də ona görə fərəh hissi keçiririk ki, Ulu öndərin layiqli davamçısı İlham Əliyev kimi prezidentimiz var. Hazırda Gəncədə 20-25 il qabaq olduğu kimi, yenə də müxtəlif təyinatlı binalar ucaldılır, parklar salınır, yollar çəkilir. Tezliklə Gəncədə nəhəng İdman sarayı da istifadəyə veriləcək.

…15 iyun günündə hamının üzü gülür. Bu gülüş hisslərini 30 il qabaq bizə bəxş etmiş dahi şəxsiyyət Heydər Əliyev olub. Onu unutmaq sadəcə mümkün deyil. İllər, aylar keçəcək, nəsilləri nəsillər əvəzləyəcək, amma Heydər Əliyevin xalqı xilas etmək üçün gördüyü işlər dönə-dönə xatırlanacaq.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

**Gəncə**





# 1993-cü ilin iyunu: xalqın ulu öndərə sonsuz inamı

## *"Xalq qəzeti" həmin hadisələri öz səhifələrində peşəkarcasına əks etdirib*

**1993-cü il iyunun 15-də ümummilli lider Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə qayıdışı milli dövlətçiliyimizin taleyində xüsusi yeri olan böyük tarixi hadisədir. O dövrdə baş verən gərgin hadisələr xalqımızın yaşlı və orta nəslinin yaddaşına əbədi həkk olunub.**

Qeyd etmək lazımdır ki, o, ağır, çətin günlərdə respublikanın aparıcı mətbu nəşrlərindən biri olan "Xalq qəzeti" ölkənin ictimai-siyasi həyatında baş verən taleyüklü prosesləri xalqın əhval-ruhiyyəsini olduğu kimi əks etdirərək, obyektiv və ədalətli işıqlandırmağa çalışıb və buna nail olubdur. Redaksiyamızın əməkdaşları bundan haqlı olaraq qürur duyurlar!

Bizi o dövrdən, düz, 30 illik bir zaman məsafəsi ayırır. Bu gün qəzetin saralmış səhifələrində yaxın tariximizin narahatlıq, həyəcan və ümidlə dolu dönəmini əks etdirən yazıları oxuyanda yaradıcı kollektivin nümayiş etdirdiyi peşəkarlıq və fədakarlığın bir daha şahidi oluruq. Bəli, "Xalq qəzeti" haqqı nahaqqa verməyib.

Redaksiyamız bu gün də öz ənənələrinə sadiqdir. Qəzetin sözügedən dövrdə və indi də baş redaktorunun müavini vəzifəsində çalışan, Əməkdar jurnalist Tahir Rüstəmov bildirdi ki, "Xalq qəzeti" o illərdə müstəqil mətbu nəşr kimi fəaliyyət göstərsə də, vaxtaşırı hakimiyyətdə olan siyasi qüvvələrin açıq və gizli təhdidlərinə məruz qalırdı. Lakin həqiqəti olduğu kimi əks etdirmək prinsipindən geri çəkilmirdi.

Hörmətli oxucular, icazənizlə xalqımızın haqlı olaraq sonsuz fəxarətlə "Qurtuluş Günü" adlandırdığı 1993-cü il iyunun 15-də bu əlamətdar tarixi gündən əvvəlki və sonrakı günlərdə baş vermiş taleyüklü hadisələrə qəzetimizin otuz il əvvəlki fəaliyyətinə istinadən retro baxış edək.

İlk növbədə qeyd etmək lazımdır ki, 1993-cü il iyun ayının 4-də Gəncə şəhərində baş vermiş silahlı qiyam ağır faciə ilə nəticələnmiş, respublikadakı mövcud siyasi və hərbi vəziyyəti daha da gərginləşdirmiş, ölkə vətəndaş müharibəsi həddinə çatmışdı.

Gəncə hadisələri nəticəsində Azərbaycanda hakimiyyət böhranı baş vermiş, hərbi hissələrdə nizam-intizam xeyli zəifləmişdi. Bu şəraitdə Ermənistan silahlı qüvvələri tərəfindən Ağdam, Füzuli, Cəbrayıl istiqamətlərində hücumlar şiddətlənmiş, torpaqlarımızın müdafiəçiləri arasında böyük itkilər olmuşdu.

Qeyd etmək lazımdır ki, Gəncədə baş vermiş hadisələr və onların mahiyyəti 1993-cü il iyunun əvvəllərində çoxları üçün qaranlıq olaraq qalırdı. Qəzet bu hadisələrə aydınlıq gətirmək məqsədilə özünün 9 iyun tarixli nömrəsində o zaman qəzetin gənc müxbiri olmuş, hazırda məsul katib vəzifəsində çalışan İlqar Rüstəmovun imzası ilə "Gəncədə nə baş vermişdir?" adlı geniş araşdırma yazısı dərc etmişdir.

Müəllif baş verənləri xronoloji ardıcılıqla təsvir edərək yazıb ki, acı təəssüf ki, həmin hadisələr haqqında xalqa vaxtında səhih informasiya çatdırılmamışdır. Gəncədə qanlı olaylar zamanı onlarla vətəndaşımız həlak olmuşdur. Bu cinayət əməlini törədənlər mütləq cəzalarını alacaqlar.

Qəzetin 10 iyun tarixli nömrəsində isə jurnalist Qüdrət Piriyevin "Qardaş qırğını: kimdir müqəssir!" sərlövhəli məqaləsi dərc olunub. Müxbir yazır ki, xalqımızın tarixində silinməz ləkə kimi qalacaq bu qardaş qırğını Ali Sovetdə müzakirələr zamanı millət vəkillərinin hədsiz qəzəbinə səbəb olubdur.

"Xalq qəzeti"nin elə həmin nömrəsində qəzetin Gəncəbasar zonası üzrə müxbiri Hamlet Zeynallının "Gəncədə "tufan" adlı məqalə işıq üzü görüb. Qeyd etmək lazımdır ki, müəllif bu yazını operativ qaydada telefonla ötürüb. H.Zeynallı əhalinin dediklərini qələmə alıb: "Respublika televiziyasının verilişləri yerli sakinləri hiddətləndirmişdir. Gəncə faciəsi on minlərlə vətəndaşın gözü qabağında baş verdiyi halda, televiziyada süni çıxışlar təşkil olunur, bəlkə də ömründə Gəncəni görməyən adamlar qardaş qırğınından danışırlar".

H.Zeynallı Gəncədən göndərdiyi digər məqalədə isə həmin ərəfədə bir qrup ziyalı və jurnalist ilə Gəncəyə səfər edən dahi siyasətçi Heydər Əliyevin burada keçirdiyi görüşlər barədə belə yazır: "Bütün gecə Heydər Əliyevlə Surət Hüseynov arasında danışıqlar olmuşdur. Heydər Əliyev jurnalistlərin suallarına ayaqüstü cavab verərək demişdir ki, söhbətlərin yekunundan razıdır. O, bildirmişdir ki, Gəncədə baş vermiş hadisələr onu hədsiz kədərləndirmişdir".

Məqalədə sonra vurğulanır ki, Heydər Əliyev baş vermiş faciə ilə əlaqədar şəhər sakinlərinə başsağlığı vermiş və demişdir ki, qoy bu qan torpağımızda tökülən sonuncu qan olsun, qardaş-qardaşa bir daha güllə atmasın. Bu, əlbəttə, millətini və xalqını sonsuz bir məhəbbətlə sevən görkəmli dövlət xadiminin ürək sözləri idi.

Təqdirəlayiq haldır ki, "Xalq qəzeti" o dövrün ictimai-siyasi hadisələrini diqqətlə izləyir, hər bir əhəmiyyətli fakt və informasiya barədə oxucularına müfəssəl məlumat verməyə çalışırdı. Qəzetin iyunun 16-da işıq üzü görən xüsusi nömrəsində "Parlamentin spikeri dəyişdi" yazısı dərc olunub. Yazıda qeyd edilir ki, gizli səsvermə yolu ilə (lehinə 34 nəfər, əleyhinə 3 nəfər) Heydər Əliyev Ali Sovetin Sədri seçildi.

Qəzet növbəti nömrəsində Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 15 iyun tarixdəki iclasından çıxışını dərc etmişdir. Heydər Əliyev bu tarixi çıxışında demişdir:

"Ali Sovetin Sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərə, dünyada gedən proselərlə bağlı olaraq təmin olunmasıdır".

Heydər Əliyev dərhal fəal siyasi fəaliyyətə başlamışdır. Dahi siyasətçinin xilaskarlıq missiyası qəzetin səhifələrində dərc olunmuş yazılardan da hiss olunur. Belə ki, iyunun 23-də İ.Rüstəmovun "Ali Sovetdə brifinq" rubrikası altında "Xalqı parçalamaq olmaz" adlı yazısı dərc olunub.

Müəllif yazır: "Dünən Respublika Ali Sovetinin Sədri Heydər Əliyevin Azərbaycanın və xarici ölkələrin KİV nümayəndələri üçün birifinqi olmuşdur. Heydər Əliyev bildirdi ki, son dövrdə Azərbaycanda yaranmış vəziyyətlə əlaqədar çalışırıq informasiya orqanların dəqiq və obyektiv məlumat verək. İnformasiya orqanları da prosesləri xalqa aydın çatdırmaq üçün sərbəst və azad fəaliyyət göstərməlidir. Vəziyyətimiz müəyyən çərçivəyə düşənə qədər belə görüşlərin keçirilməsinə ehtiyac olacaq".

Heydər Əliyev daha sonra qeyd edib ki, respublika prezidenti Əbülfəz Elçibəylə dünən günün ikinci yarısında iki dəfə telefonla danışıb. Burada olan vəziyyəti ona bildirib, Milli Məclisin qərarını ona çatdırıb və xahiş edib ki, dərhal Bakıya qayıdıb öz vəzifəsinin icrası ilə məşğul olsun. Ancaq Elçibəy Bakıya qayıtmaqdan imtina edib. Heydər Əliyev ölkə vətəndaşlarına, xalqa dönə-dönə müraciət edib ki, indi Azərbaycanda sabitliyin qorunması hamının vətəndaşlıq borcudur. Hər kəs öz borcunu yerinə yetirməlidir,

Həmin günlərdə qəzetin səhifələrində dərc olunmuş ən maraqlı məqalələrdən biri də Tahir Rüstəmovun "24 iyun: Kələkidə iki saat" yazısıdır. Naxçıvana 15-20 nəfərlik jurnalist qrupunun tərkibində səfər edən müəlifin təəssüratları o günlərdə oxucular tərəfindən böyük maraqla qarşılanıb. Qəzetin həmin nömrəsi əl-əl gəzib.

Sonda bir daha fəxrlə qeyd edək ki, "Xalq qəzeti"nin yaradıcı kollektivi, həqiqətən, o dövrün canlı salnaməsini yarada bilib. Yaradıcı kollektivimizin bu böyük uğuru ilə hər zaman fəxr etməyə dəyər.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

# Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı kitabın və sənədli filmin təqdimatı

**Dünən Milli Məclisdə Azərbaycan xalqının Milli Qurtuluşunun 30 illiyi münasibətilə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş kitabın və sənədli filmin təqdimatı keçirilib.**



"Heydər Əliyev və Azərbaycan parlamenti" adlı 3 cilddən ibarət kitabın məsul redaktoru Milli Məclisin Sədri Sahibə Qafarova, tərtibçi redaktoru parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Mehman Qaibovdur.

Yubiley nəşrində ulu öndər Heydər Əliyevin Azərbaycan parlamentinə rəhbərlik etdiyi 4 ay ərzində keçirilmiş parlament iclaslarının stenoqramları toplanıb. Bu materiallar 30 ildə ilk dəfə geniş ictimaiyyətə təqdim olunur. Bununla yanaşı, kitabda Ulu öndərin müstəqilliyimiz, demokratiya, parlament mədəniyyəti və diplomatiyası, ordu quruculuğu, neft strategiyası ilə bağlı tarixi fikirləri və separatizmə qarşı mübarizəsi öz əksini tapıb. Stenoqramlarda ümummilli liderin Azərbaycanın gələcəyi ilə bağlı parlament tribunasından səsləndirdiyi konseptual müddəalar da yer alıb.

**Həmin gün parlamentdə görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi fəaliyyətindən bəhs edən "Heydər Əliyev – zamanın fövqündə" filminin də təqdimatı olub.**

Ekran əsərinin ideya müəllifi Milli Məclisin Sədri Sahibə Qafarova, ssenari müəllifi Mehman Qaibovdur. Film Milli Məclisin arxiv materialları əsasında parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsində hazırlanıb.

Yeni xronikanın mövzusu Heydər Əliyev və Azərbaycan parlamentidir. Filmdə ulu öndərin Azərbaycana ilk dəfə rəhbərlik etdiyi dövrdə Ali Sovetin deputatı və SSRİ Ali Sovetinin deputatı kimi fəaliyyəti, o dövrdə onun təşəbbüsü ilə Azərbaycanın gələcəyi ilə bağlı parlamentdə görülmüş işlərdən, o cümlədən, yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra 3 ay 18 gün ərzində Azərbaycan parlamentinə rəhbərlik etdiyi dövrdən bəhs edilir. Sənədli filmdə Ulu öndərin Ali Sovetin tribunasından səsləndirdiyi bir sıra fikirlər ilk dəfə səsləndirilir. Onun parlamentə sədrlik etdiyi dövrdə müstəqilliyimizin gücləndirilməsi, demokratiyanın inkişafı, ordu quruculuğu, neft strategiyası sahələrində atılan addımlar geniş əks olunub. Bunlarla yanaşı, ekran əsərində yüksək səviyyəli Prezident-Parlament münasibətlərindən, Heydər Əliyev siyasətinin təntənəsindən, bugünkü Azərbaycanın uğurlarından bəhs olunur.

***Ə.BƏDƏLOV, "Xalq qəzeti"***

“Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli, “Tikinti layihələrinin ekspertizadan keçirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2014-cü il 17 noyabr tarixli 348 nömrəli, “Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2014-cü il 17 noyabr tarixli 349 nömrəli, “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” 2016-cı il 23 iyun tarixli 963 nömrəli, “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 16 may tarixli 673-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” 2017-ci il 24 may tarixli 1421 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1042 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 889-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə qərara alıram:

“Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli, “Tikinti layihələrinin ekspertizadan keçirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2014-cü il 17 noyabr tarixli 348 nömrəli, “Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2014-cü il 17 noyabr tarixli 349 nömrəli, “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” 2016-cı il 23 iyun tarixli 963 nömrəli, “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 16 may tarixli 673-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” 2017-ci il 24 may tarixli 1421 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1042 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 684) 6-cı hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2023-cü il**

# 1993-cü ilin 15 İyun havasına fərqli hərarət gətirən seçim

**(əvvəli 1-ci səhifədə)**



Həmin sənəddə qeyd edilirdi ki, AXC–Müsavat rejimindən Heydər Əliyevə son dərəcə ağır miras qalmışdı. Siyasi oyunlara və hakimiyyət çəkişmələrinə cəlb edilmiş ordu çaş-baş düşüb öz döyüş qabiliyyətini itirmişdi. Naşılıq və səriştəsizlik nəticəsində dövlət aparatı, demək olar ki, dağılmış, idarəetmə və nəzarət funksiyasından məhrum olmuşdu. Belə bir şəraitdə legitim dövlət hakimiyyətinin təmsilçisi olan keçmiş prezident Əbülfəz Əliyev öz komandasının fəlakət həddinə gətirdiyi ölkəni böhranlı vəziyyətdən çıxarmaqda Heydər Əliyevə kömək etmək əvəzinə, gizli olaraq paytaxtdan qaçıb Azərbaycanın ucqar dağ kəndlərindən birinə sığınmağı daha üstün tutmuşdu.

İndi həmin tarixi sənədlərə nəzər salanda bir növ özümü xoşbəxt hesab edirəm. Çünki həmin illərdə ölkə əhalisinin böyük əksəriyyəti kimi mən də yaşanan problemlərin və məhrumiyyətlərin zərərdidəsi olsam da, çoxsaylı tarixi faktların xalq, dövlət və ölkə naminə atılan addımların əksəriyyətinin şahidi olmuşam. Şahidlik isə fərdin ölkədə baş verənlərə ayıq başla və ədalətli şəkildə münasibət bildirməsinə, ən başlıcası, ətrafdakılara qarşı obyektiv olmasına zəmin yaradır.

Yaxşı yadımdadır, müstəqilliyin ilk illərində Qarabağ problemini həll etmək və ölkədə demokratik dəyişikliklər aparmaq vədi ilə hakimiyyəti ələ keçirən qüvvələr nəinki öz vədlərinə əməl etmədilər (daha doğrusu, edə bilmədilər), hətta qısa müddət ərzində ölkəni fəlakət girdabına, vətəndaş müharibəsi və parçalanma həddinə gətirib çıxardılar. Çünki naşı və siyasətdənkənar idilər. Onların bir illik hakimiyyəti dövründə Azərbaycanın strateji cəhətdən əhəmiyyətli əraziləri itirildi, yeni ərazi itkiləri üçün real təhlükə yarandı. Daha pisi o idi ki, xalqın orduya inamı ölmüşdü. Fərarilik baş alıb gedirdi (44 günlük İkinci Qarabağ müharibəsində isə nəinki fərarimiz olmadı, əksinə, orduya yazılmaq üçün növbələr yaranmışdı) .

Yuxarıda adını çəkdiyimiz tarixi qərarın preampulasında qeyd edildiyi kimi, müstəqilliyin ilk illərində ordu quruculuğu sahəsində konkret heç bir iş görülmədi. Dövlət quruculuğu kimi son dərəcə mühüm sahə başlı-başına buraxıldı, xalqın mənafeyi unudularaq, ayrı-ayrı şəxslərin istək və iddialarına meydan açıldı. Xarici siyasət xəttinin müəyyən edilməsində yol verilən kobud səhvlər və ifrat subyektivizm halları Azərbaycanın dünya miqyasında təklənməsinə, bir sıra region dövlətləri ilə qarşılıqlı münasibətlərinin gərginləşməsinə gətirib çıxardı. Ölkədə dövlətə deyil, ayrı-ayrı şəxslərə xidmət edən silahlı dəstələr yaradılırdı. Bu isə həmin şəxslərin Konstitusiyaya zidd yolla hakimiyyətə gəlmələri, qeyri-sabitlik və hərc-mərclik üçün zəmin yaratmışdı. Bir sözlə, Azərbaycanın bir müstəqil dövlət kimi varlığı təhlükə altında idi.

*1993-cü ilin iyun günlərində Azərbaycan təkcə siyasi, hərbi, iqtisadi deyil, həm də mənəvi böhran içərisində idi. Cəmiyyətdə ümidsizlik və inamsızlıq əhval-ruhiyyəsi kök atmağa başlamışdı. Heydər Əliyevin qarşısında yalnız ölkəni böhran vəziyyətindən çıxarmaq deyil, həm də xalqın geniş təbəqələrini Azərbaycan dövlətçiliyi ideyası ətrafında birləşdirmək, ona ümid və inam aşılamaq, qətiyyət və mübarizlik təlqin etmək vəzifəsi dayanırdı.*

***Milli Məclisin 15 iyunun Azərbaycan xalqının Milli Qurtuluş Günü elan edilməsi haqqında qərarından***

***27 iyun 1997-ci il***

Xalq məhz belə bir zamanda ulu öndər Heydər Əliyevin siyasətə qayıtmasını tələb edirdi. Doğrudur, əvvəllər ulu öndərin qayıdışı arzulanır, sonra ondan xahişlər edilirdisə, 93-cü ildə artıq xalq ümummilli liderdən israrlı şəkildə tələb edirdi ki, müstəqilliyimiz əsrin əvvəlindəki taleni yaşamasın.

Buradakı “tələb” ifadəsi bəlkə də oxucularımızdan kiminsə xoşuna gəlməyə bilər. Ona görə də Prezident İlham Əliyevin müstəqilliyin 30 illiyi münasibətilə xalqa ünvanladığı tarixi müraciətindən bir iqtibas seçməyi məqsədəuyğun sayırıq: “Azərbaycan tarixinin bu ağır dönəmində ulu öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdı. Yalnız bundan sonra müstəqilliyin yenidən itirilməsi təhlükəsinin qarşısı alındı. Qısa müddətdə ölkəmizin müstəqil daxili və xarici siyasət strategiyasının təməl prinsipləri müəyyən olundu, ictimai-siyasi sabitlik, dövlət intizamı təmin edildi, demokratik islahatların həyata keçirilməsinə və ordu quruculuğu prosesinə başlanıldı. Azərbaycan gələcək taleyi baxımından həlledici rola malik “Əsrin müqaviləsi”ndə iştirakı ilə dünyanın enerji xəritəsində xüsusi mövqe qazandı, qlobal iqtisadi mühitə inteqrasiya proseslərinə qoşularaq gələcək müvəffəqiyyətlərinə yol açan cəsarətli addımlar atdı”.

Bəli, bu gün bayram etdiyimiz Qurtuluş Günü xalqımıza heç zaman olmadığı qədər güclü bir Azərbaycan dövləti bəxş etmişdir. Bütün dünya ulu öndərin işləyib hazırladığı inkişaf strategiyasının bəhrələrinə şahidlik edir. Azərbaycanın hərtərəfli inkişafı üçün rəhbər tutulan həmin strateji xəttin, ölkəmizin daha da güclənməsi üçün görülən fasiləsiz işlərin məntiqi nəticəsi isə Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi olmuşdur.

Dövlət başçımızın dediyi kimi, rəşadətli ordumuz döyüş meydanında həqiqi qəhrəmanlıq və vətənpərvərlik nümayiş etdirərək cəmi 44 gündə torpaqlarımızı işğaldan qurtarmışdır. Azərbaycan xalqının apardığı Vətən müharibəsi Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələnmişdir. Azərbaycanın Vətən müharibəsindəki Zəfəri regionumuzda yeni reallıqlar yaratmışdır. Tarixi Qələbəmiz həm ölkəmizin, həm də bütövlükdə regionun inkişafında yeni dövrün başlanğıcıdır.

Biz bütün bunlara görə Azərbaycan parlamentinin 1993-cü il iyunun 15-də qəbul etdiyi qərara minnətdarıq. Məhz həmin qərarla böyük dövlət xadimi Heydər Əliyev ölkədə siyasi hakimiyyətə qayıtmış, xalqımız vətəndaş müharibəsindən, milli dövlətçiliyimiz isə məhv olmaqdan xilas edilmişdir.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***

## Baş nazir Əli Əsədovun Cevdet Yılmaz ilə telefon danışığı

**İyunun 14-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz arasında telefon danışığı olub.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, telefon danışığı əsnasında Baş nazir Ə.Əsədov C.Yılmazı Türkiyənin vitse-prezidenti vəzifəsinə təyin edilməsi münasibətilə bir daha təbrik edib, qarşıdakı fəaliyyətində ona uğurlar arzulayıb.

İki qardaş ölkə arasında strateji tərəfdaşlıq və müttəfiqlik əlaqələrinin prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın qətiyyətli səyləri ilə bütün sahələrdə yüksək səviyyədə inkişafından məmnunluq ifadə olunub.

Türkiyə Prezidentinin Azərbaycana son səfərinin ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

İki ölkə arasında əlaqələrin müxtəlif istiqamətlərdə daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi üçün qarşılıqlı fəaliyyətə hazırlıq ifadə olunub.

Eyni zamanda, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya çərçivəsində görüləcək işlər nəzərdən keçirilib.

## Qəbələdə prokurorluğun yeni binası




**Dünən Qəbələ rayon prokurorluğunun yeni inzibati binası istifadəyə verilib.**

Açılış mərasimində iştirak edən Baş prokuror Kamran Əliyev bildirib ki, inzibati binanın istifadəyə verilməsi çox əlamətdar bir dövrə - müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə təsadüf edir.

Prokurorluq orqanlarının formalaşmasında ümummilli liderin tarixi xidmətlərindən danışan Baş prokuror Azərbaycan prokurorluğunun keçdiyi şərəfli yol və hazırkı fəaliyyəti barədə bəhs edib. O, prokurorluq orqanlarında aparılan kompleks islahatlar və sağlam iş mühitinin formalaşdırılması məqsədilə görülən məqsədyönlü tədbirlərdən söz açıb.

Sonra iştirakçılar binada yaradılan şəraitlə tanış olub.

## MDB paytaxt polisi rəislərinin iclası



**İyunun 14-də Daxili İşlər Nazirliyində (DİN) Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan dövlətlərin daxili işlər orqanlarının paytaxt qurumları rəhbərlərinin növbəti iclası keçirilib.**

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iclas iştirakçılarına respublikadakı kriminogen durum, həyata keçirilən tədbirlər barədə məlumat verib. Bildirib ki, cinayətkarlığın qarşısının alınması və açılması işinin səmərəli təşkili, ictimai asayişin və təhlükəsizliyin etibarlı təmini ölkələrimizin və xalqlarımızın mənafeyinə xidmət edir. Bu məqsədlərə çatmaq üçün birgə səylər daha da gücləndirilməli, məqsədyönlü və davamlı olmalıdır.

Mövcud problemlərə toxunan daxili işlər naziri transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan narkotiklərin qanunsuz dövriyyəsi, beynəlxalq terrorçuluq, insan alveri, qanunsuz miqrasiya və kibercinayətkarlıq ilə mübarizənin diqqət mərkəzində dayandığını, yeni təhdid və çağırışlara qarşı yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının mümkünlüyünü vurğulayıb.

Çıxışının sonunda general-polkovnik Vilayət Eyvazov iclasda aparılacaq müzakirələrin əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirəcəyinə, iştirakçılara öz həmkarlarının təcrübəsindən faydalanmaq imkanı, bütövlükdə, cinayətkarlığa qarşı mübarizəyə layiqli töhfələr verəcəyinə əmin olduğunu bildirib.

İşçi qaydada davam etdirilən iclasda əməkdaşlığın prioritet istiqamətləri və perspektivləri, narkotiklərin qanunsuz dövriyyəsi, kibercinayətkarlıq, habelə transmilli mütəşəkkil cinayətkarlığın digər növləri ilə mübarizə, informasiya mübadiləsinin intensivləşdirilməsi, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

**Qəzənfər QASIMOV,**
**“Xalq qəzeti”**

## XİN-in sözçüsü: “Əsassız iddiaları rədd edirik”

**“Ermənistanda tikiləcək metal əritmə zavodunda mülki işçilərin hədəfə alınması ilə bağlı əsassız iddiaları rədd edirik”.**

Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin sözçüsü Ayxan Hacızadə tviter hesabında yazıb.

“Bu, həmişə olduğu kimi, Ermənistanın diqqəti Azərbaycana qarşı hərbi təxribatlarından və zavodun mənfi transsərhəd təsirinə yayındırmaq üçün növbəti uydurmasıdır”, - deyə Ayxan Hacızadə vurğulayıb.

# Qardaşlığa layiq, ali məqsədli Şuşa Bəyannaməsi

## Şanlı Zəfərdən sonra imzaladığımız ən vacib sənədin iki yaşı tamam olur

**Biz məmnunuq ki, iyirmi birinci əsrin üçüncü onilliyi Turan sevdalıları üçün möhtəşəm perspektivin ilk və uğurlu mərhələləri ilə başlanmışdır. Türkdilli xalqların tarixində yeni dövrə start verilmişdir. Ancaq daha böyük qürur və iftixarımız ondan ibarətdir ki, bu proseslərin önündə məhz Türkiyə Cümhuriyyəti və Azərbaycan Respublikası gedir. Üçüncü onilliyin geridə qalan otuz ayında cənab prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin türkdilli ölkələrə reallaşdırdıqları çoxsaylı səfərləri sübut edir ki, arzu etdiyimiz möhtəşəm perspektivin daha da yaxınlaşdırılmasına ən böyük töhfəni məhz bu iki lider verir.**



Doğrudur, SSRİ-nin süqutundan sonra yaranmış türk dövlətlərinin heç birinin uğurlu sabaha gedən yolu tam rəvan olmayıb. Hamımız müxtəlif problemlərlə üz-üzə olmuşuq. Ancaq Azərbaycan çətinliyi daha böyük idi. Çünki bəzi məkrli siyasi dairələrin himayədarlıq etdiyi Ermənistan ərazilərimizi işğal etmişdi. Çar Rusiyası və Sovet dönəmində başlanmış qəsbkarlığın müstəqillik dönəmində də davamı son dərəcə böyük məhrumiyyət idi. Belə bir zamanda daim yanımızda qardaş Türkiyəni gördük. Üstəlik, Ermənistanın güvəndiyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında türkdilli ölkələrin rəhbərləri də ərazi bütövlüyümüzü daim dəstəklədilər. Bədxahlarımız gördülər ki, Azərbaycan siyasi mübarizə meydanında tək deyil.

İndi isə, bilavasitə bu sətirlərin qələmə alınmasının əsas səbəbləri barədə. Qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlət başçısı kimi növbəti dəfə and içməsindən sonra ilk xarici səfərlə Bakıya gəlməsi bir neçə cəhətdən əlamətdar oldu.

Birincisi, türk xalqı son nəticəsi ikinci turda məlum olan möhtəşəm seçkidə öz iradəsini ortaya qoyduğu kimi, cənab Ərdoğan da seçkidəki qələbədən dərhal sonra Bakıya gəlməklə, beynəlxalq aləmdəki dostlarımıza və bədxahlarımıza xalqının etimadını qazanmış liderin iradəsinin nədən ibarət olduğunu göstərdi. İkincisi, bu səfər Azərbaycan xalqının 1997-ci ildən bəri hər il bayram etdiyi Qurtuluş Gününün ərəfəsində reallaşdırıldığına görə özünəməxsus əhəmiyyətə malikdir. Üçüncüsü, qardaş ölkə liderinin Bakıya növbəti səfəri tarixi Şuşa Bəyannaməsinin ikinci ildönümünə təsadüf etdi. Dördüncüsü, Rəcəb Tayyib Ərdoğan Laçında Sərhəd Nəzarət-Buraxılış Məntəqəsinin açılmasıyla dövlətmizin ərazi bütövlüyünün tam təmin edilməsindən sonra ölkəmizə səfər edən iki dövlət başçısından biri oldu.

Bu bir faktdır ki, ekspertlər həm cənab Rəcəb Tayyib Ərdoğanın Azərbaycana, həm də Prezident İlham Əliyevin Türkiyəyə səfərlərinin hər birini tarixi hadisə kimi xarakterizə edirlər. Dövlət başçımızın xatırlatdığı kimi, Türkiyə Prezidenti 44 günlük İkinci Qarabağ müharibəsinin ilk saatlarından, ta Bakıda keçirilən Zəfər Paradınadək hər an bizim yanımızda olmuşdur. Eləcə də, işğaldan azad edilmiş ərazilərimizdə inşa edilmiş beynəlxalq hava limanlarının ilk xarici qonağı da məhz cənab Rəcəb Tayyib Ərdoğan olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev İstanbulda keçirilmiş "TEXNOFEST" festivalının açılışında çıxış edərkən, həmin məqamları böyük qədirbilənliklə xatırlatmışdır: "Bir il öncə "TEKNOFEST" festivalı Bakıda keçirilmişdir və əziz qardaşımla bərabər biz "TEKNOFEST"də iştirak etmişdik. Bu gün mən buradayam. Bu, bir daha onu göstərir ki, Türkiyə və Azərbaycan hər zaman bir yerdədir. Türkiyə və Azərbaycan dost, qardaş ölkələrdir".

Dövlət başçımız həmin çıxışında xatırlatmışdır ki, iki il əvvəl Şuşa Bəyannaməsinin imzalanması ilə Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular. Onun fikrincə, həmin tarixi Bəyannamənin Qarabağın tacı olan Şuşada imzalanmasının xüsusi önəmi var: "Şuşa Azərbaycan xalqının əziz şəhəridir, Türk dünyasının əziz şəhəridir. Şuşanın işğaldan azad edilməsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir. Türkiyə, onun Cümhurbaşqanı, qardaş türk xalqı daim bizim yanımızda idi. İkinci Qarabağ savaşının ilk dəqiqələrindən son dəqiqələrinə qədər əziz qardaşım Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan bizim yanımızda idi. Onun açıqlamaları, onun mesajları Azərbaycanı birmənalı dəstəkləmişdi. O söyləmişdir ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır və bu, bizə əlavə güc verdi, əlavə ruh verdi".

Şuşa Bəyannaməsinin ikinci ilinin tamam olmasına gəlincə isə onu da deməliyik ki, tərəflərin "Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində görüşünün tarixi əhəmiyyətini vurğulayaraq, iki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək, 9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq" imzaladıqları bu sənədin gənc müstəqil Azərbaycan dövləti üçün, sözün həqiqi mənasında, misilsiz əhəmiyyəti vardır.

Bu sətirləri həmin sənəddə öz əksini tapmış iki məqamı xatırlatmaqla yekunlaşdırmaq istəyirik. Birincisi: "Tərəflər fəxarət hissi ilə bildirirlər ki, Azərbaycan 44 günlük Vətən müharibəsi ərzində qələbə qazanaraq Ermənistanın 30 ildən bəri davam edən təcavüzkar siyasətinə son qoydu, torpaqlarını işğaldan azad etdi, tarixi ədalətin zəfər çalmasını və beynəlxalq hüququn bərpa olunmasını təmin etdi."

İkincisi: "Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və silahlı qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır".

**Tərəflər müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsini, birgə təhsil və təlimlərin keçirilməsini, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsini təşviq edəcəklər. Azərbaycan və Türkiyə digər dost dövlətlərin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsini dəstəkləyəcəklər.**

**Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsindən 15 iyun 2021-ci il**

Vəssalam. Yəni İrandan, Fransadan və ya hansısa başqa bir dövlətdən göndərilən təlimatlar əsasında Xankəndidə – Azərbaycanın əsas tarixi şəhərlərindən birində oturub Bakı ilə təhdid dilində danışmaq istəyənlər də, onların havadarları və silahgöndərənləri də anlamalıdırlar ki, odla oynayırlar. Bu qədim Azərbaycan ərazisində xaos və anarxiya yaratmaq istəyənlər unutmasınlar ki, Şuşa Bəyannaməsi Bakı ilə Ankara arasında hansısa müqavilənin tələblərindən asılı olmayaraq, tarix boyu yaranmış qardaşlıq və müttəfiqlik münasibətlərini beynəlxalq səviyyədə rəsmiləşdirmişdir.

Cənab Rəcəb Tayyib Ərdoğanın Azərbaycan xalqı adından alqışlayır, Şuşa Bəyannaməsinin iki yaşını təbrik edirik. Qurtuluşumuz həm də birliyimizdə, qardaşlığımızda və iki dövlətin bir millətinin daimi ucalığındadır.

***İ.QAÇAYEV, "Xalq qəzeti"***

---

# Azərbaycan–Türkiyə əlaqələri ümumi tərəqqiyə xidmət edir

## Son 20 ildə hər iki ölkədə iqtisadiyyat 3 dəfə artıb

**Azərbaycan–Türkiyə əlaqələrində beynəlxalq iqtisadi və nəqliyyat layihələrinin reallaşması daim xüsusi yer tutub. İki qardaş dövlətin iqtisadi əməkdaşlığı ölkəmizin müstəqilliyinin ilk illərindən etibarən inkişaf etməyə başlayıb.**

1992-ci il noyabrın 1-də Azərbaycan–Türkiyə arasında Ankarada "Ticarət və İqtisadi Əməkdaşlıq haqqında" imzalanan saziş 1993-cü il yanvar 23-dən qüvvəyə minib. Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz, TANAP, TAP və "Yeni İpək Yolu" nəqliyyat dəhlizində mühüm önəm daşıyan Bakı–Tbilisi–Qars dəmir yolu layihələri hər iki dövlətin əlaqələrinin möhkəmlənməsinə əsaslı təsir göstərib.

Burada bir məqamı da qeyd edək ki, son illər qardaş ölkənin iqtisadiyyatında müşahidə edilən volatilliyə, məzənnə enişlərinə və inflyasiyaya rəğmən, Türkiyə iqtisadiyyatı son 20 ildə real ifadədə 3 dəfə böyüyüb. 2003-cü ildə 314 milyard dollar ÜDM-ə malik olan Türkiyə iqtisadiyyatı hazırda 900 milyard dolları keçib. Beynəlxalq Valyuta Fondu cari il Türkiyədə ümumi daxili məhsulun 1 trilyon 29 milyard dollara çatmasını proqnozlaşdırıb. Bu isə qardaş ölkənin trilyon dollarlıq iqtisadiyyata malik ölkələr qrupuna daxil olacağı inamını yaradıb.

Belə bir güclü iqtisadiyyata malik olan dövlətin Azərbaycana investisiya qoyuluşu da diqqət çəkir. Ümumiyyətlə, bu ölkələr arasında qarşılıqlı sərmayə yatırımı da daim diqqətdə saxlanılır. İndiyə qədər Azərbaycanın Türkiyə iqtisadiyyatına 19,5 milyard ABŞ dolları, Türkiyənin isə Azərbaycan iqtisadiyyatına 12 milyard ABŞ dolları investisiya qoyması bunun bariz ifadəsidir. Onu da bildirək ki, hazırda Türkiyədə 2 minə yaxın Azərbaycan, respublikamızda isə 4 100-dən çox Türkiyə şirkəti fəaliyyət göstərir.

Qlobal iqtisadiyyatda baş verən müəyyən xoşagəlməz proseslərə baxmayaraq hazırda qardaş dövlətlər arasında bütün sahələrdə olduğu kimi, ticari-iqtisadi əlaqələrdə də dinamik inkişaf müşahidə edilir. Belə ki, iki ölkənin ticarət dövriyyəsinin illik dəyəri 2016-cı ildəki 2,3 milyard ABŞ dolları olduğu halda, 2021-ci ildə iki dəfə çox – təqribən 5 milyard ABŞ dolları olub. Ötən ilin yanvar–sentyabr aylarında isə bu rəqəm 4,2 milyard ABŞ dolları təşkil edib. Əlbəttə, belə bir yüksək göstəricinin əldə olunmasında 2020-ci il fevralın 25-də iki ölkə arasında güzəştli ticarətin təşviqi məqsədilə imzalanan "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi (PTS) əhəmiyyətli rol oynayıb.



Azərbaycan–Türkiyə əlaqələrində ticari-iqtisadi münasibətlərin dərinləşdirilməsinə bu gün də xüsusi həssaslıqla yanaşılır. İqtisadiyyat naziri Mikayıl Cabbarovun türkiyəli həmkarı ilə görüşündə dövlət başçılarının siyasi iradəsinin, verdikləri tapşırıqların icrasının əməkdaşlığın inkişafında mühüm əhəmiyyəti vurğulanıb. Türkiyənin Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olduğu və iki ölkə arasında Preferensial Ticarət Sazişinə dəyişiklik haqqında imzalanan Protokolun ticari-iqtisadi əlaqələrin gücləndirilməsinə əlavə stimul yaratdığı bildirilib. Eyni zamanda, qardaş ölkələr arasında uğurlu investisiya tərəfdaşlığının həyata keçirildiyi, qeyri-neft ticarət dövriyyəsinin artdığı da diqqətə çatdırılıb. Təbii ki, həmin görüşdə Azərbaycan və Türkiyənin iştirakı ilə həyata keçirilən genişmiqyaslı layihələrin regional əməkdaşlığı dərinləşdirməklə yanaşı, bölgənin mənzərəsini də dəyişdiyi vurğulanıb.

İki qardaş ölkə arasında iqtisadi əməkdaşlıq barədə iyunun 13-də prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın mətbuata bəyanatlarında da geniş bəhs edilib. Dövlətimizin başçısı məmnunluq hissi ilə ticarət dövriyyəsinin sürətlə artdığını və bunun artıq 6 milyard dollara yaxınlaşdığını, eyni zamanda, bu prosesin dinamik xarakter aldığını bildirib. "Çünki birgə həyata keçirəcəyimiz layihələr bunu təmin edəcək, xüsusilə enerji sahəsində. Azərbaycandan Türkiyəyə təbii qazın ixracı artmaqdadır, ildən-ilə artır və bu gün biz razılığa gəldik ki, bundan sonra da artacaq",– deyə Prezident İlham Əliyev diqqətə çatdırıb.

Ölkə rəhbəri bəyanatında, həmçinin bütün görülən işlərə paralel olaraq Türkiyə ərazisindən Avropa ölkələrinə böyük tələbat yarandığı üçün Azərbaycanın qaz ixracının artdığını, enerji sahəsində respublikamızın fəaliyyətinin təkcə təbii qaz məsələsi ilə məhdudlaşmadığını da vurğulayıb. Dövlətimizin başçısı Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri çərçivəsində keçirilən görüşdə qardaş ölkə rəhbəri ilə yenilənən, yeni, bərpaolunan enerji növləri üzrə əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldığını da deyib.

Prezident İlham Əliyev mətbuata bəyanatında yuxarıda vurğulananlarla bərabər, Azərbaycanda nəqliyyat və logistika imkanlarının genişləndirildiyini, Bakı Dəniz Limanının imkanlarının 25 milyon tona genişləndiriləcəyini də xatırladıb.

Yeri gəlmişkən, Qərb və Şərq arasında təbii coğrafi bağlantı səbəbi ilə ötən illərdə Azərbaycanın nəqliyyat infrastrukturuna böyük sərmayə yatırılıb və bunun nəticəsində bütün zəruri infrastruktur obyektlərinin ölkəmizə daha çox yük qəbul etməsi gerçəkləşib. Bütün bunlarla yanaşı, Orta Dəhlizin inkişafı istiqamətində də bir sıra mühüm layihələr reallaşdırılıb. Adıçəkilən dəhlizdən daha səmərəli istifadə etmək üçün bütün iştirakçı ölkələr arasında "vahid pəncərə" sisteminin tətbiqinin gerçəkləşdirilməsi məqsədilə gömrük inzibatçılığı və tarif siyasəti üzərində fəal iş aparılıb. Bundan isə əsas məqsəd isə Orta Dəhliz marşrutunun kommersiya baxımından daha cəlbediciliyi olub.

Ümumiyyətlə, dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanda son illərdə qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ölkəmizin ixrac potensialının artırılması, xarici investisiyanın cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində bir sıra önəmli layihələr icra olunub.

Azərbaycan Prezidenti tərəfindən aparılan islahatların məntiqi davamı olan Azərbaycan İnvestisiya Holdinqinin yaradılması respublikada yerli və xarici investisiyaların sağlam təməllər üzərində reallaşdırılmasına da öz müsbət təsirini göstərir. Çünki bu gün Azərbaycana investisiya yatırmaqda maraqlı olan iri şirkətlər var. Hazırda respublikada sərmayə qoyuluşu prosesi uğurla davam edir. Bütün bunlar isə ölkəmizə xarici investisiya qoyuluşuna müsbət zəmin yaradır. Son illərdə Azərbaycan iqtisadiyyatına yatırılan birbaşa xarici investisiyaların 60 milyard dollara çatması da elə bunun nəticəsidir.

***V.BAYRAMOV, "Xalq qəzeti"***




# Bölgələrdə Qurtuluş Günü təntənələri

## Naxçıvan



Naxçıvanda Milli Qurtuluş Günü münasibətilə təntənəli mərasim keçirilib. Heydər Əliyev Sarayında Naxçıvan Dövlət Filarmoniyasının Birləşmiş Orkestri bayram konserti ilə çıxış edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, elm və təhsil naziri Emin Əmrullayev, dövlət və hökumət nümayəndələri şənlikdə iştirak ediblər.

Məclisdə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətləri barədə məruzə edib. Tarixçi alim bildirib ki, 30 il gerçəkləşdirilmiş Milli Qurtuluş çağdaş tariximizin möhtəşəm özülü olub. Ötən 30 ildə ümummilli liderin yaratdığı əsaslar üzərində ölkəmizdə davamlı inkişaf gedir, onun qarşıya qoyduğu vəzifələr uğurla yerinə yetirilir.

Qeyd edilib ki, ulu öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət bu gün onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının rəhbərliyi ilə ərazi bütövlüyümüzün təmin olunması Heydər Əliyevin qurtuluş strategiyasının uğurlu nəticəsidir.

Bayram şənliyi Naxçıvan Dövlət Filarmoniyasının Birləşmiş Orkestrinin konserti ilə davam edib.

## Mingəçevir

Mingəçevir Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Mingəçevir Dövlət Universitetinin akt zalında 15 İyun Milli Qurtuluş Günü münasibəti ilə "Milli dövlətçiliyimizin xilaskarı" mövzusunda elmi-nəzəri konfrans keçirilmişdir.

Konfransı Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov açaraq qeyd etmişdir ki, Milli Qurtuluş Günü Azərbaycan xalqının dövlətçilik tarixində mühüm əhəmiyyətə malikdir. 1993-cü ilin iyun ayının əvvəlindən başlayaraq ölkəmizdə baş verənləri təhlil etməklə hər birimiz bu qənaətə gəlirik ki, 15 iyun günü Azərbaycan xalqı və dövlətçiliyi üçün, həqiqətən də, qurtuluş tarixidir.



1993-cü ilin iyununda Azərbaycanda yaranan ictimai-siyasi vəziyyət, vətəndaş müharibəsi təhlükəsi, ərazi baxımından parçalanma, xaos, anarxiya şəraiti xalqı bu vəziyyətdən xilas etməyə qadir olan lider zərurəti yaratdı. Belə bir missiyanı öz üzərinə götürən, həyatını təhlükələrə məruz qoyan ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə iyunun 9-da Naxçıvandan Bakıya qayıtdı, iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi, bununla da daxili və xarici düşmənlərimizin bütün planlarını iflasa uğratdı.

Qısa müddətdə həyata keçirilən səriştəli siyasətlə ümummilli lider Heydər Əliyev doğma Azərbaycanımızı məhv olmaqdan, xalqı isə düçar olduğu bəlalardan xilas etdi. O, 1993-cü ilin iyun ayının 15-də qayıdışı ilə tariximizin yeni bir mərhələsinin – quruculuq, inkişaf və yüksəliş dövrünün əsasını qoydu, dövlətçilik tariximizin şanlı səhifəsini yazdı. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun – Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir.

Konfransda YAP Mingəçevir şəhər təşkilatının sədri Cavanşir Yusubov "Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycanın siyasi hakimiyyətinə qayıdışı tarixi zərurət idi", Mingəçevir Dövlət Universitetinin Humanitar fənlər kafedrasının müdiri, dosent, siyasi elmlər üzrə fəlsəfə doktoru Esmira Cəfərova "Ulu öndər Heydər Əliyev milli qurtuluşumuzun sərkərdəsidir", Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Ədalət Quliyeva "Ümummilli lider Heydər Əliyevin 1993-cü il 15 iyun tarixindəki xilaskarlıq missiyası müasir uğurlarımızın başlanğıc səhifəsidir", Mingəçevir Dövlət Universitetinin baş müəllimi, iqtisad üzrə fəlsəfə doktoru Ruhiyyə Hüseynova "Ölkə Prezidenti cənab İlham Əliyevin qazandığı zəfərlər Azərbaycanın xoşbəxt gələcəyinin təminatıdır" mövzularında məruzələrlə çıxış etmişlər.

## Şirvan



Kür çayının sol sahilindəki iri sənaye şəhəri Şirvanda "Milli dövlətçiliyimizin xilaskarı" adlı tədbir Milli Qurtuluş Gününə həsr olunmuşdu. AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramov və elmi işçi Bəxtiyar Həsənov da qatıldıqları tədbirdən öncə iştirakçılar ulu öndər Heydər Əliyevin mərkəzi meydandakı abidəsini ziyarət edib, önünə gül dəstələri düzdülər, unudulmaz dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını ifadə etdilər.

Sonra Heydər Əliyev Mərkəzində ulu öndərin Azərbaycan xalqı qarşısında tarixi xidmətlərini, həyat və fəaliyyətinin mühüm məqamlarını əks etdirən sərgi ilə tanışlıq oldu. İclas salonunda tədbir Dövlət Himninin səsləndirilməsi ilə başladı. Ardınca "15 İyun Milli Qurtuluş Günüdür" adlı sənədli film nümayiş olundu. İcra hakimiyyətinin başçısı İlqar Abbasov çıxışında bildirdi ki, ulu öndərin hakimiyyətə qayıdışından sonra ölkədə yaranmış siyasi sabitlik və sosial-iqtisadi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiyasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynayıb. Ulu öndərin uğurlu dövlət siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbirdə tarixçi-alim Cəbi Bəhramov sözügedən mövzuda məruzə ilə çıxış etdi. Onun həmkarı Bəxtiyar Həsənov, YAP Şirvan şəhər təşkilatının sədri Zahir Qəhrəmanov, Şirvan Apellyasiya Məhkəməsinin sədri Vəli Abdullayev, Şirvan-Salyan Regional Təhsil İdarəsinin müdiri Sənan Mənsimli öz çıxışlarında Qurtuluş Gününün ümummilli-tarixi əhəmiyyətindən bəhs etdilər. Qonaqlara Vətən müharibəsində qazanılan qələbənin şərəfinə Şirvan şəhərində ucaldılmış "Zəfər abidəsi"nin xatirə hədiyyələri təqdim edildi.

## Ağdam

Artıq 30 ildən bəri qeyd etdiyimiz Milli Qurtuluş Günü Azərbaycanın xaosdan, özbaşınalıqdan, parçalanma təhlükəsindən qurtularaq sabitliyə, əmin-amanlığa, inkişafa qovuşmasının əsasının qoyulduğu, ölkəmizin taleyinin dəyişdiyi böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik gündür.



Bu fikir Ağdam Rayon Heydər Əliyev Mərkəzində 15 İyun Milli Qurtuluş Günü münasibətilə keçirilən "Milli dövlətçiliyimizin xilaskarı" mövzusunda tədbirdə səsləndirildi.

Ağdam Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərlərinin, ziyalıların iştirak etdiyi tədbirdə əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilərək, önünə tər gül dəstələri düzüldü. Sonra ulu öndərin və respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Tədbirdə çıxış edənlər ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra istər daxili, istərsə də xarici siyasətdə mühüm yeniliklərin baş verməsindən, dünya şöhrətli siyasət xadiminin Azərbaycan dövlətçiliyini xilas etməsindən, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasından, Qurtuluş Gününün əhəmiyyətindən bəhs etdilər.

## Cəlilabad



Tədbir iştirakçıları ulu öndərin abidəsini ziyarət edərək önünə tər çiçək dəstələri qoydular. Sonra Heydər Əliyev Mərkəzində başlanan tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Rayon icra hakimiyyətinin başçısı Rafiq Cəlilov Milli Qurtuluş Gününü xalqımızın və dövlətimizin taleyində dönüş anı, Azərbaycan tarixinə qızıl hərflərlə yazılan gün kimi dəyərləndirdi. Bu tarixin məhz görkəmli dövlət xadimi, müasir və müstəqil Azərbaycanın banisi, ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd etdi. 1993-cü ildə Azərbaycan dövlətçiliyinin ağır sınaqlarla qarşı-qarşıya qaldığı bir vaxtda xalqın təkidi ilə Bakıya gələn, böyük risklərə baxmayaraq, dərhal Gəncəyə gedib siyasi kataklizmləri yatıran və iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilən dünya şöhrətli siyasətçi müqəddəs qurtuluş missiyasını böyük məharətlə yerinə yetirib. Ulu öndər məhz xalq sevgisinə, dəstəyinə arxalanaraq bütün taleyüklü məsələləri böyük ustalıqla həll edib.

Bildirildi ki, bu gün ulu öndər Heydər Əliyevin siyasi-ideoloji kursu keyfiyyətcə yeni müstəvidə davam etdirilir. Prezident İlham Əliyev xalqımızın milli maraqlarını hərtərəfli təmin etməklə, Azərbaycanın inkişaf strategiyasını uğurla həyata keçirir. Vətən müharibəsindən böyük zəfərlə çıxmış xalqımızı aydın və ilhamlı sabahlara aparır.

Hər bir azərbaycanlı respublikaya rəhbərlik etdiyi hər iki dönəmdə xalqına ləyaqətlə xidmət göstərmiş əbədiyaşar lider Heydər Əliyevi böyük rəğbət və ehtiramla yad edir.

Tədbirdə ulu öndərin şərəfli ömür yolundan bəhs edən sənədli film nümayiş olundu və rayon mədəniyyət mərkəzinin solistlərinin ifasında konsert proqramı təqdim edildi.

## Salyan

"Milli dövlətçiliyimizin xilaskarı" mövzusunda tədbir Salyan rayon icra hakimiyyəti tərəfindən maraqla qarşılandı.

Tədbirin əvvəlində ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olundu. Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov tədbirdə çıxış edərək 15 İyun – Milli Qurtuluş Gününün özəlliklərindən danışdı. Bildirildi ki, bu gün Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai-siyasi və tarixi əhəmiyyətə malik bir gündür. İyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa, dayaq olan əbədiyaşar bir insan – Heydər Əliyevdir.

Qeyd edildi ki, qazanılan bütün nailiyyətlərin əsasında ümummilli lider tərəfindən müəyyənləşdirilən uğurlu siyasi kurs və Prezident İlham Əliyevin bu kursu uğurla davam etdirməsi faktı dayanır. Həmin uğurun bariz nümunəsi 2020-ci il sentyabr ayının 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsində əldə edilən böyük qələbədir.

## Siyəzən



Rayon Mədəniyyət Mərkəzində icra hakimiyyətinin başçısı Novruz Novruzovun iştirakı ilə 15 iyun Milli Qurtuluş Günü ilə əlaqədar keçirilmiş tədbir də "Milli dövlətçiliyimizin xilaskarı" mövzusuna həsr edilmişdi.

Tədbirdə YAP Siyəzən rayon təşkilatının sədri Samir Baxşiyev geniş məruzə ilə çıxış etdi. O, konkret faktlara istinad edərək bildirdi ki, əgər ulu öndər Heydər Əliyev 1993-cü ilin iyun ayında xalqın çağırışına cavab olaraq Naxçıvandan Bakıya gəlməsəydi, yenicə əldə olunan dövlət müstəqilliyimiz ciddi təhlükələrlə üz-üzə qalaraq məhv ola bilərdi. Məhz bu xilaskarlıq missiya sayəsində ölkədə siyasi sabitlik yaradıldı, vətəndaş qarşıdurması dayandırıldı və ölkəmiz tədricən sabit inkişaf yoluna çıxdı. İndi Azərbaycan Cənubi Qafqazın ən güclü ölkəsidir, onun iradəsi olmadan regional miqyasda heç bir addım atıla bilməz.

Bildirildi ki, 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm qələbə isə cari reallıqları Azərbaycanın xeyrinə dəyişmiş, ölkəmizi əsas söz sahibinə çevirmişdir. Bütün bu üstünlüklər isə möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyevin ulu öndərin siyasi kursuna sadiqliyi nəticəsində qazanılmışdır.

Sonra mədəniyyət mərkəzinin direktoru Ziyadə Dadaşovanın "Milli Qurtuluş fəlsəfəsi" mövzusunda çıxışı maraqla dinlənildi. Çıxışlardan sonra Milli Qurtuluş Gününə həsr olunmuş qısametrajlı film nümayiş olundu.

Tədbirin sonunda Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov çıxış edərək 15 İyun – Milli Qurtuluş Gününün Azərbaycan Respublikası üçün tarixi əhəmiyyətini bir daha vurğuladı.

## Şamaxı



Milli Qurtuluş Günü münasibətilə Şamaxıda "Milli dövlətçiliyimizin xilaskarı" adlı tədbir keçirilib.

Tədbirdə çıxış edənlər vurğulayıblar ki, ümummilli liderin xalqın çağırışı ilə respublikamıza rəhbərliyə qayıdışı Azərbaycanın müqəddəratını tənəzzüldən tərəqqiyə doğru dəyişib. Ulu öndər siyasi müdrikliyi, zəngin dövlətçilik təcrübəsi, qətiyyəti və yorulmaz fəaliyyəti ilə dövlət müstəqilliyimizin bütün təhlükələrdən xilas olmasını və ildən-ilə güclənməsini, sarsılmazlığını təmin edib. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşərək, Milli Qurtuluşun açdığı yolla öz böyük gələcəyinə dövlətin, ölkənin böyük perspektivlərinə doğru səfərbər olub.

## Ələt

Qaradağ rayonunun Ələt qəsəbəsində "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC (Bakı Limanı) "Ətraf mühit, sosial və korporativ idarəetmə proqramı" çərçivəsində 15 İyun - Milli Qurtuluş Günü münasibətilə "Ələt Eko Park"ın açılışı olub.

Parkda uşaqların inkişafı üçün əlverişli şərait yaradılıb, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onların idmanla məşğul olmaları məqsədilə futbol meydançası, müxtəlif idman qurğuları, oyun meydançaları salınıb.

Görülmüş işlər çərçivəsində binaları əhatə edən həyətdə asfalt örtüyü yenilənib, 162 metr uzunluğunda velosiped zolağı salınıb. Abadlıq işləri aparılan ərazidəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, müxtəlif növ həmişəyaşıl ağac və gül-çiçək kolları əkilib.

**Əli ƏLİYEV, İlqar HƏSƏNOV,**
**"Xalq qəzeti"**




# Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycana rəsmi səfərə gəlib

**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif iyunun 14-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşıladılar.

**AZƏRTAC**



# Ermənistan atəşkəsi pozur

## İndi konkret məqsəd nədir?

**Ermənistanda bir neçə gündür ki, bu ölkənin xarici işlər naziri Ararat Mirzoyanın Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla iyunun 12-də Vaşinqtonda keçirilməli olan növbəti görüşünün təxirə düşməsi müstəvisində süni ajiotaj yaradılmaqdadır. Görüşün təxirə düşməsi ölkəmizin sülh danışıqlarından guya çıxması kimi təqdim olunmaqdadır.**



Ancaq məlumdur ki, Vaşinqton raundunun başqa vaxta keçirilməsi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfəri ilə bağlıdır. Erməni mediası və siyasi dairələrinin yaratdıqları fon isə ilk baxışdan elə təsəvvür yaradır ki, Türkiyə liderinin Azərbaycana səfəri bəhanədir.

İndi görürük ki, Ermənistan rəhbərliyi uydurduğu "ssenariyə" öz aləmində məntiqi ardıcıllıq müəyyənləşdirməkdədir. Diqqət yetirək, dünən Azərbaycan Ordusunun mövqeləri bir neçə istiqamətdən atəşə tutulub. Bura Şuşa da daxildir, Naxçıvan da. Nəzərə alaq ki, Prezident Ərdoğanın ölkəmizə səfəri Şuşa Bəyannaməsinin ikinci ildönümü ərəfəsində reallaşmışdı. Səfər çərçivəsindəki ayrı-ayrı ikitərəfli və çoxtərəfli təmaslarda həmin sənədin önəmi üzərinə gəlindi, onun əhəmiyyəti vurğulandı.

Görünür, bu cəhət İrəvanın hakim siyasi dairələrində qıcıq yaratdı. Buna görə də məhz Şuşa istiqamətində atəşkəsi pozdular. Onu da nəzərə alaq ki, çoxdandır sırf bu yöndə belə hallar qeydə alınmırdı. Nəticəyə gəlirik ki, Azərbaycan hansı məsələni rəmzləşdirirsə, ona önəm verirsə, erməni avantürizmi həmin nöqtəni sarsıtmaq, bir növ, onun müqəddəslik statusuna xələl gətirməyi düşünür.

İkinci məqam. Azərbaycan özünün, ümumən regionun ekoloji durumu üçün narahatdır. Qeyd edək ki, bir neçə gün öncə ölkəmizin qeyri-hökumət təşkilatları Ermənistanın Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd ərazisi olan Arazdəyən kəndində metallurgiya zavodu inşa etmələrinə qarşı bəyanat səsləndirdilər. Bəyanatın məğzində dayanan başlıca məqam isə bu idi ki, Ermənistan həmin zavodun tullantılarını Araz çayına axıdacaq. Bu qənaətə gəlməyə əsas var. Ona görə ki, əvvəllər də Ermənistan hakimiyyəti oxşar yaramaz əməldən istifadə edərək çayı çirkləndirib, onun canlı aləminə zərər vurub.

Budur naharatlığa, belə deməkmümkünsə, cavab var. Söhbət qeyd etdiyimiz kimi, həmin istiqamətdəki təxribatdan gedir. Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini yenidən müxtəlif çaplı silahlardan intensiv atəşə tutublar. Bu azmış kimi, ölkənin rəhbərliyi törətdiyi əməli Bakının üstünə atmaq kimi həyasız mövqeyə baş vurmaqdadır.

Bəli, belə bir yekun nəticəyə gəlmək mümkündür ki, Ermənistan silahlı qüvvələrinin aktivliyi sülh prosesini pozmağa yönəlib. Görünür, bunu avropalılar da hiss etməkdədirlər. Doğrudur, onlar həmişə olduğu kimi, konkret davranmırlar, təxribatçını öz adı ilə çağırmaqdan yan keçirlər. Məsələn, Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar özünün "Twitter" səhifəsində Ermənistan-Azərbaycan sərhədində artan gərginliyə toxunaraq yazıb: "Bütün ərazilərdə atışma dayandırılmalıdır. Görüşlərin müsbət dinamikasını saxlamaq və danışıqlar masası arxasında Ermənistan, Azərbaycana və bütün regiona fayda gətirəcək nəticələrə nail olmaq vacibdir".

Onu da bildirək ki, Azərbaycanın Müdafiə Nazirliyi Ermənistanın atəşkəs rejiminin pozulmasına görə ölkəmizi günahlandırmasına münasibət açıqlayıb: "Azərbaycan Ordusunun bölmələrinin guya Arazdəyən istiqamətində metallurgiya zavoduna atəş açması və iki nəfərin yaralanması barədə Ermənistan tərəfinin yaydığı məlumatı qəti surətdə təkzib edirik".

Əlbəttə, Azərbaycan sülhün vacibliyini dərk edir. Yeri gəlmişkən, 44 günlük müharibədə qalib dövlət kimi Ermənistana sülh əlini uzadan da məhz ölkəmizdir. Ancaq görünür, İrəvanda bu əli sıxmaq barədə yox, yenə də təxribatlar barədə düşünməkdədirlər. Heç şübhəsiz, belə destruktiv meyillər cavabsız qalmayacaqdır.

***Ə.RÜSTƏMOV, "Xalq qəzeti"***

# Dostluq və qardaşlıq zirvəsindən sabaha baxış

**"Bizim günlərdə Azərbaycan və Türkiyə dil, din, tarix, mənşə birliyi və qardaşlığı ilə çətinlikləri birlikdə aşıb, yaxşı və pis gündə həmrəy olmanın nümunəsini bütün dünyaya göstərib. Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın növbəti dəfə prezident seçildikdən sonra ilk səfər etdiyi müstəqil dövlətin Azərbaycan olması bu gerçəyi bir daha sübut etdi". Türkiyənin Milliyyətçi Hərəkat Partiyasından (MHP) millət vəkili seçilmiş, MHP-nin Türk dünyası və beynəlxalq əlaqələr üzrə sədr müavini Kamil Aydın "Xalq qəzeti"nə bu açıqlamasının davamında bildirdi:**



– Bu birliyin əsasını Türkiyə Cümhuriyyətinin qurucusu Qazi Mustafa Kamal qoyub. Qurucu liderimiz Atatürk Türkiyə xaricində yaşayan soydaşlarımızla mənəvi körpülərimizi qoruyub saxlamağın, dilimizə, inancımıza, kökümüzə sahib çıxmağın, zamanı gələndə türk xalqları və toplumlarının bizə yaxınlaşmasını gözləmədən bizim onları himayə etməyimizin vacibliyini vəsiyyət edib.

Türkiyə 44 gün davam edən İkinci Qarabağ müharibəsində bütün səviyyələrdə azərbaycanlı qardaşlarının yanında oldu, Qarabağın azadlığı üçün bütün imkanlarını səfərbər etdi. Son 20 ildə ölkələrimizin prezidentlərinin ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutaraq fəaliyyət göstərməsi Azərbaycan və Türkiyə ilə yanaşı, türk dövlətlərinə də tarixi qələbə qazandırır. Bununla da türk dövlətləri birliyinin əhəmiyyəti bir daha artır. Hətta regional təhlükələrə görə türk birliyindən çəkinən ölkələr də Qarabağ savaşı zamanı ortaya qoyduğumuz məqsəd və qətiyyətlə hesablaşmalı oldu. Öndərlərimiz Atatürk və Heydər Əliyevdən bizə miras qalan qardaşlıq ənənələrini prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev yüksək səviyyədə davam etdirirlər.

**2021-ci il iyunun 15-də azadlığına qovuşmuş qədim türk şəhərində qəbul edilmiş Şuşa Bəyannaməsini xatırlayan Kamil Aydın dedi:**

–Azərbaycan və Türkiyə dövlətləri tərəfindən imzalanmış bu sənəddə iki ölkənin siyasi, iqtisadi, sosial, mədəni, humanitar, səhiyyə, təhsil, gənclər və idman sahələrində, digər tərəfdən isə müdafiə məsələsində strateji ortaqlığı təsdiqlənib. Əldə edilən irəliləyişlərin ardından ölkəmizdə əsrin fəlakəti kimi tanınan zəlzələlərdən sonra Azərbaycan "Dostlar gözlənilmədən, çağırılmadan gəlir" məramı ilə köməyə tələsən ilk ölkə oldu. Zəlzələ bölgəsinə həm axtarış-xilasetmə, həm də maddi-texniki dəstək göndərən və əllərindən gələn köməyi əsirgəməyən azərbaycanlı soydaşlarımızın bizim üçün etdikləri iki ölkənin yaxşı və pis günlərdə bir yerdə olduğunun ən bariz nümunəsidir"

Azərbaycan Türkiyədə keçirilən 14 may prezident və parlament seçkilərində, eləcə də mayın 28-də prezident seçkilərinin ikinci turunda mənəvi dəstəyi ilə Türkiyədə demokratik seçkilərin qələbə çalmasına töhfə verdi. Türkiyə üçün həyati əhəmiyyət kəsb edən bu prosesdən sonra dövlətimizin başçısının dəvəti ilə ölkəmizə səfər edən Azərbaycan Prezidenti İlham Əliyev vurğuladı ki, iki ölkə arasında dostluq və qardaşlıq münasibətləri daimi və sarsılmazdır.

**Kamil Aydın Türkiyə Prezidentinin Azərbaycana son rəsmi səfərinin əhəmiyyətini qısaca belə ifadə etdi:**

–Azərbaycan rəhbəri İlham Əliyevin Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanla, eləcə də nümayəndə heyətləri arasında keçirilən görüşlərində ikitərəfli, regional məsələlərlə yanaşı, beynəlxalq aləmin gündəm daşıyan mövzuları da diqqət mərkəzində oldu. Bu səfər dünyada bənzəri olmayan dostluq və qardaşlığımızı yeni bir səviyyəyə qaldırdı. Biz tezliklə dünyaya yeni bir uğur zirvəsindən baxacağıq.

***Mehparə SULTANOVA, "Xalq qəzeti"***

**Ankara**

# Laçına daha 22 ailə qayıtdı



**Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Dünən 72 nəfər olmaqla, daha 22 ailə doğma yurda qovuşmağın sevincini yaşayıb.**

Qeyd edək ki, Laçına qayıdan ailələr, əsasən, Bakı və Sumqayıt şəhərlərində, həmçinin Abşeron rayonunda müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayan keçmiş məcburi köçkünlər arasından seçilib. Onlar Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşıblar.

Bundan əvvəl Laçın şəhərinə 20 ailə, yeni 97 nəfər köçürülmüşdü.

# Rusiya Prezidenti Vladimir Putin Azərbaycana yeni səfir təyin edib

**Prezident Vladimir Putin Mixail Yevdokimovun Rusiyanın Azərbaycanda yeni səfiri təyin olunması barədə fərman imzalayıb. Sənəd Rusiyanın hüquqi informasiya portalında dərc olunub.**

Fərmana əsasən, Mixail Boçarnikov Rusiyanın Azərbaycandakı səfiri vəzifəsindən geri çağırılır. Eyni zamanda, Mixail Yevdokimov bu ölkənin Bakıdakı yeni fövqəladə və səlahiyyətli səfiri vəzifəsinə təyin olunur.

Bundan əvvəl M.Yevdokimov Rusiya XİN-in postsovet məkanında çoxsahəli əməkdaşlıq məsələlərinə kuratorluq edən MDB ölkələri üzrə Birinci Departamentinin direktoru vəzifəsində çalışıb.

# Məktəbdə “son zəng” – “böyük yol”da başlanğıc

**Minlərlə şagirdin orta məktəbə əlvida deyib, yeni həyata doğru yol aldığı son zəng günü... Bir gözəl nəğmədə deyildiyi kimi, “Hər anı bir ömrə bərabər sehirli günlər” son zəngin sədaları altında bitir. Bitir ki, yeni həyata qapı açılsın.**



Müstəqil həyatın astanasında duran məzunlar məktəbdən ayrılmağın zamanının gəldiyini başa düşür, son zəngin həyəcanını yaşayırlar. 11 il onların qayğısını çəkən müəllimlərin məzunlara vida sözü onları kövrəldir, qəhərləndirir. Doğma məktəbdən, əziz müəllimlərindən ayrılmaq məzunlara çətin olsa da, onları yeni həyat gözləyir. Onlar illərcə əxz etdikləri bilik və təcrübələrlə “böyük yol”a çıxırlar.

Budur, məktəbin qoynunda yeni həyata səsləyən son zəngi gözləyən məzunlar isə hadisələri tələsdirmədən mehriban, qayğıkeş, lazım gəldikdə kifayət qədər tələbkar olan müəllimlərinə sığınıblar. Məzun Gülnar Məmmədovanın nənəsi Sahilə Əkbərova bu hisslərin ona tanış olduğunu deyir:

– 40 il müəllim kimi çalışmışam. Son zəng günü məzunlar kimi, biz müəllimlər də kövrəlirdik. Həmin gün məzunlara deyəcəyimiz çoxlu söz olsa da, deyə bilmirdik. Elə şagirdlərimizdən də bunu hiss edirdik. Uzun illər onlardan qayğı və diqqəti əsirgəməyən müəllimlərinə minnətdarlıq etmək üçün məqam axtarsalar da, son anda susur, kədər və sevinc hissi ilə ayrılırdılar.



Qeyd edək ki, builki “Son zəng” tədbiri hər bir ümumtəhsil müəssisəsinin həyətyanı sahəsində və ya idman salonlarında təşkil olunub. 2022/2023-cü tədris ilində 98 min 647 şagird XI siniflərdən məzun olub ki, onlardan 89 min 112 nəfəri Azərbaycan bölməsində, 8 min 824 nəfər isə rus bölməsində təhsil alıb.

Paytaxt məktəblərində son zəng həyəcanına şahid olmaq üçün bir neçə təhsil müəssisəsinə baş çəkdik. Azərbaycanın Milli Qəhrəmanı Tahir Həsənov adına 23 nömrəli tam orta məktəbdə son zəng tədbirində iştirak edən məzunlar, onların valideynləri və müəllimlərlə görüşdük.

**Məzun Gülarə Əkbərova dedi:**

– “Son zəng günü bizim üçün sanki həm də bir sınaqdır. Bu gün qəlbimizə kövrək hisslər hakim olsa da, göz yaşlarımızı göstərməməyə, qətiyyətli görünməyə çalışırdıq. Çünki məktəbdən ayrıldığımız gün, həm də müstəqil həyata qədəm basdığımız məqam hesab olunur. Hər birimizdə əminlik olmalıdır ki, sərbəst həyatın çətinliklərinə sinə gərə bilək. Düzdür, əksər məzunlar ali məktəblərə daxil olmağı, təhsilini davam etdirməyi fikirləşir.



Amma düşünəndə ki, özümüz qərar qəbul etməli və gələcək həyatımızı müəyyənləşdirməliyik, bu, üzərimizə əlavə məsuliyyət qoyur. Əminəm ki, məktəb illərində öyrəndiyimiz biliklər həmişə köməyimizə gələcək.

**Valideyn Çinarə Hüseynli indiki məzunların gələcəyinin daha işıqlı olacağına əminliyini bildirdi:**

– Qızım Selcan məzundur. Mən özüm də 23 nömrəli məktəbdə müəllim kimi çalışıram. Məzunların bu xoş günündə demək istəyirəm ki, indiki gənclər çox xoşbəxtdirlər. Müasir, müstəqil və qalib Azərbaycan gənci üçün imkanlar daha genişdir və onlar bu imkanlardan istifadə etmək üçün hərtərəfli bilikli olmalıdırlar. Cəmiyyətin aparıcı qüvvəsi olan gənclik, eyni zamanda, daim axtarışda olan bir qüvvədir. Onların gücü, qüvvəsi tükənməzdir. Qızıma, bu il məzun olan bütün gənclərə öz gələcək həyatlarını düzgün müəyyən etməyi, qarşıya qoyduqları hədəfə çatmağı arzulayıram.

Bakının 151 nömrəli tam orta məktəbini bitirən məzun Nihat Əlizadənin anası Günay Əliyeva övladlarının yüksək dünyagörüşə malik, bilikli, vətənpərvər gənc kimi yetişməsində məktəbin rolunun əvəzsiz olduğunu vurğuladı: “Məktəbin, müəllimlərin övladlarımız üzərində haqqı böyükdür. Bu gün böyük minnətdarlıq hissi ilə onların əməyini xatırlayırıq. Düz 11 il onlar övladlarımızın təlim və tərbiyəsi ilə məşğul olublar və bu şərəfli işi davam etdirirlər”.

Nəhayət, “Son zəng” anı yetişir. Məzunların həyatında bir dəfə səslənən “Son zəng”in sədaları yeni həyata çağırış kimi onların qəlbini titrədir. Bu gənclərin hər biri qətiyyət və böyük inamla irəli getmək, uca zirvələr fəth etmək iqtidarındadır. Yolunuz açıq olsun, əziz məzunlar!

*Leyla QURBANOVA,*
*“Xalq qəzeti”*




# Şəkidə daha bir turizm ünvanı – “Az Abrau Muzeyi”

## 15 iyun ölkəmizdə turizm mövsümünün açılış günüdür

**Turizmin inkişafı hər yerdə prioritet istiqamət sayılır. Çünki fəsildən asılı olmayaraq, turizm ölkəyə valyuta gətirir, həm də ölkənin hərtərəfli tanınmasına şərait yaradır. Buna görə də, onun inkişafı Azərbaycanda da diqqət mərkəzində saxlanılır. Füsunkar təbiətə, zəngin mətbəxə və qonaqpərvərlik ənənələrinə malik ölkəmizin bu sahədə böyük potensialı var. Xüsusilə də son zamanlar şərabçılıq turizminin inkişaf etdirilməsinə yönəlmiş addımlar Azərbaycanı yeni yönümlü məkana çevirir.**



Azərbaycan ərazisində üzüm eramızdan əvvəl III minilliyin sonlarından becərilir. Lakin XVIII əsrin sonlarına qədər çoxsaylı müharibələr və işğallar səbəbindən üzümçülük vaxtaşırı tənəzzülə uğradı. XIX əsrin əvvəllərində Azərbaycanın çar Rusiyasına birləşdirilməsindən sonra ilk üzümçülük və şərabçılıq zonaları formalaşdı. Sovet hakimiyyəti qurulduqdan sonra respublikada üzümçülük sürətlə inkişaf etdi. Hətta 1984-cü ildə Azərbaycanda üzümçülük tarixində rekord məhsul – 2 milyon 500 min ton məhsul yığılmışdı. Ancaq 1985-ci ildə Mixail Qorbaçovun alkoqol əleyhinə başlatdığı kampaniya üzündən şərabçılıq sənayesi iflasa uğradı. Demək olar ki, Azərbaycanda bütün şərab növlü üzüm tənəkləri kökündən çıxarıldı.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra şərabçılıq sənayesi yeni inkişaf mərhələsinə qədəm qoyub. İndi ölkədə bir çox yerli və xarici sahibkarlar şərabçılığın inkişafına öz töhfələrini verirlər. Belə şirkətlərdən biri də “Abrau-Durso” Şirkətlər Qrupudur.

“Abrau-Durso” üzüm bağlarının salınması üçün, ümumilikdə, 430 hektar torpaq sahəsi alıb, meynələrin əkilməsi ilə bağlı hazırlıq işləri görüb. İyunun 9-da “Şəki Şərab” zavodunda köpüklənən şərab istehsalının saatda 4000 butulka istehsal gücü ilə ən yeni xətti işə salınıb. Süzülən ilk şərab “Abrau International” Azərbaycan ərazisində yetişdirilən yerli və beynəlxalq üzüm sortlarından hazırlanmış köpüklənən şərabdır. Köpüklənən şərab həm ölkə ərazisində satışa çıxarılacaq, həm də xaricə göndəriləcək. Eyni zamanda, xarici şirkətlərin regiona gəlməsi yeni iş yerlərinin yaradılması deməkdir.

Bu, şərabçılıq turizminin inkişafına növbəti təkandır. Axı, şərabçılıq təkcə yeni iş yerləri demək deyil, o həm də turizmin son illər sürətlə yayılan istiqamətinin – şərabçılıq turizminin ayrılmaz hissəsi sayılır. Bu reallığı yüksək qiymətləndirən “Abrau-Durso” şirkəti də müəssisənin ərazisində unikal şərab muzeyi – “Az Abrau Muzeyi” açıb. Muzeydə Azərbaycanda zəngin üzümçülük və şərabçılıq mədəniyyətinin tarixini əks etdirən ekspozisiya təqdim olunur. Şübhəsiz ki, muzey öz qonaqları üçün fəaliyyət göstərən müəssisəni ziyarət etmək və şərab istehsalı prosesi ilə tanış olmaq imkanı da yaradacaq. “Az Abrau Muzeyi” bu regiona səfərlər üçün mühüm cəlbedici mərkəzə və öz tarixi ilə məşhur olan Şəkidə turistlərin görməli olduğu əsas məkana çevriləcək.

Mütəxəssislər əmindirlər ki, şərabçılıq turizmi ilə daha çox xarici ölkə vətəndaşını Azərbaycana turist kimi cəlb etmək mümkündür. Xüsusilə də zəngin Avropa ölkələrinin əksəriyyətində bu turizm sahəsinə böyük maraq var. Bu mənada “Az Abrau Muzeyi” ölkəmizin şərabçılıq turizminin böyük potensialının təbliğatı baxımından əhəmiyyət kəsb edir.

*İlqar HƏSƏNOV,*
*Səbuhi MƏMMƏDOV,*
*“Xalq qəzeti”*

# “Qurtuluşdan Zəfərə”

**Azərbaycan Hərb Tarixi Muzeyində 15 İyun Milli Qurtuluş Gününə həsr olunmuş “Qurtuluşdan zəfərə” adlı tədbir keçirilib.**

Tədbirdə Müdafiə Nazirliyinin idarə və müəssisələrinin, hərbi hissələrin, veteran təşkilatlarının, qeyri-hökumət təşkilatlarının və digər idarə-müəssisələrin nümayəndələri iştirak ediblər.

Tədbirdə mövzu ətrafında muzey rəisi, polkovnik Əzizağa Qənizadənin, muzeyin tədqiqatçı-baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılovun məruzələri və digər çıxışlar dinlənilib.

Qeyd edilib ki, Milli Qurtuluşdan başlanan yol Azərbaycan xalqına Zəfər sevincini yaşadıb. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin qətiyyəti, rəşadətli Azərbaycan Ordusunun gücü, qüdrəti, xalqımızın birliyi sayəsində 30 ilin işğalına 44 gündə son qoyulub. Xalqımız məğrur, yenilməz xalq olduğunu dünyaya bir daha nümayiş etdirib.

Sonra Qurtuluş Gününə həsr olunmuş sənədli film nümayiş olunub.

Tədbirin bədii hissəsində hərbi-vətənpərvərlik mövzulu musiqilər səsləndirilib.

*Leyla AZAD,*
*“Xalq qəzeti”*

SON SƏHİFƏ
Xalq qəzeti
Xalqın qəzeti!
№ 126 (30242) 15 iyun 2023-cü il, cümə axşamı
veb-sayt: www.xalqqazeti.az

Mədəniyyət xəbərləri



***Norveç doğumlu, əslən cənubi azərbaycanlı, "Shervin Najafpour" qadın geyimi brendinin yaradıcısı, modelyer-dizayner Şervin Nəcəfpur Türkiyədə sayca 6-cı "Antalya Moda Həftəsi"ndə iştirak edib.***

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin 100 illiyi münasibətilə onun kolleksiyası xüsusi dizaynlı köynək və çoxistifadəli parça çantalar təqdim olunub.

"Nizami Gəncəvi Vəqfi" İctimai Birliyinin təşəbbüsü ilə Azərbaycan mütəfəkkiri Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasının süjetləri əsasında azərbaycanlı rəssam Pərinisə Əsgərovanın hazırladığı "Danışan irs" miniatürlər kolleksiyası da maraqla qarşılanıb.

*



***"Heydər Əliyev İli" münasibətilə Azərbaycan Rəssamlar İttifaqında 5 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi tərəfindən "Gələcəyə rəngli baxışlar" adlı yaradıcılıq sərgisi açılıb.***

Sərgidə mərkəzin dərnək üzvlərinin milli və müasir üslubda işlənmiş rəsmlərindən – portret və dekorativ kompozisiyalardan ibarət 200-dən çox işi nümayiş etdirilib.

Dəvət olunan qonaqlar gənc rəssamların əl işlərini yüksək qiymətləndirərək bu cür sərgilərin uşaqların istedadlarının üzə çıxarılmasında böyük əhəmiyyət daşıdığını vurğulayıb və onlara yaradıcılıq uğurları arzulayıblar.

*



***Bakıda start götürən sürətli idman avtomobillərinin yürüşü Lənkəranda yekunlaşıb. Azərbaycan Avtomobil Federasiyasının (AAF) təşkil etdiyi yürüşün iştirakçıları Heydər Əliyev xatirə parkında təşkil olunan "Avropa Şəhərciyi"nə baxış keçiriblər.***

Prezidentin köməkçisi, AAF-nin prezidenti Anar Ələkbərovun da qatıldığı yürüşün iştirakçıları orada quraşdırılmış çadırlarda xüsusi stendlər vasitəsi ilə Aİ-nın Azərbaycandakı fəaliyyətini əks etdirən təqdimatlarla tanış olublar. Sonra avtomobil həvəskarları üçün şəhərin dəmiryolu vağzalı ərazisində drift-şou keçirilib. Böyük marağa səbəb olan tədbiri Lənkəran sakinləri və şəhərin qonaqları həyəcanla izləyiblər.

Yürüş proqramı çərçivəsində O.Mirzəyev adına qarışıq tipli uşaq evi ziyarət edilib, "Spring otel"in avtoparkında tədbir təşkil olunub və çay plantasiyalarına baxış keçirilib.

*Ə.DOSTƏLİ, "Xalq qəzeti"*

# Əsrin gözəl qadın obrazı

**Avstriyalı rəssam Qustav Klimtin çəkdiyi "Gözəlliyə həsr edilmiş portret" adlı rəsm əsərinin London hərracında 65 milyon funt sterlinqə satılacağı gözlənilir.**



Şəkildə çiçəklərin və quşların fonunda əsrarəngiz gözəlliyə malik qadın fiquru əks olunub. Bu əsər həm də Klimtin Çin və yapon incəsənətinə olan məftunluğunu əks etdirir.

Klimtin ölümündən qısa müddət sonra əsər rəssamın ən yaxın dostu, Vyana sənayeçisi Ervin Böhler tərəfindən alınıb. Bu əsər rəssamın sonuncu əl işidir. O, 1918-ci ildə 55 yaşında bu portret üzərində işləyərkən, gözlənilmədən insult keçirir və vəfat edir.

Qeyd edək ki, rəssamın digər əsəri – "Ağcaqayın meşəsi" adlı mənzərə tablosu keçən il hərracların birində 104,6 milyon dollara satılıb.

*Fidan SALMANOVA, "Xalq qəzeti"*

Bizə yazırlar

# Şəki qocalarının Ərdoğan sevgisi

**Redaksiyamıza hər gün paytaxtdan və bölgələrdən müxtəlif mövzulu məktublar gəlir. Kimisi ölkədəki abadlıq-quruculuqla bağlı, kimisi də cəmiyyətdə gedən siyasi proseslərlə bağlı fikir bildirir. Bugünlərdə maraqlı bir məktub aldıq. Şəki şəhərindən təqaüdçü Əlihüseyn İsayev yazır:**

"Hörmətli redaksiya, biz Şəki şəhərində yaşayan təqaüdçülər hər gün Bəxtiyar Vahabzadə adına parkın nəzdində olan çayxanada istirahət edir, dünyada gedən prosesləri öz aramızda təhlil və müzakirə edirik. Həmin müzakirələrdə biz Türkiyədə mayın 14-də 28-də keçirilən prezident seçkilərindən də danışırdıq. Yoldaşlarımızdan biri–Nüfvəli bəy seçkiləri müzakirə zamanı bildirdi ki, əgər türk xalqı Rəcəb Tayyib Ərdoğanı yenidən prezident seçərsə, mən türk bəyləri qoyan qırmızı papağı başıma qoyub ehtiramımı bildirəcəyəm. Qoy Rəcəb Tayyib Ərdoğan bilsin ki, onun alicənablığını, vətənpərvərliyini, Türkiyənin gələcəyi naminə necə çalışmasını Şəkidə də sevir və dəstəkləyirlər".



Əlihüseyn İsayev Nütvəli bəyin qırmızı bəy papağı ilə çəkdirdiyi şəkli də göndərib və məktubunda xahiş edib ki, bu məlumatı və şəkli "Xalq qəzeti"ndə "Şəkili balası Nütvəli bəy" başlığı ilə dərc edək və qəzetin həmin nömrəsini yaşadığı – Şəki şəhəri, Ə.Məmmədov küçəsi, ev 39 ünvanına göndərək.

Əlihüseyn bəyə və onun təqaüdçü yoldaşlarına ömrün ahıl çağında cəmiyyətdəki siyasi proseslərə laqeyd olmadıqlarına, Azərbaycanın qardaşı və dostu Türkiyədə gedən seçkilərə maraq göstərdiklərinə görə təşəkkür edirik. Onlara bildiririk ki, yalnız siz yox, Azərbaycan xalqının bütün vətənpərvər övladları Vətən müharibəsində siyasi, maddi, mənəvi dəstəyini ölkəmizdən əsirgəməyən, hər an yanımızda olan Türkiyənin daha da inkişafı naminə Rəcəb Tayyib Ərdoğanın seçilməsini arzu edir və buna inanırdıq. Belə olmasaydı, Ərdoğanın seçildiyi gün paytaxt və bölgələrdə, hətta ölkə xaricində yaşayan soydaşlarımız tərəfindən çox saylı qurbanlar kəsilməz, insanlar sevincindən küçələrdə izdiham yaratmazdılar.

Sevincinizə şərikik, Şəki təqaüdçüləri!

*Təqdim etdi:*
*Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"*

# Sürücüsüz "KamAZ"lar

**Pilotsuz "KamAZ" yük maşınları Sankt-Peterburqdan Moskvaya gedən M-11 "Neva" şossesi ilə hərəkət etməyə başlayıb.**



Rusiya mediası bildirir ki, belə avtomobillər ölkədə ilk dəfə ictimai yolda peyda olub. Onların hərəkətinə bir gün əvvəl Nəqliyyat Nazirliyindən məlumat verilib. Avtonom idarəetməyə baxmayaraq, avtomobillərin kabinələrində sürücülər olacaq. M-11 avtomobil yolunda dronların istismarı üçün müvafiq infrastruktur, o cümlədən yolun özünün riyazi modeli yaradılıb.

"Pilotsuz Logistika Dəhlizləri" layihəsi çərçivəsində pilotsuz "KamAZ" avtomobillərinin hərəkətinə başlanılıb. Yük maşınları bir neçə şirkətdən kommersiya yüklərinin daşınması üçün istifadə olunacaq. Layihəyə, xüsusən PEK, Globaltruck, Qazpromneft-Supply daxildir.

*"Xalq qəzeti"*

✓ "Zəyəm Texnologiyalar Parkı"ASC-yə məxsus emissiya prospekti və özəlləşdirmə şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

İdman xəbərləri

# Son 12 ilin rekordu

**Azərbaycan Premyer Liqasında son 12 ilin rekordu qeydə alınıb.**

Belə ki, 2022-2023-cü il mövsümündə 17 baş hakim oyunları idarə edib.

Daha yüksək göstərici sonuncu dəfə 2010-2011-ci il mövsümündə yaşanıb. Həmin vaxt 19 ədalət təmsilçisi baş hakim kimi təyinat alıb. Sonrakı mövsümlərdə bu rəqəm aşağı olub.

Geridə qalan mövsüm üç hakim daha çox – hərəyə 16 qarşılaşmada ədaləti qoruyub. Mövsümün liderləri Əliyar Ağayev, Fərid Hacıyev və Tural Qurbanov olublar.

Elçin Məsiyev və Rəşad Əhmədov hərəyə 15, Rəvan Həmzəzadə 14 dəfə meydana baş hakim kimi çıxıb. On iki referi 10 və ya daha çox matçı idarə edib. Üç hakim isə yalnız bir qarşılaşmada ədaləti qoruyub.

# Güləşçilərimizin 4 medalı



**Albaniyanın paytaxtı Tiranada güləş üzrə U-17 Avropa çempionatında güləşçilərimiz 4 medal qazanıblar.**

Yunan-Roma güləşçilərindən Elnar Ziyadov (48 kq), Ayxan Cavadov (55 kq), Elmin Əliyev (80 kq), Mahir Qurbanlı (110 kq) üçüncü yeri tutublar.

# Azərbaycan–Malayziya: badminton körpüsü

**Azərbaycan Badminton Federasiyası ilə Malayziyanın Badminton Federasiyası arasında əməkdaşlıq memorandumu imzalanıb.**




Azərbaycan Badminton Federasiyasının prezidenti Taleh Ziyadov və Malayziya Badminton Federasiyasının prezidenti Mohamad Norza Zakaria arasında imzalanan memoranduma əsasən tərəflər arasında bir çox sahələrdə əməkdaşlıq proqramı həyata keçiriləcək. Bu çərçivədə badmintonçuların hazırlıq səviyyəsinin artırılması məqsədilə birgə təlim-məşq toplanışlarının keçirilməsi, məşqçilərin təkmilləşdirməsi üçün kursların təşkili, hakimlərin hazırlanması, idman infrastrukturunun inkişafı və idarə edilməsi sahələrində təlim və bilik mübadiləsi, bundan əlavə digər istiqamətlər üzrə birgə fəaliyyət nəzərdə tutulub.

*L.SABİRQIZI, "Xalq qəzeti"*

Proqnoz

# Rayonlarda fasilələrlə leysan yağacaq, dolu düşəcək



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən iyunun 15-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 18-23°, gündüz 26-31° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 755 mm civə sütunu, nisbi rütubət 55-65 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 21-22° isti,Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 23-24° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə fasilələrlə leysan xarakterli yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 30-35°, dağlarda gecə 7-12°, gündüz 12-17° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

# Filarmoniyada "Yeni adlar"

**Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Yeni adlar" layihəsi çərçivəsində növbəti konsert keçirilib.**

Konsertdə bədii rəhbər və baş dirijor, Əməkdar artist Fuad İbrahimovun rəhbərliyi altında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə gənc istedadlar – respublika və beynəlxalq müsabiqələr laureatları, Prezident təqaüdçüləri Zərrin Əliyeva (violin) və Nərminə İsmayılova (piano) çıxış ediblər.

*"Xalq qəzeti"*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5166
SİFARİŞ 1502
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00